RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 235 (9980) 4 noyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# İnformasiya müharibəsinin BAŞ QƏHRƏMANI

Azərbaycan Prezidenti cənab İlham Əliyev 44 günlük Zəfər müharibəsi dövründə otuzdan çox jurnalisti qəbul edərək onlara müsahibə vermişdi.

Əlbəttə, onların arasında xoş niyyətlə, əsl həqiqəti öyrənib yazmaq üçün gələnlər də var idi.

Lakin informasiya müharibəsinin qərəzli iştirakçıları da az deyildi.

Onlardan ikisinin - 2020-ci il oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına və noyabrın 6-da "BBC News"ə Müzəffər Ali Baş Komandanımızın verdiyi müsahibələrin timsalında bu sahədəki "döyüşlər" barədə müəyyən təsəvvür yaratmağa çalışacağıq.

Adətən, müsahibə götürənlər Ermənistanın Baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək sülh danışıqlarını mənasız etməklə hərbi əməliyyatlara rəvac verməsini gizlədərək yeni müharibənin tətikçisi və başlayanın, habelə qadağan olunmuş silahlardan istifadə edənin və dinc əhaliyə atəş açanın Azərbaycan olduğunu, Türkiyənin isə hərbi əməliyyatlarda iştirakını "boynumuza qoyaraq" dünyaya çatdırmağı hədəfə alırdılar.

İki müsahibədən gətirəcəyimiz parçalar, əslində, dünyadakı "azad media"nın mahiyyətini dərindən dərk etməyə, peşə davranışı qaydalarını kobudcasına pozan jurnalistlərin açıq-aşkar şəkildə tərəf tutmalarını, nəyin bahasına olursa-olsun Azərbaycan tərəfini günahkar çıxarmaq niyyətini gerçəkləşdirməkdən ötrü dəridən-qabıqdan çıxma cəhdlərini göstərən misallardır.

Fərəhli və qürur doğuran haldır ki, cənab İlham Əliyev bütün bu niyyətləri dəmir məntiqi, tutarlı faktları, sakit və soyuqqanlı davranışı, habelə tez-tez əl atdığı "əks hücum" taktikası ilə heçə çıxara bilirdi!

Mövzular üzrə müəyyən məqamlara diqqət yetirək.

Türkiyə ordusunun guya Azərbaycan tərəfindən döyüşməsi:

" - Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir? Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.

- Siz əsgərlərlə danışmısınız?
- Bəli.
- Döyüş meydanında?
- Xeyr, döyüş meydanında yox.
- Bəs harada?
- Bakı şəhərində.
- Onlar burada, Bakıda döyüşürlər?
- Xeyr, xeyr. Bununla belə, onlar buradadırlar.
- İndi burada alman əsgərləri də ola bilər".

Etnik təmizləmə ilə bağlı:

" - Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?

- Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Buna görə bu rəsmi mövqeyi, Azərbaycanda yaşayan minlərlə ermənini və heç kimin onları etnik təmizləmədiyini nəzərə alaraq, biz bunu orada nə üçün etməliyik ki?"

6

# Azərbaycan hər zaman elmin inkişafına böyük diqqət yetirir

## Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxış edib



Noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaq keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə dövlətimizin başçısı Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və akademiyanın 80 illik yubiley yığıncağında iştirak edən xarici qonaqlarla görüşdü.

Sonra Prezident İlham Əliyev tədbirdə çıxış etdi.

2

# Yeni əsrin modern ordusu

## 32 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə başlanan ordu quruculuğu Azərbaycanı dünyanın ən güclü sülahlı qüvvələrindən birinə sahibləndirib

32 il öncə, 1993-cü il noyabrın 2-də Ulu Öndərin televiziya və radio ilə xalqa müraciətindən sonra xalqımız, sözün həqiqi mənasında, bir nəfər kimi ölkəmizin müdafiəsinə qalxdı. Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün bünövrəsi qoyuldu.



3

# Torpağın qədrini əsl sahibi bilər

## Qarabağ və Şərqi Zəngəzurdakı dirçəliş bunun əyani təsdiqidir



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri nəticəsində regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib.

12

# 44 günlük Vətən müharibəsi



## Düz 5 il əvvəl həmin gün

13

# Azərbaycan hər zaman elmin inkişafına böyük diqqət yetirir

## Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxış edib



- Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Hörmətli alimlər.

Mən sizi Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm, akademiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan alimləri bundan sonra da ölkəmizin uğurlu inkişafına öz töhfələrini verəcəklər.

Akademiya 80 il ərzində böyük yol keçmişdir, Azərbaycanda elmin inkişafında aparıcı rol oynamışdır. Bu illər ərzində biz müxtəlif ictimai-siyasi quruluşlarda yaşasaq da, Azərbaycan hər zaman öz elminin inkişafına böyük diqqət yetirirdi. Sirr deyil ki, Ulu Öndər Heydər Əliyev hər zaman Azərbaycan alimlərini dəstəkləmək üçün öz səylərini əsirgəmirdi. Hələ ötən əsrin 70-ci illərində onun rəhbərliyi ilə akademiyanın fəaliyyəti təkmilləşdi, bir neçə yeni elmi-tədqiqat institutu yaradıldı, elmin inkişafına böyük vəsait ayrılırdı. Faktiki olaraq bu siyasət müstəqillik illərində də davam etdirilirdi. Ulu Öndərin təşəbbüsü ilə keçən əsrin 70-ci illərindən başlayaraq, yüz minlərlə Azərbaycan gənci o vaxt Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərilmişdir və beləliklə, ölkəmizdə intellektual potensial daha da güclənmişdir. Eyni siyasəti biz müstəqillik illərində də aparırıq. Bu gün də on minlərlə Azərbaycan gənci artıq dünyanın aparıcı ali məktəblərinə ezam olunur. Onların böyük əksəriyyəti oxuyub Vətənə qayıdırlar və beləliklə, ölkəmizin inkişafına öz dəyərli töhfələrini verirlər.

Müstəqilliyin ilk illəri çox ağır idi, faciəvi idi. O vaxt məhz Heydər Əliyevin qətiyyəti, iradəsi, xalqa olan bağlılığı bizi böyük bəlalardan qurtara bilmişdir. O da çox böyük göstəricidir ki, onun hakimiyyətə qayıdışından sonra Azərbaycan ziyalıları ilə, Azərbaycan ictimaiyyəti ilə ilk görüşü məhz 1993-cü ildə Milli Elmlər Akademiyasında olmuşdur. Beləliklə, o, bir daha müstəqil Azərbaycanın, yəni yeniləşən Azərbaycanın prioritetlərini açıq şəkildə bəyan etmişdir. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, demək olar ki, yox idi, xəzinə boş idi. Azərbaycan böyük humanitar fəlakətlə üz-üzə idi. Bir milyondan çox qaçqın və məcburi köçkün, torpaqlarımızın işğal altına düşməsi və çox böyük iqtisadi, maliyyə çətinlikləri. Amma buna baxmayaraq, yenə də akademiyanın işinə, Akademiyanın qorunmasına, alimlərin fəaliyyəti üçün vəsait ayrılırdı.

Təbii ki, illər keçdikcə, Azərbaycan inkişaf etdikcə bu vəsait daha böyük həcmdə ayrılır. Son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Mənim prezidentlik dövrümdə də bu istiqamətdə, yəni Azərbaycan elminin inkişafına göstərilən diqqət Ulu Öndərin siyasətinə uyğun şəkildə aparıldı. Bir çox addımlar atıldı. Akademiyanın maddi-texniki bazası möhkəmləndirilmişdir və burada yerləşən, bu akademiya şəhərciyində yerləşən binaların təmiri aparıldı. Buraya, elmə aidiyyəti olmayan, akademiyanın bəzi binalarını zəbt etmiş qurumlar buradan çıxarıldı. Yeni böyük elmi kitabxana inşa edilmişdir. Milli Ensiklopediya üçün yeni bina inşa edilmişdir. Elmi-tədqiqat institutlarının, dediyim kimi, təmiri və avadanlıqlarla təchizi təmin edilmişdir. Elm Fondu hələ 2009-cu ildə yaradılmışdır. O vaxt bu fondun yaradılmasının əsas məqsədi Azərbaycan alimlərinə maddi dəstək vermək, elmin inkişafına qrantlar çərçivəsində təkan vermək idi. Elmin inkişafı üzrə Milli Strategiya qəbul edilmişdir. "Elm haqqında" qanun qəbul edilmişdir, Dövlət Proqramı qəbul edilmişdir. Yəni görülmüş bütün işləri sadalamaq üçün çox vaxt lazımdır. Sadəcə olaraq, bunu bildirməliyəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu istiqamətdə də Heydər Əliyev siyasəti davam edir, yaşayır, yeni formalarla zənginləşir.

Mən 10 il bundan əvvəl - Akademiyanın 70 illiyində bax bu salonda alimlər qarşısında çıxış etmişdim və çalışırdım ki, bu 10 il ərzində ölkə qarşısında duran bütün başqa vəzifələrlə yanaşı, elmin inkişafına da öz dəstəyimi göstərim. Bu gün bəzi fikirlərimi sizinlə bölüşmək istəyirəm. Çünki son 10 il ərzində həm dünyada, həm Azərbaycanda köklü dəyişikliklər baş vermişdir. Dünya iqtisadiyyatı tamamilə dəyişmiş, dünyada gedən siyasi proseslər, müharibələr, hərbi toqquşmalar, beynəlxalq hüququn pozulması, mövcud olan qaydaların tamamilə aradan qaldırılması göz önündədir. Azərbaycana gəldikdə, son 10 il bizim üçün inkişaf və zəfərlərlə zəngin illər olmuşdur. Əsas vəzifə - torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpası, suverenliyimizin bərpası layiqincə təmin edilmişdir. Bu gün Azərbaycan bütün suveren torpaqlara sahibdir. Bizim ərazimizdə işğalçı qüvvələr yoxdur. Bizim ərazimizdə xarici hərbi birləşmələr yoxdur. Bu gün biz bu torpaqlarda qurub-yaradırıq. Biz bir neçə gündən sonra şanlı Zəfərimizin beşinci ildönümünü qeyd edəcəyik. Son beş il ərzində dünyada bir çox yerlərdə müharibələr, toqquşmalar, münaqişələr baş verirdi və hər şey müqayisə ilə ölçülür. Bunu da alimlər yaxşı bilir. Deyə bilərəm ki, bizim qədər parlaq, tam və mütləq Qələbə qazanan ikinci ölkə olmamışdır.

Azərbaycan tamamilə yeni vəziyyətdə yaşayır və əlbəttə ki, öz addımlarımızı dəyişən dünyada gedən proseslərə həm uyğunlaşdırmalıyıq, həm də ki, bir çox təşəbbüslər irəli sürməliyik. Ona görə təbii ki, illər keçdikcə qarşıda duran vəzifələr də dəyişir. Ona görə bugünkü inkişafla bağlı, inkişafın gələcək istiqamətləri ilə bağlı əlbəttə ki, prioritetlər əvvəlki dövrdən fərqlənir. Bu gün sirr deyil ki, hər bir ölkənin inkişafını, eyni zamanda təhlükəsizliyini o ölkənin texnoloji imkanları şərtləndirir. Bu gün biz bunu iqtisadi inkişafda görürük, yeni texnologiyaların tətbiqində görürük, yeni müharibələrdə görürük. Ona görə texnoloji inkişaf bizim üçün əsas prioritet olmalıdır və əlbəttə, burada Azərbaycan alimlərinin üzərinə böyük vəzifə düşür. Təbii ki, Azərbaycan dövlətinin üzərinə böyük vəzifə düşür ki, biz bu texnoloji inkişafı bütün sahələrdə tətbiq edək və beləliklə, bizim inkişafımız dayanıqlı olsun.

Artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir. Yəni təbii resurslar bizim üçün sadəcə olaraq bir vasitədir, bir imkandır ki, biz təbii resursların ixracından əldə etdiyimiz vəsaiti insan kapitalına yönəldək, texnoloji inkişafa yönəldək ki, gələcəkdə bizim inkişafımız dayanıqlı olsun. Hər kəs yaxşı bilir ki, təbii sərvətlər tükənən sərvətlərdir, gec-tez tükənəcək. Tükənməz sərvət isə intellektual potensialdır, amma o halda əgər buna sərmayə qoyularsa. O sərmayəni dövlət qoymalıdır. Ölkənin elm ictimaiyyəti, alimlər bu istiqamətdə öz səylərini göstərməlidirlər. Ona görə bu gün əsas vəzifələrdən biri texnoloji inkişafdır.

Süni intellekt. On il bundan əvvəl bu barədə heç kim heç nə danışmırdı. Bu gün artıq bu, ölkələrin gələcək inkişafının ayrılmaz hissəsidir. Biz burada geri qalmamalıyıq. Ona görə dövlət lazımi addımları atır. Biz hər zaman əsas aparıcı xəttin, yəni "mainstream"in, əgər belə demək mümkündürsə, arxasınca gedirik və geri qalmamalıyıq. Ona görə Azərbaycanda süni intellektin həm inkişafı, həm də həyatda, iqtisadiyyatda, texnoloji inkişafda tətbiqi bu gün reallıqdır və əlbəttə ki, biz burada Azərbaycan alimlərinin fəal iştirakını gözləyirik.

Bu istiqamətdə aparılan digər islahatlar nəticəsində əldə edilmiş uğurlar rəqəmsallaşma ilə bağlıdır. Biz rəqəmsallaşmanı ölkəmizdə geniş miqyasda tətbiq edirik və bunun faydasını görürük. Yəni bəlkə də geniş ictimaiyyət bunu yaxından izləmir. Ancaq biz görürük ki, rəqəmsallaşma olan sahələrdə artıq işin keyfiyyətinin əmsalı da artır, səmərə də artır və nəticə etibarilə daha gözəl nəticələr hasil edilir. Ona görə təsadüfi deyil ki, artıq bir müddət bundan əvvəl bizim hökumət strukturunda nazirliyə "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" adı verilmişdir və bu istiqamətdə də addımlar atılır. Azərbaycan alimlərini burada yenə də fəal olmağa dəvət edirəm.

Digər vacib məsələ kibertəhlükəsizliklə bağlıdır. İndi dünyada kiberhücumlar geniş vüsət alıb. Azərbaycan da bu hücumlara bu il məruz qalmışdır və Kibertəhlükəsizlik Mərkəzinin yaradılması vaxtında atılmış addımdır. Biz beynəlxalq tərəfdaşlarla, bu sahədə böyük təcrübəyə malik olan şirkətlərlə çox geniş proqramlar üzərində işləyirik ki, özümüzü maksimum dərəcədə qoruya bilək, müdafiə edə bilək. Çünki kibertəhlükəsizlik, yəni virtual təhlükəsizlik deyil. Bu, hər bir ölkənin fiziki təhlükəsizliyidir. Bu gün həm müharibələrin, deməli, aparılma qaydaları dəyişir, təhlükələrin mənbələri dəyişir və dünya dəyişir. Ona görə bu sahəyə əgər lazımi diqqət göstərilməsə, heç bir başqa müdafiə imkanı bizi böyük problemlərdən qoruya bilməz. Ona görə kibertəhlükəsizliklə bağlı həm dövlət, həm Azərbaycanın elm ictimaiyyəti birgə işləməlidir. Əlbəttə ki, eyni zamanda bizə qarşı kiberhücumlar təşkil edən ölkələr, ya tərəflər, ya qurumlar cəzasız qalmamalıdır. Biz həm özümüzü müdafiə etməliyik, həm də ki, bizə zərər vermək istəyənlərə də layiqli cavab verməliyik.

Bu gün bildiyiniz kimi, Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir və artıq uzun illər ərzində bu sahəyə böyük vəsait ayrılır, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyəti təkmilləşir. Eyni zamanda bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açmışıq. Çünki bu istiqamətdə ən böyük uğurlar əldə etmiş ölkələrdə hərbi təyinatlı məhsullar məhz özəl şirkətlər tərəfindən istehsal olunur. Ona görə biz də burada lisenziyaları verməklə özəl sektoru cəlb etmişik. Eyni zamanda mənim tərəfimdən də onlara çağırış olub və bu gün özəl şirkətlər artıq hərbi təyinatlı məhsulların istehsalı ilə məşğul olmağa başlamışlar. Deyə bilərəm ki, hələlik bu proses icra mərhələsindədir, amma yəqin ki, yaxın gələcəkdə bir çox Azərbaycan şirkətləri artıq dünya səviyyəli keyfiyyətli hərbi təyinatlı məhsullar istehsal edəcəklər. Eyni zamanda dövlət xətti ilə bu istiqamətdə işlər aparılır və biz öz hərbi imkanlarımızı artıq böyük dərəcədə yerli istehsal hesabına genişləndiririk, öz tələbatımızı böyük dərəcədə ödəyirik. Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik və qarşıya vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün bizdə bu istiqamətdə çox ciddi sənaye klasteri yaradılsın. Çünki bu, çox gəlirli sahədir və nəzərə alsaq ki, bu gün dünyanın bütün yerlərində müharibələr alovlanır, dayanmır, əfsuslar olsun ki, hərbi təyinatlı məhsullara bundan sonra da ehtiyac olacaq. Ona görə bu istiqamətdə bu gün biz çox fəal işləyirik. Yenə də deyirəm, biz təbii ki, dövlət və özəl şirkətlərimizi, eyni zamanda Azərbaycan alimlərini bu istiqamətə dəvət edirik.

Bizim şanlı Vətən müharibəmiz. Bildiyiniz kimi, onun hər bir mərhələsi, hər bir günü öyrənilir, öyrənilib və bir çox beynəlxalq hərbi ali məktəblərində də tədqiq edilir. O cümlədən pilotsuz uçuş aparatlarının tətbiqi. Müharibədə məhz birinci biz bunu tətbiq etmişik. Bu gün müasir müharibələri bunsuz təsəvvür etmək mümkün deyil. Yəni bunun təməlini biz qoymuşuq və bu gün bu istiqamətdə Azərbaycanda çox böyük işlər görülür. Biz bu məhsulları həm xarici bazarlardan tədarük edirik, eyni zamanda özümüz də bir çox növdən ibarət pilotsuz uçuş aparatlarını istehsal etməyə başlamışıq və bunu davam etdirəcəyik. Burada da təbii ki, Azərbaycan elmi ictimaiyyəti üçün çox böyük fəaliyyət meydançası yaradılır.

Mən bütövlükdə bildirmək istəyirəm ki, elm iqtisadiyyatla, sənaye ilə sıx bağlı olmalıdır. Burada bu kürsüdən dövlət strukturlarına da göstəriş vermək istəyirəm ki, Azərbaycan alimləri ilə daha sıx işləsinlər.

Çünki bu gün bizim elmimizin praktik nəticələri olmalıdır. Təkcə elmi əsərlərdə yox, həyatda və iqtisadiyyatın sürətli inkişafını nəzərə alaraq, əlbəttə ki, burada əlaqələndirmə, uzlaşma yüksək səviyyədə olmalıdır. Əminəm ki, bu sözlərdən sonra bizim dövlət qurumlarımız Azərbaycan alimləri ilə daha fəal işləyəcəklər.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. Düzdür, ümumi daxili məhsul çox artmır. Bunun da əsas səbəbi neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir. Ancaq bu gün iqtisadiyyatımızın aparıcı təkanverici qüvvəsi qeyri-neft sektordur. Bu, bizim ümumi iqtisadiyyatımızın əksəriyyətini təşkil edir. Bu gün dünyanın aparıcı reytinq agentlikləri - iki aparıcı beynəlxalq reytinq agentliyi bizim kredit reytinqimizi qaldırıb və bunu investisiya reytinqinə uyğun səviyyədə artırıb. Bu, əlbəttə ki, ölkəmizdə gedən iqtisadi islahatların təzahürüdür. Çünki bu gün bizim iqtisadiyyat sağlam iqtisadiyyatdır. Biz heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq siyasi müstəqilliyi də gücləndirir. Bizim xarici borcumuz çox aşağı səviyyədədir. Sirr deyil ki, bir çox inkişaf etmiş ölkələrdə xarici borc o ölkələrin ümumi daxili məhsulunun yüz faizini, bəlkə də daha çox təşkil edir. Bizdə isə bu, cəmi 6 faizdən bir qədər çoxdur. Bizim valyuta ehtiyatlarımız ildən-ilə artır və bu il də əhəmiyyətli dərəcədə artıb, 80 milyard dolları ötüb. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan 16 dəfə çoxdur. Biz əgər istəsək, xarici borcumuzu bir neçə ay ərzində sıfırlaya bilərik. Yəni bu göstəriciyə görə Azərbaycan bu gün dünya miqyasında aparıcı yerlərdədir. Əlbəttə ki, iqtisadi və maliyyə dayanıqlılığı bizə imkan verir ki, böyük investisiya layihələrini icra edək. Təbiidir ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Azad edilmiş bu torpaqlarda da dünyada misli görülməmiş işlər görülür. Yəni Azərbaycan ictimaiyyəti müntəzəm olaraq bu barədə məlumatlandırılır və bir çox vətəndaşlarımız artıq azad edilmiş torpaqlara gediblər. Dəfələrlə orada olublar və gedən inkişafı öz gözləri ilə görürlər. Yəni bizim güclü iqtisadiyyatımız bizə həm əminlik verir, həm də azad edilmiş torpaqların tezliklə bərpa edilməsinə imkan verir. Güclü hərbi potensialı yaratmaq üçün imkan verir. Çünki yenə də demək istəyirəm ki, bu gün dünyada qaydalar tamamilə dəyişib. Beynəlxalq təşkilatlar, yəni onların bir çoxu iflic vəziyyətindədir. Onların qərarları icra edilmir. Necə ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 30 il icra edilməmişdir. Əgər biz öz torpaqlarımızı hərbi yolla azad etməsəydik, hələ bundan sonra 100 il də icra edilməyəcəkdi. Beynəlxalq təşkilatların nüfuzu böyük dərəcədə aşağı düşüb. Bu gün güc amili dünyada aparıcı amildir. Yəni bugünkü dünya budur və belə olan halda təhlükəsizlik, müdafiə potensialı, hərbi güc əsas məsələdir. Əlbəttə ki, güclü iqtisadiyyat, maliyyə resursları olmadan bunu əldə etmək mümkün olmayacaq.

Bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılmasıdır. Burada da Azərbaycan ön sıralardadır. Bu gün Azərbaycanda icra edilən bərpaolunan enerji layihələri çox genişmiqyaslıdır. Təkcə Qarabağda və Şərqi Zəngəzurda son 5 il ərzində 30-dan çox su-elektrik stansiyası inşa edilmişdir. Onların toplam generasiya gücü 300 meqavatdan çoxdur. Günəş və külək-elektrik stansiyalarının inşası gedir. Bu yaxınlarda Cəbrayıl rayonunda 100 meqavatlıq iki stansiyanın təməli qoyuldu. O stansiyaların yanında 240 meqavat gücündə üçüncü günəş-elektrik stansiyası inşa edilir. Bütövlükdə 2030-cu ilə qədər günəş, külək və su-elektrik stansiyalarının generasiya gücü 6 min meqavata çatmalıdır. Bu, böyük bir sənaye sahəsidir, sənayenin inkişafının növbəti istiqamətidir. Azərbaycan alimlərini burada da fəal olmağa dəvət edirəm.

Geoloji kəşfiyyat işləri xüsusilə Qarabağda və Şərqi Zəngəzurda çox böyük əhəmiyyət kəsb edir. Çünki bu ərazi sovet vaxtında lazımınca tədqiq edilməmişdir və tədqiq edilsə idi belə, yenə də ovaxtkı texnologiyalarla onları tam öyrənmək mümkün deyildi. Yəni bu gün müasir texnologiyalarla peykdən tədqiqat, zondlama aparılır. Təbii resurslar, o cümlədən qeyri-ənənəvi neft yataqlarının aşkarlanması bir çox hallarda fiziki, yəni əraziyə girmədən müəyyən edilir. Ona görə mənim göstərişimlə artıq bir neçə aydır ki, Qarabağda və Şərqi Zəngəzurda böyük geoloji işlər aparılır. Azərbaycan alimlərini bu işlərə dəvət edirəm, dövlət strukturlarına da göstəriş verirəm. Hesab edirəm ki, yaxın bir neçə ay ərzində bizə çox yaxşı xəbərlər gələcək. Bizim çox zəngin təbii resurslarımız var - qızıl, gümüş, mis yataqları, polimetal yataqlar. Onların aşkarlanması, kəşfiyyatı, işlənməsi bizə böyük xeyir gətirəcək, Qarabağ və Şərqi Zəngəzur regionlarımızda iş yerlərinin böyük sayda yaradılmasına gətirib çıxaracaqdır.

Təbii ki, Qarabağ və Şərqi Zəngəzur haqqında danışdıqda Azərbaycan tarixi haqqında da danışmalıyıq. Bizim zəngin tariximiz, əfsuslar olsun ki, Ermənistan tərəfindən, erməni diasporu tərəfindən uzun illər ərzində təhrif edilmişdir və bu istiqamətdə bizə qarşı aparılan təbliğat bu gün də dayanmır. Ona görə bunun qabağına biz öz həqiqətlərimizi qoymalıyıq. Bu barədə mən 10 il bundan əvvəl Akademiyanın 70 illiyində danışmışam. Bu gün də bu barədə danışmaq istəyirəm ki, biz öz tariximizi tədqiq və təbliğ etməliyik. Azərbaycan vətəndaşları, Azərbaycan gəncləri bizim zəngin tariximizi bilməlidirlər. Bilməlidirlər ki, Azərbaycan xalqının tarixi, dövlətçilik tariximiz, xalqımızın qurub-yaratma qabiliyyəti çoxəsrlidir. Azərbaycan xalqı böyük coğrafiyada yaşayıb və yaşayır. Təkcə onu demək kifayətdir ki, bizim hüdudlarımızın o tayında hər istiqamət üzrə Azərbaycan əhalisi yaşayır. Ermənistanda da yaşayıb, amma oradan qovulub. Amma əminəm ki, yenə də yaşayacaq. Çünki biz bu gün bütün qonşu ölkələrlə sərhədlərimizin o tayında görürük ki, orada Azərbaycan əhalisi öz əzəli tarixi torpaqlarında yaşayır və yaşadıqları ölkələrdə ləyaqətli vətəndaşlar kimi yaşayırlar. Azərbaycanlılar heç vaxt separatizm xəstəliyinə düçar olmamışlar. Bizim xalqımız yaşadığı ölkələrin dövlətçiliyinə töhfə verib və bu gün heç bir ölkədə azərbaycanlılar heç bir dövlət üçün, heç bir başqa xalq üçün problem yaratmır və yaratmayacaq. Ona görə azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir, hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur.

*Ardı 3-cü səh.*

# Azərbaycan hər zaman elmin inkişafına böyük diqqət yetirir

## Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubiley yığıncağında çıxış edib

*Əvvəli 2-ci səh.*

O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib. Həmin o çar Rusiyası ki, vaxtilə erməniləri İrandan və Şərqi Anadoludan gətirərək bizim Qarabağ torpağında yerləşdirib ki, burada etnik və dini tərkib dəyişsin. Yəni bu xəritələr tamamilə tarixi həqiqətə əsaslanan xəritələrdir. Ona görə biz bunu təbliğ etməliyik, tədqiq etməliyik. Daha çox elmi əsərlər, daha çox hətta kiçikhəcmli bukletlər hazırlanmalıdır ki, həm Azərbaycan gəncləri öz tarixini yaxından bilsinlər, həm dünya ictimaiyyəti bilsin və eyni zamanda indiki Ermənistana bizim qayıdışımız da tamamilə məntiqli və ədalətli səslənsin. Ona görə Azərbaycan tarixi ilə bağlı bax, bu istiqamətdə, əlbəttə ki, əlavə addımlara ehtiyac var. Bütövlükdə müstəqil Azərbaycan dövlətinin tarixi ilə bağlı sanballı elmi əsərlərə də böyük ehtiyac var. Artıq 30 ildən çoxdur ki, biz müstəqil dövlət kimi yaşayırıq və Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixində Azərbaycan bugünkü qədər güclü olmamışdır. Ona görə müstəqil Azərbaycanın tarixini tədqiq edən, təbliğ edən bir çox əsərlərə ehtiyac var.

On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə olaraq tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir.



Azərbaycan dilinin saflığının qorunması hər bir Azərbaycan vətəndaşının işi olmalıdır. Yəni dövlət, alimlər, dilçilər, yazıçılar, şairlər, jurnalistlər, siyasətlə məşğul olanlar bu məsələyə çox böyük diqqət verməlidirlər. Yenə də deyirəm, 10 il bundan əvvəl mən bu məsələni qaldırmışdım. Çünki bu, məni narahat edirdi. On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya bilək. Amma yenə də oradan-buradan eşidirəm, - həm də televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında, - buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax, bu məsələyə də öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm.

Qeyd etdiyim kimi, bir neçə gündən sonra biz tarixi Zəfərimizin beş illiyini qeyd edəcəyik. Hərbi parad təşkil ediləcək. Beş il əvvəl, 2020-ci ilin dekabrında Zəfər paradı keçirilmişdir. 2023-cü ildə Xankəndidə hərbi parad keçirilmişdir ki, Azərbaycanın suverenliyi tam bərpa edilmişdir. Bir neçə gündən sonra Azadlıq meydanında hərbi paradın keçirilməsi böyük hadisədir, qürurverici hadisədir. Azərbaycan xalqı bu Şanlı Zəfərlə bundan sonra əbədi fəxr edəcək.

Mən sizi, bütün Azərbaycan xalqını həm Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə, həm də qarşıdan gələn Zəfər Günü və Bayraq Günü münasibətilə təbrik edirəm. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

# Yeni əsrin modern ordusu

## 32 il öncə Ulu Öndər Heydər Əliyevin çağırışı ilə başlanan ordu quruculuğu Azərbaycanı dünyanın ən güclü sülahlı qüvvələrindən birinə sahibləndirib

**Tarixin hər dövründə bir millətin gücü, yalnız onun iqtisadi və siyasi vəziyyəti ilə ölçülməmiş, eyni zamanda ordusunun qüdrəti ilə də müəyyən edilmişdir. "Ordun varsa, gücün var", - kəlamı xüsusilə müharibə və beynəlxalq münasibətlərdə ordunun əhəmiyyətini dərin bir şəkildə ifadə edir. Bir ölkənin silahlı qüvvələri yalnız müdafiə üçün deyil, həm də xarici təzyiqlərə qarşı müqavimət göstərmək, milli maraqları qorumaq və beynəlxalq arenada nüfuz sahibi olmaq baxımından mühüm rol oynayır.**



Azərbaycan xalqı bəxti gətirənlərdəndir ki, bu gün dövlətmiz dünyanın ən qüdrətli ordularından birinə sahibdir. Bunu 2016-cı ilin Aprel döyüşlərində, 2020-ci il Vətən müharibəsində və daha sonra keçirilən antiterror tədbirlərində sübuta yetirib.

Lakin etiraf etməliyik ki, bu qüdrətli ordunun formalaşdırlılması heç də asan başa gəlməyib. Bu, illərin zəhməti və ölkə rəhbərliyinin qətiyyəti sayəsində reallaşıb.

Reallıq budur ki, müasir Azərbaycan Silahlı Qüvvələrinin yenidən formalaşdırılması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə qayıdan dahi liderin ilk həyata keçridiyi proseslərdən biri də ordu quruculuğu məsələsi olub. Xalqdan böyük etimad mandatı aldıqdan sonra keçirilən andiçmə mərasimində Ulu Öndər bəyan etdi ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Azərbaycan xalqı öz qamətini düzəldəcək, ayağa qalxacaq, gücünü birləşdirəcək, müasir ordusunu yaradacaq və müstəqil dövlətini, öz ərazisini bundan sonra göz bəbəyi kimi qoruyacaq.

32 il öncə, 1993-cü il noyabrın 2-də Ulu Öndərin televiziya və radio ilə xalqa müraciətindən sonra xalqımız, sözün həqiqi mənasında, bir nəfər kimi ölkəmizin müdafiəsinə qalxdı. Heydər Əliyevin çağırışı ilə Azərbaycan Ordusunun müzəffər yürüşünün bünövrəsi qoyuldu. Ulu Öndər bu tarixi çıxışında diqqətə çatdırmışdı ki, Ermənistanın təcavüzü nəticəsində ərazilərimiz işğal edilib, soydaşlarımız həlak olub, yaralanmış, on minlərlə vətəndaşımız yerlərindən didərgin düşərək qaçqına çevriliblər: "Bunun bir hissəsi Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibində ikən olmuşdur. Ancaq iki ildən artıqdır ki, Azərbaycan Respublikası müstəqil bir dövlətdir. Bu iki il müddətində müstəqil dövlətimiz öz müdafiə qüvvələrini, öz ordusunu yaratmalı idi. Bundan ötrü Azərbaycan Respublikasının bütün imkanları vardı. Ordunu bir gündə, beş gündə, bir ayda, üç ayda yaratmaq mümkün deyil. Ancaq iki il, üç il müddətində ordu yaratmaq, Azərbaycanın etibarlı müdafiəsini təşkil etmək və ərazi bütövlüyünü də təmin etmək mümkün idi. Lakin bu fürsətlər əldən verilib və Azərbaycanın müdafiə imkanları getgedə möhkəmlənmək əvəzinə zəifləmişdir. Ayrı-ayrı dəstələr, qruplar, yaxud batalyonlar tərəfindən aparılan ayrı-ayrı döyüşlərin hamısı pərakəndə şəkildə olmuş, müxtəlif qüvvələrə, məqsədlərə xidmət etmiş, böyük bir hərbi strategiya, müdafiə strategiyası əsasında, hərbi nizam-intizam əsasında görülən tədbirlər olmamışdır".

Bununla da ölkəmizin ağır durumda olduğunu bildirən Ulu Öndər, həmçinin vurğulamışdı ki, Azərbaycanın gələcək taleyi, onun mövcudluğu xalqın öz əlindədir. Düşmən tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarını azərbaycanlılardan başqa kimsə azad etməyəcəkdir: "İndi bizim ordumuz yaranmalı və qurulmalıdır. Bir də qeyd edirəm, ordumuz ancaq Azərbaycanı müdafiə etmək məqsədi daşıyır. İşğalçılıq məqsədi daşımır. Bizim işimiz haqq işidir, gərək hər bir vətəndaş bunu özünün şərəfli borcu kimi qəbul etsin. Kim özü orduda qulluq edə bilirsə, qoy könüllü surətdə getsin. Kim özü qulluq edə bilmirsə, yanındakıları başa salsın ki, gedib orduda xidmət etmək lazımdır. Yaxud əgər özü orduda qulluq edə bilmirsə, fikirləşsin ki, orduya necə kömək etmək lazımdır. İndi bunların hamısı ən zəruri vəzifələrdir. Bütün xalqa, Azərbaycan vətəndaşlarına müraciət edirəm ki, bu tədbirlərin həyata keçirilməsində fəal iştirak etsinlər".

Bir müddət sonra Ermənistan-Azərbaycan münaqişəsində atəşkəsin əldə edilməsi ordu quruculuğunda köklü islahatların aparılması üçün əlverişli imkan yaratdı. Çox keçmədən ölkəmizdə ordu quruculuğu sahəsində ciddi addımlar atıldı. Vahid komandanlığa tabe olan nizami ordu yaradıldı, Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirildi, ordumuz müasir silah və sursatla təmin olundu.

Zaman dəyişdi, Azərbaycan iqtisadi qüdrətini daha da gücləndirərək güclü ordu formalaşdırdı. Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2016-cı ilin dördgünlük Aprel döyüşlərində, 2018-ci ilin mayında Günnüt əməliyyatında, 2020-ci ilin iyununda Tovuz döyüşlərində, 2020-ci ilin 44 günlük Vətən müharibəsində hərb tariximizə şərəfli səhifələr yazdı. Ordumuz Qarabağda kök salmış terrorçu-separatçı qüvvələrə qarşı keçirdikləri lokal antiterror tədbirləri zamanı mülki əhaliyə və infrastruktura heç bir ziyan vermədən Azərbaycanın həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi. Ordumuz bütün bu uğurları, yəni əldə etdiyi zəfərləri ilə XXI əsr dünya hərb tarixini heyrətə gətirməyi də bacardı.

Bu gün Azərbaycan Ordusu 2020-ci ildə Ermənistan ordusuna qalib gələn ordudan daha da güclüdür. İkinci Qarabağ müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrində aparılan islahatlar, ordunun arsenalına daxil edilən zirehli texnikalar, modern silah-sursatlar bunu deməyə əsas verir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu istiqamətdə qarşıya qoyduğu yeni vəzifələrə, tələblərə uyğun olaraq ordumuzun maddi-texniki bazası daha da modernləşir, mütəmadi keçirilən hərbi təlimlər Silahlı Qüvvələrimizin gücünə güc qatır. Hazırda Azərbaycan Silahlı Qüvvələrinin istər yüksək mənəvi-psixoloji hazırlığı, döyüş ruhu, nizam-intizamı, istərsə də maddi-texniki təminatı baxımından nümunəvi dövlət olaraq qəbul edilir. Həyata keçirilən islahatlar nəticəsində bu gün Azərbaycan Ordusu çevik, peşəkar və müasir tələblərə cavab verə bilən silahlı qüvvələr kimi düşmənlərə gözdağı verir. Planlı və ardıcıl şəkildə görülmüş işlər Azərbaycan Silahlı Qüvvələrini dünyanın ən güclü 50 ordusu sırasına yüksəldib.

Ordu quruculuğu istiqamətində bu gün də uğurlu addımlar atılır, döyüş qabiliyyətinin daha da gücləndirilməsi üçün lazımi tədbirlər, hərbi təlimlər həyata keçirilir.

Azərbaycan Ordusu milli maraqlarımız naminə Türkiyə, Gürcüstan, Rusiya ilə yanaşı, Ukrayna, Belarus, ABŞ, Böyük Britaniya, Pakistan, İsrail və digər ölkələrlə hərbi, hərbi-texniki və hərbi-siyasi əməkdaşlıq edir. Xarici siyasətdə önəmli prioritetlərdən olan ordu quruculuğu strategiyası davam etdirilir. Türkiyə, Pakistan, İsrail kimi mühüm tərəfdaşlarla atılan addımlar son dərəcə önəmlidir. Türkiyə ilə müştərək təlimlərin keçirilməsi, bilik və bacarıqlarının sistemli şəkildə və dərindən mənimsənilməsi ondan xəbər verir ki, Azərbaycan Ordusu Türkiyə Ordusu üzərində modernləşdirilir. Bu iki ölkənin hərbi əməkdaşlığı isə sonsuz perspektivlər vəd edir.

Bir sözlə, Silahlı Qüvvələrimizin möhkəmləndirilməsi, hərbi potensialın artırılması istiqamətində bu gün də addımlar atılır. Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlətin strateji dayağı kimi çıxış edir və onun daha da gücləndirilməsi yalnız hərbi gücün deyil, həm də milli birliyin və siyasi iradənin ifadəsidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Misirə səfər edib

**Milli Məclisin Sədri Sahibə Qafarova noyabrın 1-də Misir Ərəb Respublikasının Qahirə şəhərinə işgüzar səfərə gedib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Qahirənin beynəlxalq hava limanında Milli Məclisin Sədrini Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin səfiri Valid Şams, Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***



# Milli Məclisin Sədri Sahibə Qafarova Böyük Misir Muzeyinin açılış mərasimində iştirak edib

**Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasına işgüzar səfəri çərçivəsində Böyük Misir Muzeyinin açılış mərasimində iştirak edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müxtəlif ölkələrin dövlət, hökumət və parlament rəhbərlərinin iştirak etdiyi tədbirdə Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi salamlama nitqi söyləyib.

Açılış mərasimi Misir mədəniyyətini əks etdirən bədii proqramın nümayişi ilə davam edib, daha sonra muzeyin ən simvolik artefaktlarının sərgisi nümayiş olunub.

Qeyd edək ki, muzeydə Misir sivilizasiyasının müxtəlif dövrlərinə aid eksponatlar və 100.000-dən çox artefakt mövcuddur.

***"Azərbaycan"***





# Milli Məclisin Sədri Sahibə Qafarova Ərəb Parlamentinin Prezidenti ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova Misir Ərəb Respublikasına işgüzar səfəri çərçivəsində Qahirə şəhərində Ərəb Parlamentinin Prezidenti Mohamed Alyammahi ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə spiker Sahibə Qafarova Azərbaycanla müsəlman ölkələri arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edərək, əlaqələrimizin əsasında ortaq dini, mədəni və mənəvi dəyərlərin dayandığını vurğulayıb.

Qeyd olunub ki, ölkələrimiz arasında əlaqələrin inkişafında parlamentlərarası əməkdaşlıq da mühüm rol oynayır. O cümlədən Milli Məclisin Ərəb Parlamenti və ona üzv olan ölkələrin parlamentləri ilə sıx əlaqələrə malik olduğu bildirilib. Bu günlərdə Bakıda keçirilmiş Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr edilmiş Beynəlxalq Parlament Konfransında bir sıra ərəb ölkələri parlamentlərinin nümayəndə heyətlərinin iştirakından da məmnunluq ifadə olunub.

Görüşdə Mohamed Alyammahi Azərbaycanın ərəb ölkələri üçün xüsusi yerə malik olduğunu qeyd edib. O, Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyi, həmçinin 8 Noyabr - Zəfər Gününün 5-ci ildönümü münasibətilə təbriklərini çatdırıb.

Söhbət zamanı Milli Məclislə Ərəb Parlamenti arasında beynəlxalq səviyyədə də birgə fəaliyyətin əhəmiyyəti qeyd olunub. Həmçinin Ərəb Parlamentinin Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi ilə əlaqələrə də böyük əhəmiyyət verdiyi bildirilib. Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Ərəb Parlamenti yanında müşahidəçi statusuna malik olduğu, Ərəb Parlamentinin də Parlament Şəbəkəsinin bütün tədbirlərində iştirak etdiyi vurğulanıb.

Görüşdə həmçinin Milli Məclislə Ərəb Parlamenti arasında əlaqələrin daha da genişləndirilməsi məsələləri nəzərdən keçirilib, bu istiqamətdə birgə səylərin bundan sonra da davam etdirilməsinin əhəmiyyəti qeyd olunub.

***"Azərbaycan"***

## <u>*Ekspert İqor KOROTÇENKO:*</u>

# "Azərbaycan Avrasiya nəqliyyat arxitekturasının əsas qovşağına çevrilir"

**AZƏRTAC-a müsahibəsində rusiyalı siyasi analitik, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko Azərbaycan nəqliyyat təşəbbüslərinin strateji əhəmiyyəti və Bakının yeni Avrasiya logistika sisteminin formalaşmasındakı rolu barədə danışıb.**



*- "Şimal-Cənub" nəqliyyat təşəbbüsləri ilə Zəngəzur dəhlizinə vahid kontekstdə baxdıqda, belə demək olarmı ki, məhz Azərbaycan yeni Avrasiya nəqliyyat arxitekturasının formalaşmasında mərkəzi halqaya çevrilir?*

- Obyektiv olaraq, Azərbaycanın geosiyasi mövqeyi və onun nəqliyyat-logistika infrastrukturu ölkəni həm "Şimal-Cənub" dəhlizinin, həm də "Şərq-Qərb" marşrutlarının fəaliyyətində əsas iştirakçıya çevirir. Regiondan keçən istənilən nəqliyyat xətti əlaqələndirmə və logistika baxımından Azərbaycandan asılıdır. Azərbaycan artıq səmərəli siyasi və iqtisadi inkişaf modelinə malik orta gücə sahib dövlətlər kateqoriyasına daxildir və dünya infrastruktur layihələrinin həyata keçirilməsi ilə bu status daha da yüksələcək. Ərazi bütövlüyünün bərpasından və iqtisadiyyatın gücləndirilməsindən sonra bu proseslər Azərbaycanın, dünya iqtisadiyyatının dayanıqlılığının həlledici dərəcədə asılı olduğu ölkələrdən biri kimi, rolunu daha da artırır.

*- Rusiya, Azərbaycan və İran faktiki olaraq Rəşt-Astara dəmir yolu xəttinin inşasının yekun mərhələsindədirlər. Bu dəhlizin Qərb logistika marşrutlarına real alternativə çevriləcəyini demək mümkündürmü?*

- "Şimal-Cənub" dəhlizi həm Rusiya, həm də onun ərazisindən keçən bütün ölkələr üçün son dərəcə böyük əhəmiyyətə malikdir. Rəşt-Astara hissəsinin modernləşdirilməsi "Şimal-Cənub" marşrutu üzrə fasiləsiz və səmərəli dəmir yolu xəttinin yaradılmasına imkan verəcək. Onun iqtisadi, siyasi və geosiyasi əhəmiyyəti son dərəcə yüksəkdir. Bu layihə regionun bütün ölkələrinə fayda gətirəcək, eyni zamanda digər marşrutlarla rəqabət yaratmadan və ya onlara zərər vurmadan həyata keçiriləcək.

Sanksiya təzyiqlərinə gəldikdə isə istənilən ölkə Qərbin ona qarşı məhdudiyyətlər tətbiq etdiyi vəziyyətlə üzləşə bilər. Buna görə də logistika sahəsində müstəqillik və suverenlik dərəcəsi nə qədər yüksək olarsa, "Şimal-Cənub" kimi multimodal nəqliyyat dəhlizlərinin bütün iştirakçıları üçün qazanc da bir o qədər çox olacaq.

# Antalya şəhərində Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu öz işinə başlayıb

**Noyabrın 3-də Türkiyənin Antalya şəhərində Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu öz işinə başlayıb. Forum Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə keçirilir.**




AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli çıxışında bildirib ki, Azərbaycan Mədəniyyət Elçilərinin I Forumu ölkəmizin mədəni diplomatiyasının inkişafında mühüm mərhələ hesab olunur. Bu təşəbbüs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən mədəniyyətin və milli kimliyin qorunması, eləcə də onun beynəlxalq müstəvidə tanıdılması istiqamətində həyata keçirilən uzaqgörən siyasətin məntiqi davamıdır.

Nazir deyib ki, forumun məqsədi mədəniyyət elçiləri və onların şəbəkəsi vasitəsilə mədəniyyətimizin beynəlxalq səviyyədə mütəşəkkil təbliği, xaricdə yaşayan mədəniyyət xadimlərinin fəaliyyətinin stimullaşdırılması, incəsənət və yaradıcılıq sahələrinin inkişafına əlavə dəstəyin verilməsidir. Xaricdəki Azərbaycan mədəniyyət mərkəzləri və Azərbaycan evlərinin daha sıx əməkdaşlığına nail olunması da forumun əsas hədəfidir.

"Biz istəyirik ki, hər bir mədəniyyət elçimiz Azərbaycanın zəngin irsini, dəyərlərini və bədii düşüncə tərzini yaşadığı ölkədə fəxrlə nümayiş etdirsin. Bu həm də mədəniyyət diplomatiyamızın güclənməsinə, ölkəmizin beynəlxalq imicinin daha da möhkəmlənməsinə töhfə verəcək", - deyə Adil Kərimli əlavə edib.

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov bildirib ki, ötən il ərzində dünyanın müxtəlif ölkələrində soydaşlarımız tərəfindən 800-dən çox mədəni tədbir layihə və təşəbbüs həyata keçirilib.

O vurğulayıb ki, Mədəniyyət Nazirliyi başda olmaqla bütün dövlət qurumları bu prosesə həssaslıqla yanaşır və hər bir təşəbbüsə dəstək göstərir: "Biz böyük layihələri mütləq şəkildə birgə - nazirliklərin və aidiyyəti qurumların iştirakı ilə həyata keçiririk. Çünki onlar bu sahənin içindədirlər və öz konsepsiyalarına uyğun olaraq layihələrin reallaşmasına mühüm töhfələr və təkliflər verirlər".

Azərbaycan Respublikasının Milli Məclis Sədrinin müavini, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru akademik Rafael Hüseynov deyib ki, forum Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə təbliği, diasporumuzun gücləndirilməsi və xaricdə yaşayan soydaşlarımızın birliyi üçün böyük əhəmiyyət daşıyır. O qeyd edib ki, forum çərçivəsində irəli sürüləcək yeni ideyalar və təşəbbüslər Azərbaycanın dünyada daha geniş formada tanınmasına və mədəniyyətimizin möhkəmlənməsinə xidmət edəcək.

Sonra "Qarabağda mədəniyyətin dirçəlişi" adlı videoçarxın nümayişi olub.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov çıxışında forumun Azərbaycan ilə xaricdə yaşayan soydaşlarımız arasında mədəni əlaqələrin gücləndirilməsi üçün vacib platforma olduğunu deyib: "Forum həmçinin Azərbaycan mədəniyyətinin dünyada tanıdılması və gənc nəslin bu irsi mənimsəməsi üçün mühüm əhəmiyyət kəsb edir".

Azərbaycan Respublikasının Milli Məclisinin Mədəniyyət komitəsinin sədri, Xalq artisti Polad Bülbüloğlu bildirib ki, Azərbaycan mədəniyyətinin zənginliyini, tarixi irsini və bədii dəyərlərini dünyaya çatdırmaq çox önəmlidir. Onun sözlərinə görə, bu forum mədəniyyət elçilərinə öz fəaliyyətlərini daha geniş şəkildə nümayiş etdirmək, ideyalarını paylaşmaq və yeni layihələr həyata keçirmək imkanı verir.

Forumda çıxış edən Azərbaycan Mədəniyyət Elçiləri Forumu TK-nın sədri, Xalq artisti Cahangir Novruzov bildirib ki, bu forum yalnız mədəniyyətimizin tanıdılması üçün bir platforma deyil, həm də xaricdə yaşayan mədəniyyət xadimlərinin bir araya gəlməsi, təcrübə mübadiləsi aparması və gələcək layihələr üçün yeni ideyaların yaranması üçün əvəzsiz bir fürsətdir.

Daha sonra Azərbaycan mədəniyyətinin inkişafına beynəlxalq aləmdə təbliğinə töhfə verən incəsənət nümayəndələri təltif edilib və birgə xatirə fotosu çəkdirilib.

Forum çərçivəsində "Mədəniyyət elçiləri" rəqəmsal portalı və "Milli dilli" layihəsinin təqdimatı keçiriləcək.

Tədbir çərçivəsində üç panel müzakirənin təşkili, eləcə də xaricdəki Azərbaycan mədəniyyət mərkəzləri və Azərbaycan evlərinin hesabat iclaslarının təşkili nəzərdə tutulur.

Həmçinin forum çərçivəsində Antalyada keçirilən "Mədəniyyət Yolu" Festivalında Azərbaycan incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı da planlaşdırılır.

Qeyd edək ki, Azərbaycanın Türkiyədəki səfirliyinin dəstəyi ilə reallaşan forum noyabrın 5-dək davam edəcək. Forum çərçivəsində yaradıcılıq təqdimatları, mədəniyyət layihələrinin nümayişi, plenar müzakirələr, eləcə də mədəni əməkdaşlıq protokollarının imzalanması nəzərdə tutulur. Tədbirin gedişində həmçinin Azərbaycan musiqisi, teatr və rəqs sənəti əsasında maraqlı bədii proqramlar da təqdim olunacaq.

# Yeni Azərbaycan Partiyası və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

**Noyabrın 3-də Yeni Azərbaycan Partiyasının (YAP) Azərbaycan Milli Konservatoriyası ilə birgə təşkil etdiyi 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.**








Tədbirdən öncə rəssam-monumentalist Çingiz Abasovun "30 il və 44 gün" tablosunun təqdimatı olub.

Tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edən şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə təbrik edib. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ölkəmizdə elan edilmiş "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası tərəfindən keçirilən silsilə tədbirlər ölkəmizin müstəqil inkişaf yoluna, eləcə də möhtəşəm Zəfərimizin tarixi və ictimai-siyasi əsaslarına, yeni mərhələdə suveren Azərbaycanın qarşısında duran əsas hədəflərə nəzər salınması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tahir Budaqov vurğulayıb ki, müasir dövlətçilik tariximizin zirvə nöqtəsi - ən qürurverici məqamı olan möhtəşəm Zəfərimiz asanlıqla əldə olunmamışdır: "Müstəqillik dövründə ölkəmizə rəhbərliyi zamanı Ümummilli Lider Heydər Əliyev Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad olunmasını dövlət siyasətinin birnömrəli məsələsi - strateji prioriteti kimi müəyyən etmişdir. Onun liderliyi ilə bu strateji hədəfə çatmaq üçün məqsədyönlü addımlar atılmış, həm ölkə daxilində, həm də beynəlxalq miqyasda ardıcıl işlər görülərək Azərbaycanı böyük Zəfərə aparan yolun əsası qoyulmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev bu siyasəti müasir dövrün çağırışları və reallıqlarına uyğun zənginləşdirərək müvəffəqiyyətlə davam etdirməklə, Ermənistanın təcavüzkar siyasətinə göz yuman bir sıra güc mərkəzlərinin ikili standartlar siyasətinə, beynəlxalq təşkilatların selektiv yanaşmasına, mürəkkəb geostrateji şəraitə baxmayaraq Vətənin bütövlüyünü, tarixi ədaləti və milli ləyaqəti bərpa etmək uğrunda haqq mübarizəsini qələbə ilə başa vuraraq möhtəşəm Zəfərə nail olmuş, ata vəsiyyəti və xalqa vədini şərəflə yerinə yetirməklə Azərbaycanı Heydər Əliyevin görmək istədiyi kimi qalib, qüdrətli və əzəmətli dövlətə çevirmişdir".

YAP Sədrinin müavini bildirib ki, 2020-ci ildə 44 günlük Vətən müharibəsində parlaq qələbə qazanaraq öz ərazi bütövlüyünü, 2023-cü ildə birgünlük antiterror əməliyyatı nəticəsində isə tam suverenliyini bərpa edərək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan bu gün regionun çoxtərəfli işbirliyi məkanına çevrilməsində maraqlı olmaqla beynəlxalq hüquq normalarına və milli maraqlara əsaslanan prinsipial mövqeyinə sadiqliyini əyani şəkildə nümayiş etdirir. Onun sözlərinə görə, Prezident İlham Əliyevin siyasəti konstruktiv xarakter daşımaqla regionun dialoq, əməkdaşlıq və inteqrasiya məkanına çevrilməsinə hədəflənmişdir ki, bu da sülh naminə etimad quruculuğunun həyata keçirilməsi baxımından olduqca böyük önəmə malikdir: "Dövlət başçısının qeyd etdiyi kimi: "Biz həm müharibəni udduq, həm də sülhü qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu". Bu gün yeni reallıqlar fonunda sülh müqaviləsinin imzalanması və kommunikasiyaların bərpası regional təhlükəsizlik kontekstində strateji gündəliyin önəmli tərkib hissəsidir".

Tahir Budaqov qeyd edib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində öz ata-baba yurdlarından köçkün düşən insanların doğma torpaqlarına layiqli qayıdışının təmin edilməsi qarşıda duran çox mühüm hədəflərdəndir: "İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın təmin edilməsi Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyənləşdirilmişdir. Bu gün həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilməklə müasir infrastruktur yaradılmaqdadır. Artıq Qarabağ və Şərqi Zəngəzurda mühüm yol-nəqliyyat, enerji təminatı və digər infrastruktur layihələri gerçəkləşdirilmiş, onlarca yaşayış məntəqəsinin təməli qoyulmuş və bir sıra şəhər, kənd və qəsəbələrdə əhalinin yaşayışı təmin edilmişdir. Bütün bunlar dayanıqlı məskunlaşma və müasir standartlara uyğun yüksəkkeyfiyyətli həyat şəraitinin təmini baxımından böyük əhəmiyyətə malikdir. Nəticə etibarilə, yüz minlərlə soydaşımızın yurd həsrətinə son qoyulması, onların ata-baba torpaqlarına qayıdışının təmin olunması mənəvi-siyasi və sosial-iqtisadi əhəmiyyətə malik olmaqla tarixi ədalətin təntənəsidir".

"Azərbaycan dövləti və xalqı mübariz Vətən övladlarının - ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına döyüşərək Azərbaycan bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış şəhidlərin əziz xatirəsini daim uca tutur. Müzəffər Ali Baş Komandanımızın 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna ali ehtiram nümunəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq" , - deyə YAP Mərkəzi Aparatının rəhbəri əlavə edib.

Tahir Budaqov söyləyib ki, Azərbaycan xalqının Zəfər salnaməsi - Qələbə dastanı təkcə tarixçilər və siyasətşünasların tədqiqat predmeti deyil: "Bu Zəfər həm də müstəsna mənəvi əhəmiyyətə malik olduğu üçün sənət adamlarının xüsusi diqqət mərkəzindədir. Möhtəşəm Qələbəmiz haqqında əsərlərin, o cümlədən rəsm əsərlərinin ərsəyə gətirilməsi və digər yaradıcılıq işləri bu tarixi hadisənin ictimai yaddaşda - milli təfəkkürdə əbədiləşdirilməsi baxımından çox önəmlidir. Ona görə də bugünkü tədbir çərçivəsində təqdimatını etdiyimiz rəssam-monumentalist Çingiz Abasovun "30 il və 44 gün" tablosu şanlı Qələbəmizin təbliği və xalqımızın vətənpərvərlik ruhunun gücləndirilməsi üçün əhəmiyyətlidir".

"Bu gün qalib Azərbaycan xalqı 8 Noyabr - Zəfər Gününü böyük iftixar və coşquyla qeyd edərək əzəli torpaqlarımızın işğaldan azad olunması və doğma yurd yerlərinə qayıdışın hədsiz sevincini yaşamaqdadır. Şübhə yoxdur ki, dövlət başçısı, partiyamızın Sədri cənab İlham Əliyevin qətiyyətli siyasəti, xalqımızın sarsılmaz birliyi sayəsində Azərbaycan bundan sonra da möhtəşəm nailiyyətlərə imza atmaqla yeni qələbələr qazanacaq, Vətənimizin hər bir guşəsində qürurla ucaldılan üçrəngli bayrağımız daim zirvələrdə əzəmətlə dalğalanacaqdır. Qalib Azərbaycanın sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə partiyamızın bütün üzvlərini, böyük xalqımızı təbrik edir, hər birinizə möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə!" , - deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi Kamilə Dadaşzadə qeyd edib ki, hər bir xalqın tarixində elə əlamətdar gün var ki, onu "əsrə bərabər gün" hesab etmək olar: "Azərbaycan xalqının həyatında belə məqamlardan biri, heç şübhəsiz ki, 2020-ci ilin 8 noyabr gününə təsadüf edir. Lakin düşünürəm ki, öz tarixi əhəmiyyəti və mənəvi yükü etibarilə həmin günü bir əsrə deyil, "əsrlərə bərabər gün" adlandırmaq olar. Çünki həmin gün xalqımızın çoxəsrlik qəhrəmanlıq salnaməsinin yeni şanlı səhifəsi yazıldı və eyni zamanda həmin gün əldə etdiyimiz tarixi Qələbə Azərbaycanın uzunmüddətli, möhkəm və dayanıqlı inkişaf yolunu təmin etdi. Beş il bundan öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə milli ordumuzun misilsiz qəhrəmanlığı nəticəsində, şəhidlərimizin canı və qanı bahasına Azərbaycan torpaqlarının işğalına son qoyuldu, tarixi ədalət zəfər çaldı. Müasir hərb sənətinin ən parlaq səhifələrindən biri olan "Dəmir yumruq" əməliyyatı, təbii ki, tarix kitablarına fenomenal hadisə kimi daxil olacaq və mütəxəssislər tərəfindən araşdırılıb layiqincə dəyərləndiriləcək. Şübhəsiz ki, bu zaman digər mühüm amillərlə yanaşı, Zəfərimizi təmin edən bir faktorun da rolu qeyd olunacaq ki, bu da "xalq, iqtidar və ordu birliyi" formuludur. Qələbəmizin ideoloji təməlini təşkil etmiş bu formul Azərbaycan xalqının əzmini bir daha nümayiş etdirdi".

Rektor vurğulayıb ki, tarixi Zəfər Azərbaycanın perspektiv inkişaf yollarını da müəyyən etdi: "Qələbədən sonra Azərbaycan özünün yeni inkişaf mərhələsinə qədəm qoydu. Prezident İham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilən Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma və bərpa işləri nəticəsində əzəli, qədim torpaqlarımız sürətlə və ən mütərəqqi üsullarla ucaldılan müasir yaşayış mərkəzlərinə çevrilir".

"Zəfərin beşinci ildönümündə tam əminliklə qeyd etmək olar ki, hazırda Azərbaycan beynəlxalq müstəvidə yalnız müharibənin qalibi kimi deyil, həm də regionda sülh, sabitlik və əməkdaşlığın əsas təşəbbüskarı və təminatçısı kimi qəbul olunur. Beynəlxalq səviyyədə qazandığımız nüfuz sayəsində ölkəmiz dünyada baş verən mürəkkəb proseslərdə fəal iştirak edir. Bu, yaşadığımız dövrün reallığıdır və bu reallığı hər kəs qəbul etmək məcburiyyətindədir", - deyə Kamilə Dadaşzadə əlavə edib.

Rektor bildirib ki, şanlı Qələbəmizin hər ildönümü bu taleyüklü tarixi hadisənin əhəmiyyətini, önəmini daha dərindən, bütün əzəməti ilə dərk etmək üçün imkan yaradır: "Bu gün Azərbaycan Milli Konservatoriyası kollektivinin tədbir iştirakçılarının diqqətinə təqdim edəcəyi konsert "Zəfərin sədası" adlanır. Düşünürük ki, bu adın böyük bir rəmzi mənası var. İllər ötəcək, qərinələr dəyişəcək, amma 2020-ci ildə Vətən müharibəsində əldə etdiyimiz Zəfər yenə də hər bir azərbaycanlının qəlbində əzəmətli bir əks-səda kimi səslənəcəkdir. Bu isə o deməkdir ki, Azərbaycan durduqca, Zəfərimiz əbədi qürur mənbəyimiz olaraq yaşayacaqdır".

Sonra tədbirdə şəhid İsmayıl Kərimlinin atası Ceyhun Kərimov çıxış edib. "Bu gün biz Böyük Qələbəmizin 5-ci ildönümünü qeyd edirik. Artıq beş ildir ki, 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarımız işğaldan azad olunub, Azərbaycanın ərazi bütövlüyü bərpa edilib. Zəfər Günü möhtəşəm bir əsərdir və hər bir böyük əsər kimi bu Zəfərin də öz memarları var. Böyük Qələbəmizi qeyd edərkən Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasını və Onun xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışını xatırlayırıq. Məhz həmin tarixi qayıdış Zəfər salnaməmizin ilk səhifəsini yazdı. Elə o andan etibarən biz addım-addım tarixi Qələbəmizə doğru irəliləməyə başladıq", - deyən şəhid atası əlavə edib ki, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu böyük məsuliyyəti öz üzərinə götürərək xalq qarşısında and içdi və andına sadiq qalaraq Azərbaycanı tarixi Zəfərə qovuşdurdu.

Ceyhun Kərimovun sözlərinə görə, şübhəsiz ki, bu çətin və şərəfli yolda Prezident İlham Əliyevə ən böyük mənəvi dayaq və dəstək Birinci vitse-prezident Mehriban xanım Əliyeva olub: "Şəhid ailələri olaraq həmin günlərdə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bizə göstərdiyi diqqət və qayğını dərindən hiss etdik. Bu gün də şəhid ailələri bu diqqət və qayğını daim öz üzərində hiss edir".

"Azad olunmuş torpaqlarda Böyük qayıdış layihəsi həyata keçirilir, yeni kənd və qəsəbələr salınır, şəhərlərimiz dirçəldilir. Əminəm ki, bu torpaqlar uğrunda canlarını fəda etmiş igidlərimizin ruhu şaddır. Böyük qürur və fəxarət hissi ilə deyirəm ki, qalib xalqın nümayəndəsi, Yeni Azərbaycan Partiyasının üzvü, qəhrəman atası və azərbaycanlıyam", - deyə şəhid atası əlavə edib.

Vətən Müharibəsi Qəhrəmanı, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi, polkovnik Anar Mirzəyev isə çıxışında qeyd edib ki, müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev həm də qüdrətli Azərbaycan Ordusunun yaradıcısıdır. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Azərbaycan Silahlı Qüvvələri 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün döyüş əməliyyatlarını yüksək səviyyədə həyata keçirməklə mənfur düşməni diz çökdürdü, şanlı Zəfər qazandı və tarixi ədaləti, ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan hərbçilərinin torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə şücaət göstərməsi, bu yolda şəhidlik zirvəsinə ucalması xalqımızın yenilməzlik, mətinlik və qəhrəmanlığının ifadəsi oldu".

A.Mirzəyev vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman hərbçilərimizin şücaəti, rəşadəti hesabına, şəhidlərimizin qanı-canı bahasına bütün dünya Azərbaycanın şanlı Qələbəsinin şahidi oldu: "Azərbaycan öz haqq savaşında Zəfər çaldı. Cəmi 44 gün ərzində Ermənistan ordusu, hərbi texnikası, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü göstərdi. Dövlətimizin başçısı "Şuşasız bizim işimiz yarımçıq olar" söyləyəndə xalqımızda belə bir əminlik yarandı ki, Qarabağın tacının, Azərbaycanın döyünən ürəyinin işğaldan azad edilməsi əsas hədəfdir. Dastana çevrilən Şuşa əməliyyatı bu gün də inkişaf etmiş ölkələrin hərbi ekspertləri tərəfindən təhlil edilir, öyrənilir. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu, bizim şanlı Zəfərimizin günüdür. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun malik olduğu imkanların dünyaya təqdimatı oldu. Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan və maddi-texniki bazasını möhkəmləndirən Azərbaycan Silahlı Qüvvələri bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öz xalqına Qələbəni bəxş etmiş müzəffər orduya çevrilmişdir".

Vətən Müharibəsi Qəhrəmanı əlavə edib ki, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub: "Bu, həm şanlı Zəfərimiz - Azərbaycanın suveren hüquqlarının möhkəmləndirilməsi, həm də dövlətimizin əsas hüquqi sənədi olan Konstitusiyanın qəbulunun 30 illiyi ilə bağlıdır. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası dövlət quruculuğunun təməlini təşkil edir. Bu sənəd xalqın iradəsini, hüquq və azadlıqlarını, dövlətin idarəetmə prinsiplərini özündə ehtiva edir. Azərbaycan tarix boyu müxtəlif çətinliklərdən keçsə də, artıq müstəqil, suveren və güclü bir dövlət kimi dünya arenasında layiqli yerini tutub. Bu gün Azərbaycanın hər qarış torpağında üçrəngli bayrağımızın dalğalandığını qürurla qeyd edirik".

Daha sonra "30 il və 44 gün" tablosunun müəllifi rəssam Çingiz Abasov çıxış edib. O qeyd edib ki, bu gün xalqımızın qəhrəmanlığını, birliyini və əyilməz iradəsini iftixarla xatırlayır, ədalətin bərpa olunduğu möhtəşəm günün qürurunu bir daha yaşayırıq: "Bu gün burada Zəfərimizə həsr olunan "30 il və 44 gün" əsərimi təqdim etməkdən böyük qürur duyuram. Çalışdım ki, bu əsərdə Vətənimizin otuzillik tarixini, xalqımızın qəhrəmanlıq ruhunu, dözümünü və inamını əks etdirim. Ulu Öndərimiz Heydər Əliyev deyirdi ki, "Qarabağ bizim qəlbimizdədir, ruhumuzdadır. Gün gələcək, biz Qarabağa qayıdacağıq". İllər sonra Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin inamın üzərinə öz möhtəşəm nida işarəsini qoydu: "Qarabağ Azərbaycandır!". Bu gün biz həmin gerçəkliyi yaşayırıq, Qarabağ azaddır və dirçəlir. Bu Qələbə xalqımızın birliyinin, dövlətimizin qüdrətinin və milli iradəmizin rəmzidir. Qoy üçrəngli bayrağımız daim azad Qarabağ səmasında dalğalansın".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.



AZƏRBAYCANIN ŞƏRƏF VƏ QÜRUR TARİXİ

ŞANLI ZƏFƏR 5 İL



# İnformasiya müharibəsinin BAŞ QƏHRƏMANI

İnsanlar bəzən sözlə, xoşluqla həll edə bilmədikləri məsələləri zorla, silah gücünə çözmək istəyirlər!

Bu, tarixən belə olub, indi də belədir!

Fatehlər də, qonşusunun torpağına göz dikənlər də "köhnə münasibətlər"i və gələcəkdə də qonşuluq edəcəklərini sanki unudaraq silaha əl atıblar.

* Müharibələr təkcə xalqlar, insanlar arasındakı münasibətləri dəyişmir!

* Müharibələr təkcə dünya düzənini dəyişmir!

* Müharibələr təkcə insan talelərini dəyişmir!

* Müharibələrin özləri də dəyişir!

* Müharibələrdə işlədilən silahlar da dəyişir!

Daha dağıdıcı, daha çox insan öldürən yeni silahlar meydana gəlir.

Bəşəriyyət hətta təsiri neçə on illər davam edən kütləvi qırğın silahlarını da sınaqdan keçirdi.

*Amma nəticəsindən asılı olmayaraq, bütün müharibələr müəyyən zaman kəsiyindən sonra dayandırılır, insanlar xoşluqla, ya da məcburiyyət qarşısında qalaraq sülhə gəlməli olurlar!*

**Ölənləri, şəhid gedənləri isə heç zaman geriyə qaytarmaq mümkün olmur!**

❖ ❖ ❖

*Azərbaycan xalqı Qarabağ uğrunda iki dəfə işğalçı qonşusu ilə döyüşməli oldu.*

**Birinci Qarabağ müharibəsində nə kifayət qədər hazırlığı, silah-sursatı oldu, nə arxasında duraraq kömək edəni, nə də həqiqi rəhbəri və sərkərdəsi.**

*Odur ki, iyirmi faiz ərazisini itirdi, iyirmi mindən çox övladı şəhid getdi, məğlubiyyət acısını yaşadı.*

**Çox keçmədən sınanmış oğlu Ulu Öndər Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdı, xalqı öz ətrafında toparladı, müstəqil dövlətin atributlarını yaratdı, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdi, sabitliyimizi pozulmaz etdi!**

*Ən əsası, tarixdə analoqu olmayan siyasi inkişaf kursunu müəyyənləşdirdi, layiqli siyasi varisini yetişdirərək axıra çatdıra bilmədiyi işləri ona həvalə edib əbədiyyətə qovuşdu!*

**Xalqın yeni rəhbəri, ümid, inam, etibar və dayağı sayılan cənab İlham Əliyev də ona bəslənilən bütün etimadları şərəflə doğrultdu, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi!**

*İkinci Qarabağ müharibəsi dövlətimiz, xalqımız və rəhbərimiz üçün yeni, əsl sınaq oldu!*

Xoşbəxtlikdən hamı əl-ələ verərək bu sınaqdan ləyaqətlə çıxdı, itirilmiş torpaqlar geri qaytarıldı, ərazi bütövlüyü təmin olundu, dövlət suverenliyi bərpa edildi!

**Beş illiyini qeyd edəcəyimiz Vətən müharibəsi xalqımızı qalib xalqa, dövlətimizi qüdrətli dövlətə, baş sərkərdəmizi Müzəffər Ali Baş Komandana çevirdi!**

Bu müharibə həm də yeni silahların, yeni taktika və strategiyanın tətbiq olunduğu yeni bir müharibəyə, örnəyə, nümunəyə çevrilən, bir çox döyüşü dünyanın hərbi məktəblərində öyrənilən XXI əsrin ən yeni müharibəsi kimi qəbul olundu!

❖ ❖ ❖

**İkinci Qarabağ müharibəsi qısa müddətdə - cəmi 44 gündə düşmən ordusunun darmadağın edilərək kapitulyasiya aktını imzalaması ilə başa çatdı!**

*Bu müharibədə üç "cəbhə"də qızğın döyüşlər gedirdi:*

* Hərb meydanında amansız və qanlı çarpışmalar baş verirdi.

* Gözdən uzaq sayılan diplomatiya sahəsində gərginlik bir an belə ara vermirdi.

* İnformasiya məkanında isə qan tökülməsə də, "döyüşlər" eyni gərginlik və şiddətlə davam edirdi.

Hərbi əməliyyatların ünvanı və yeri Azərbaycanın Qarabağ bölgəsi idi.

*İnformasiya müharibəsi isə Bakıda başlayaraq, dünya KİV-də, televiziya kanalları və informasiya agentliklərinin buraxılışlarında "alovlanırdı".*

**Bu müharibənin də baş qəhrəmanı və baş sərkərdəsi Müzəffər Ali Baş Komandan İlham Əliyev idi!**

Hücuma keçən "sıravi əsgərlər" jurnalistlər və müxbirlər sayılırdı.

Hücum edən tərəflər isə tez-tez dəyişirdi.

*Bir neçəsi istisna olunmaqla, əksəriyyəti dünya erməniliyinin pul kisəsindən muzd alan, erməni maraqlarını açıq və qərəzli şəkildə müdafiə edən KİV, informasiya agentlikləri və televiziya kanalları Azərbaycana axın edirdilər.*

**Müharibənin davam etdiyi müddətdə dövlət başçısı cənab İlham Əliyev otuzdan çox KİV nümayəndəsi, jurnalist, müxbir və telekanal aparıcısı ilə görüşdü, onların bütün suallarını səbir və təmkinlə, konkret faktlar və misallar əsasında cavablandırdı, jurnalistin peşə davranışı qaydalarını pozanları, qərəzli yanaşmalar nümayiş etdirənləri, hərdən özünü "prokuror" kimi aparmaq istəyənləri arqument və dəlillərlə susduraraq yerlərində oturtdu!**

❖ ❖ ❖

"İnformasiya müharibəsi" yeni termin kimi formalaşdırılsa da, əslində, müharibə edən tərəflər daim bu üsuldan istifadə ediblər.

Qarabağ müharibəsi üçün də bu yenilik sayılmırdı.

*Təkcə saxta "erməni soyqırımı"ndan deyil, digər vasitələrdən də istifadə edən ermənilər hələ müharibədən xeyli qabaq özlərinin "zavallı", "məzlum" millət, azərbaycanlıların isə "vəhşi", "qəddar" obrazlarını yaratmaqdan ötrü bütün üsul və vasitələrdən, sovet mətbuatının və dünya erməniliyinin imkanlarından gen-bol bəhrələnirdilər.*

Birinci Qarabağ müharibəsi ərəfəsində SSRİ DTK-nin əli və ssenarisi ilə hazırlanan, mərkəzdən gəlmiş icraçıların və çəkiliş aparanların iştirakı ilə keçirilən və sonradan SSRİ-nin və dünyanın KİV-də geniş tirajlanaraq işıqlandırılan "Sumqayıt hadisələri" deyilənlərə parlaq misaldır.

**Qırmızı imperiyanın dağıldığı ərəfədə Azərbaycanı itaət boyunduruğunda saxlamaqdan ötrü Qarabağ münaqişəsini yenidən alovlandıran Moskva birmənalı şəkildə erməni mövqeyində dayanaraq Ermənistana siyasi, hərbi, ideoloji kömək göstərirdi.**

Erməniəsilli Qriqoryanın başçılığı ilə Sumqayıtda hadisələr başlayanda artıq mərkəzdən gəlmiş fotoqraf və operatorlar onları lentə almağa, jurnalistlər isə Azərbaycanı günahlandırmağa hazır vəziyyətdə dayanmışdılar.

*Birtərəfli qaydada hazırlanan bütün informasiya və reportajlar SSRİ-nin mərkəzi qəzetlərində dərc edildikdən sonra xarici KİV-ə də çıxarılırdı.*

Halbuki bu mətbu orqanlar Azərbaycanın üzünə bağlanmışdı.

Hadisələrin "baş qəhrəmanı" Qriqoryanın mühakimə olunaraq Rusiyaya aparılması və ağır cinayətlər törətmiş, neçə insanı qətlə yetirmiş birisinin az sonra azadlığa buraxılması bütün bunların həqiqətən Moskvada hazırlanaraq icra olunmasının ən bariz sübutuna çevrildi.

**Həqiqətdə isə bütün bu oyunbazlıqlar "vəhşi azərbaycanlı" və "məzlum erməni" obrazının yaradılmasına, ermənilər tərəfindən törədiləcək soyqırımı və işğala bəraət qazandırılmasına hesablanmış addımlar idi.**

*İkinci Qarabağ müharibəsində də eyni halın təkrarı nəzərdə tutulmuşdu!*

Fərq onda idi ki, bu dəfə dünya erməniliyinə xidmət edən KİV birbaşa Azərbaycana gələrək dövlət başçısı ilə görüşə, müsahibələr ala bilirdi!

Amma bütün bunlara baxmayaraq, məqsədlərinə çata, Azərbaycanı ləkələyərək əvvəlki kimi onu "vəhşi" qiyafəsində təqdim edə bilmədilər!

**İnformasiya müharibəsinin yeganə baş qəhrəmanı sayılan Azərbaycan Prezidenti İlham Əliyev onların bütün qərəzli hərəkətlərini puça çıxararaq əsl həqiqətləri açıb göstərə, mənfur niyyətlərlə gələnlərin tribunasını onların özlərinin ifşasına xidmət edən platformaya çevirdi!**

❖ ❖ ❖

Qeyd etdiyimiz kimi, Azərbaycan Prezidenti cənab İlham Əliyev 44 günlük Zəfər müharibəsi dövründə otuzdan çox jurnalisti qəbul edərək onlara müsahibə vermişdi.

Əlbəttə, onların arasında xoş niyyətlə, əsl həqiqəti öyrənib yazmaq üçün gələnlər də var idi.

Lakin informasiya müharibəsinin qərəzli iştirakçıları da az deyildi.

*Onlardan ikisinin - 2020-ci il oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına və noyabrın 6-da "BBC News"ə Müzəffər Ali Baş Komandanımızın verdiyi müsahibələrin timsalında bu sahədəki "döyüşlər" barədə müəyyən təsəvvür yaratmağa çalışacağıq.*

Adətən, müsahibə götürənlər Ermənistanın Baş naziri N.Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" söyləyərək sülh danışıqlarını mənasız etməklə hərbi əməliyyatlara rəvac verməsini gizlədərək yeni müharibənin tətikçisi və başlayanın, habelə qadağan olunmuş silahlardan istifadə edənin və dinc əhaliyə atəş açanın Azərbaycan olduğunu, Türkiyənin isə hərbi əməliyyatlarda iştirakını "boynumuza qoyaraq" dünyaya çatdırmağı hədəfə alırdılar.

*İki müsahibədən gətirəcəyimiz parçalar, əslində, dünyadakı "azad media"nın mahiyyətini dərindən dərk etməyə, peşə davranışı qaydalarını kobudcasına pozan jurnalistlərin açıq-aşkar şəkildə tərəf tutmalarını, nəyin bahasına olursa-olsun Azərbaycan tərəfini günahkar çıxarmaq niyyətini gerçəkləşdirməkdən ötrü dəridən-qabıqdan çıxma cəhdlərini göstərən misallardır.*

**Fərəhli və qürur doğuran haldır ki, cənab İlham Əliyev bütün bu niyyətləri dəmir məntiqi, tutarlı faktları, sakit və soyuqqanlı davranışı, habelə tez-tez əl atdığı "əks hücum" taktikası ilə heçə çıxara bilirdi!**

Mövzular üzrə müəyyən məqamlara diqqət yetirək.

❖ ❖ ❖

*Türkiyə ordusunun guya Azərbaycan tərəfindən döyüşməsi:*

**" - Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir? Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.**

*- Siz əsgərlərlə danışmısınız?*

**- Bəli.**

*- Döyüş meydanında?*

**- Xeyr, döyüş meydanında yox.**

*- Bəs harada?*

**- Bakı şəhərində.**

*- Onlar burada, Bakıda döyüşürlər?*

**- Xeyr, xeyr. Bununla belə, onlar buradadırlar.**

*- İndi burada alman əsgərləri də ola bilər".*

❖ ❖ ❖

*Etnik təmizləmə ilə bağlı:*

**" - Onda Siz Dağlıq Qarabağda erməni vətəndaşlara qarşı heç bir etnik təmizləmənin aparılmayacağına dair mütləq zəmanət verirsiniz?**

*- Bəli. Biz ermənilər deyilik. Onlar bizə qarşı etnik təmizləmə törədiblər. Onlar Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bütün azərbaycanlıları qovublar. Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində bizim bir milyon qaçqın və məcburi köçkünümüz var. Lakin biz eyni qaydada davranmayacağıq. Biz qisas almayacağıq. Mən dəfələrlə demişəm, hətta onlar Gəncəni bombalayanda, hətta onlar Bərdəni bombalayanda, onlar başqa şəhərləri bombalayanda və 92 insanı, mülki şəxsi öldürdükdə mən dedim ki, biz qisasımızı döyüş meydanında alacağıq. Buna görə bu rəsmi mövqeyi, Azərbaycanda yaşayan minlərlə ermənini və heç kimin onları etnik təmizləmədiyini nəzərə alaraq, biz bunu orada nə üçün etməliyik ki?"*

❖ ❖ ❖

İkili standartlarla işləyən beynəlxalq təşkilatlar:

**" - Bu, eyni ilə onların iddia etdiyi məsələlərdir. Onlar iddia edirlər ki, Siz kasetli raketlərdən istifadə edirsiniz. Hətta Sizin orada və Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty İnternational" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var idi. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?**

*- Biz onlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty İnternational" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var.*

**- Lakin mənim indi bildiyimə görə, onlar gəlirlər. "Human Rights Watch" təşkilatı gəlir, mənə deyiblər.**

*- Onlar bizim "Nəyə görə buraya gəlmirsiniz?" dediyimizə görə gəlirlər. Biz onlara "xahiş edirik, buraya gəlin" müraciətini etdikdən sonra onlar gəlməyə razılıq verdilər. Lakin onlar birinci növbədə niyə gəlmədilər?*

**- Onlar mənə gəlmək istədiklərini deyiblər. Bir neçə dəfə müraciət ediblər, lakin Siz onlara girişə icazə verməyibsiniz.**

*- Xeyr. Bu, mümkün deyil. Çünki biz elə dünən onların nəyə görə gəlmədiklərini, qoyun gəlsinlər Gəncəyə, Tərtərə getsinlər demişik. Ermənilərin hücum etdiyi insanlarla görüşsünlər. Yenə də ballistik mərminin buraxılışı peykdən görünür. Heç kim deyə bilməz ki, biz Dağlıq Qarabağda və ya Ermənistanda mülki şəxslərin yaşadığı istənilən yerə ballistik raket atmışıq".*

❖ ❖ ❖

Öz ayıblarını görməyərək özgələrinə ağıl öyrədənlər:

**" - Siz Azərbaycanı demokratiya nümunəsi adlandırardınız?**

*- Xeyr, heç vaxt. Siz öz ölkənizi demokratiya nümunəsi adlandırarsınız?*

**- Müəyyən mənada, bəli.**

- Lakin siz müxalifətin nümayişlərinə qadağa qoyursunuz.

**- Xeyr, belə deyil.**

*- Bəli, bəli. Nümayiş keçirmək istəyən ekstremist - adını unutmuşam. Siz onlara qadağa qoydunuz.*

**- Mən bu barədə bilmirəm. Demək istəyirəm ki, hətta koronavirus dövründə də etirazlar keçirirdilər.**

*- Xeyr, koronavirus dövründən əvvəl idi. Biz nümunə deyilik və özümüzü bu cür göstərmirik. Lakin özlərini sanki belə göstərən ölkələr var, amma onlar etirazçıları qətlə yetirirlər. Siz "sarı jiletlilər"in etirazlarında neçə nəfərin qətlə yetirildiyini bilirsinizmi? Bilirsiniz, 10-dan çox adam qətlə yetirilib.*

**- Amma biz Fransa barədə danışmırıq.**

*- Xeyr, gəlin Avropa barədə danışaq.*

**- Azərbaycan barədə...**

*- Xeyr, gəlin özlərini guya demokratmış kimi aparanlardan danışaq. Biz özümüzü elə aparmırıq. Bəli, bizim çatışmazlıqlarımız var.*

**- Mən cənab Makrondan bu barədə soruşaram.**

*- Lakin etirazçılar qətlə yetirilirlər, küçədə etirazçıları qətlə yetirirlər - 10 nəfər qətlə yetirilmişdi. Biz sizin Avropada etirazçıları necə döydüyünüzə baxırıq, siz onları atlarla döyürsünüz, itləri gətirirsiniz və bu, demokratiya hesab olunur".*

❖ ❖ ❖

*Demokratiya və azad media barədə:*

**"- Biz burada mənim ölkəmi müzakirə etmək üçün deyilik.**

*- Xeyr, gəlin müzakirə edək. Gəlin müzakirə edək.*

**- Yox, Prezident Əliyev.**

*- Ermənilərin burada azad mətbuatının olmayacağı ilə bağlı məni ittiham etmək əvəzinə, gəlin Assanj barədə danışaq. Bağışlayın, o, Ekvador səfirliyində neçə il keçirdi və nəyə görə? O, indi haradadır? Jurnalist fəaliyyətinə görə siz həmin şəxsi girov saxladınız, əslində, mənəvi və fiziki olaraq onu öldürdünüz. Bunu siz etmisiniz, biz yox. İndi o həbsxanadadır. Siz bu işlərlə məşğul olduğunuz halda, sizin azad mətbuat haqqında danışmağa mənəvi haqqınız yoxdur.*

**- Münaqişəyə qayıdaraq...**

*- Bəli, yaxşı olardı ki, münaqişəyə qayıdasınız, çünki bu, sizin xoşunuza gəlmir. Sizin xoşunuza yalnız ittiham etmək, hücum etmək gəlir. Amma güzgüyə baxın. Mən dəfələrlə demişəm, buraya gəlməmişdən və bizə mühazirə oxumaqdan əvvəl baxın. Siz sualınızla məni ittiham edirsiniz. Bu, sual deyil, bu, ittihamdır. Siz prokuror kimi danışırsınız. Niyə? Əgər siz bu qədər demokratik və obyektivsinizsə, nəyə görə Assanjı həbsxanada saxlayırsınız? Nə üçün? Siz onu jurnalist fəaliyyətinə görə həbsxanada saxlayırsınız.*

**- Mən onu həbsxanada saxlamıram, Prezident Əliyev.**

*- Bu, sizin xoşunuza gəlmir.*

**- Bu, xoşa gəlmək məsələsi deyil.**

*- Siz buna öyrəşməmisiniz.*

**- Bu, bizim müsahibənin mövzusu deyil.**

*- Çünki siz ancaq hücum etməyə adət etmisiniz.*

**- Bu, bizim müsahibənin mövzusu deyil.**

*- Bu, müsahibənin mövzusu deyil, amma siz bunu qaldırırsınız".*

❖ ❖ ❖

*Qarabağın dəyəri ilə bağlı:*

**"- Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa, bu, bir rəmzi məna daşıyır?**

*- Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn - Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".*

Misalların sayını istənilən qədər artırmaq da olar!

**Lakin elə gətirilən sitatlar informasiya meydanında da gərgin və barışmaz mübarizə getdiyindən xəbər verir!**

❖ ❖ ❖

Məşhur deyimdir:

"Qayda budur, igid gedər, ad qalar,
Yaxşıdan da, yamandan da ağızda bir dad qalar!"

* Vətən müharibəsini 44 gün ərzində şərəflə başa vurduq!

* Qalibiyyətlə başa vurduq!

* İşğalçıları torpaqlarımızdan qovaraq, ərazi bütövlüyümüzü bərpa edərək,

Dövlət suverenliyimizi və Konstitusiya əsaslarına nail olaraq başa vurduq!

* Hər üç cəbhədə tam qələbə çalaraq başa vurduq!

**Dövlət başçımız diplomatiya meydanında böyük uğurlara imza atdı, qətiyyətli mövqe göstərdi!**

**İnformasiya müharibəsini isə təkbaşına apararaq bu cəbhənin yeganə qəhrəmanına çevrildi!**

* Bu gün Azərbaycan Cənubi Qafqazda əsas söz sahibidir!

* Bu gün Azərbaycan bölgədə sülhün yaradıcısıdır!

* Bu gün Azərbaycan Prezidenti qlobal liderə çevrilərək dünyada böyük nüfuz sahibidir!

Qarabağ Azərbaycandır!

**Bəxtiyar SADIQOV**

# Daş Salnamə Muzeyində "Suyun sirri" pantomim tamaşası təqdim olunub

## Tədbirdə "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər





**Daş Salnamə Muzeyində "Bakıya Uçuş. İncəsənət həftəsonu: Gələcəyi İNDİ Duy" incəsənət festivalı üçün xüsusi hazırlanan "Suyun sirri" pantomim tamaşası təqdim olunub.**



AZƏRTAC xəbər verir ki, tədbirdə iştirak edən "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva səhnə əsərini izləyiblər.

Tamaşanın mövzusu incəsənət festivalının əsas elementi kimi seçilən su üzərində qurulub. Xalq artisti, pantomim aktyoru Pərviz Məmmədrzayevin müəllifi olduğu layihə insan və su arasındakı əbədi bağlılığı təsvir edir.

Pərviz Məmmədrzayevlə yanaşı, layihəyə 7 aktyor cəlb edilib. Tamaşada səssiz, lakin dərin ifadələrlə insanların çox çətinliklə həyatın mənbəyi hesab olunan suyu axtarmaları səhnələşdirilib.

Layihənin məqsədi Bakını qlobal səviyyədə əks-səda yaradan, bir şəhər olaraq ənənə və müasirliyi birləşdirən, müxtəlif fikirləri bir araya gətirən və gələcək nəsillərə ilham verən mədəniyyət paytaxtı kimi təqdim etməkdir.

# "Art Weekend" festivalı çərçivəsində Daş Salnamə Muzeyində sərgilər açılıb

## Tədbirdə "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər









**Bakının mədəni həyatını zənginləşdirən "Art Weekend" festivalı çərçivəsində Daş Salnamə Muzeyində "Baku Steel Art 2025" və "Son dalğa" adlı sərgilər açılıb.**

AZƏRTAC xəbər verir ki, tədbirdə "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər. Qonaqlar sərgi ilə tanış olublar.

"Baku Steel Art 2025" sərgisi poladla sənətin görüş nöqtəsi, gələcək nəsillərə ilham verəcək bir yaradıcılıq körpüsüdür. Nümayiş olunan işlərdə texnologiyanın sərtliyi ilə yaradıcılığın zərifliyi bir araya gəlir. Sərgidə sənətkarlar polada yeni nəfəs verərək onu orijinal və unikal sənət əsərlərinə çeviriblər. Müxtəlif bədii yanaşmalarla yaradılan heykəltaraşlıq nümunələri poladla sənətin estetik dəyərlərini birləşdirir və müasir incəsənətin yeni ifadə formalarını ortaya qoyur.

Sərgidə yer alan "Lövbər" əsərinin müəllifi Zamik Rzayev AZƏRTAC-a açıqlamasında öz əl işi barədə məlumat verib. "Xəzər dənizinin qurumasından təsirlənərək bu əsəri yaratmışam. Göründüyü kimi, lövbər kənarda yerləşir və aşağı hissədə güzgüdən istifadə olunub. Bunun səbəbi hər kəsin ekologiyanın gözəlləşdirilməsi ilə bağlı empatiya qurmasına şərait yaratmaqdır. Əsas məqsədimiz təbiəti qorumağın, tullantılara yeni həyat verməyin və incəsənətlə harmoniyada yaşamağın vacibliyini nümayiş etdirməkdir. Bu əsər 10 gün ərzində səylə çalışmağın nəticəsində ərsəyə gəlib",- deyə Z.Rzayev əlavə edib.

Rumıniyalı heykəltaraş, "Torpaq və od" əsərinin müəllifi Çiprian Hopirtean isə sərgidə təqdim etdiyi işin müharibənin hekayəsindən bəhs etdiyini vurğulayıb. Bu layihənin Ağdam Cümə Məscidinin bərpası üzərində ikiillik təcrübə əsasında formalaşdığını diqqətə çatdıran heykəltaraş deyib: "Məscidin divarları güllə izləri və yanıq ləkələri ilə doludur. Çünki orada müharibənin nələr edə biləcəyinin şahidi oldum".

"Son dalğa" adlı sərgidə heykəltaraşlıq və instalyasiya əsərləri ilə tanınan Elvin Nəbizadənin kinetik instalyasiyası təqdim olunub. Əsər səs və hərəkət arasında açılan iki paralel dünyaya dəvət edir.

"Son dalğa" iki monumental çərçivə zərb alətindən ibarət kinetik bir quraşdırmadır və ayrı-ayrı otaqlarda asılıb. Tavandan asılan zərb alətləri yavaş və ritmik hərəkətə gətirilir. Hərəkət dənizin nəfəsi kimi incə, lakin davamlıdır. Quraşdırma soyuq və isti atmosferdə açılır. İlk otaqda mavi-ağ işıqla dolu, dəniz sakit və uzaq görünür. Qışın donmuş sakitliyi havada qalır, təbiətin dinc ritmini daşıyır. Dalğaların səsi uzaqdan gələn bir əks kimi eşidilir. İkinci otaqda isə işıq qızılı və canlı yay günəşinin parıltısı, hərəkətli sudakı parıltı kimidir. Mexaniki ritm daha qabarıqdır, dənizi canlandıran və hərəkətə gətirən istiliyi çağırır. Bu iki dünya arasında dialoq yaranır. Eyni səs iki fərqli əhvalda, eyni dəniz iki mövsüm boyu nəfəs alır.

# "Art Weekend" çərçivəsində "Nəfəs – söz və səsin vəhdəti" adlı növbəti layihənin təqdimatı keçirilib





**YARAT Müasir İncəsənət Mərkəzində "Bakıya uçuş. Art Weekend. Gələcəyi İNDİ duy" (Fly to Baku. Art Weekend. Sense the Future NOW) təşəbbüsü çərçivəsində həyata keçirilən "Nəfəs - söz və səsin vəhdəti" adlı növbəti layihənin təqdimatı olub.**





AZƏRTAC xəbər verir ki, tədbirdə "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Festival üçün xüsusi olaraq SÖZ multidisiplinar mərkəzi tərəfindən hazırlanmış immersiv performans mistik musiqini, sufi poeziyasını və insan səsinin gücünü bir araya gətirib. Səhnədə Savalan və Çardaq qruplarının ifasında səslənən etnik melodiyalar və melodramatik deklamasiya mənəvi vəhdət, dərinlik və təfəkkür atmosferi yaradıb.

AZƏRTAC-ın müxbiri ilə söhbətində şair və SÖZ multidisiplinar mərkəzinin yaradıcısı Nigar Həsənzadə bildirib ki, layihənin ideyası "Fly to Baku. Art Weekend. Sense the Future NOW" festivalına dəvət alındıqdan dərhal sonra yaranıb.

Performansın fəlsəfəsindən danışan N.Həsənzadə qeyd edib ki, layihə mistik musiqi, poeziya və insan səsinin gücünü birləşdirir. Heydər Əliyev Fondunun təşkilatçılığı və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilən "Art Weekend" festivalı ilk dəfə olaraq Bakıda reallaşır və noyabrın 2-dək davam edib.

# "Art Weekend" çərçivəsində "Nə qədər kifayətdir?" adlı inklüziv rəqs tamaşası təqdim edilib





**"Bakıya uçuş. İncəsənət həftəsonu. Gələcəyi İNDİ Duy" (Fly to Baku. Art Weekend. Sense the Future NOW) layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında "Nə qədər kifayətdir?" adlı inklüziv rəqs tamaşası təqdim olunub.**




AZƏRTAC xəbər verir ki, tədbirdə "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva iştirak edib.

"DanceAbility Azerbaijan"ın kollektivi tərəfindən hazırlanan teatr-rəqs performansı dövrümüzün ekoloji və sosial çağırışlarına bədii cavab olub.

COP29-un 2024-cü ildə Bakıda keçirilməsi kontekstində yaradılan bu tamaşa aldığımız geyimlərdən tutmuş istehsal etdiyimiz tullantılara qədər gündəlik seçimlərimizin planetin vəziyyətinə və bəşəriyyətin gələcəyinə təsirini tədqiq edir.

AZƏRTAC-ın müxbiri ilə söhbət edən "DanceAbility Azerbaijan" şirkətinin direktoru Nigar Sultanova deyib ki, tamaşanın ideyası 2024-cü ilin əsas mövzusuna çevrilən iqlim dəyişikliyi və ətraf mühit məsələlərinə ictimai diqqət dalğasında yaranıb.

"Biz həmişə inklüzivlik və əlçatanlıq ideyasını təşviq edirik, amma bu dəfə biz ətraf mühit haqqında danışmaq qərarına gəldik. Bunu səmimi şəkildə etmək bizim üçün vacib idi, ona görə də altı ay ərzində truppamızla görüşüb, planetə qayğı göstərməyin bizim üçün nə demək olduğunu müzakirə etdik", - deyə o vurğulayıb.

İdeyanın əsasını iştirakçıların illər ərzində diqqətlə qoruduqları əşyalarla bağlı şəxsi hekayələri təşkil edib.

Problemi araşdırarkən "DanceAbility Azerbaijan" komandası hər il dünyada təxminən 92 milyon ton tekstil tullantısının əmələ gəldiyini və insanların əvvəlkindən orta hesabla 36 faiz daha az geyim geyindiyini öyrənib. Məhz bu, kollektivi istehlak mədəniyyətinə və davamlı inkişafa həsr olunmuş "Nə qədər kifayətdir?" adlı tamaşanın yaradılmasına ruhlandırıb.

Tamaşa insan, istehlak və planetin ən vacib resurslarından olan su arasındakı əlaqəni tədqiq edir.

Hərəkət, hekayə danışma və kollektiv yaddaş vasitəsilə tamaşa həddindən artıq istehlak, çirkləndirmə və okeanların sağlamlığı arasındakı qarşılıqlı əlaqəni açır, davamlı inkişafı və sirkulyar iqtisadiyyat ideyalarını təşviq edir.

Tədbirin sonunda Nigar Sultanova peşəkar və həvəskar rəqqasları, müxtəlif qabiliyyətlərə və təcrübəyə malik insanları bir araya gətirən layihənin realizəsi üçün dəstəyə və şərait yaradıldığına görə Heydər Əliyev Fonduna və Leyla Əliyevaya minnətdarlığını bildirib.

Qeyd edək ki, 2017-ci ildə qurulan "DanceAbility Azerbaijan" şirkəti uzun illərdir minlərlə insanın həyatına davamlı təsir göstərərək müxtəlifliyə, bərabərliyə və inklüzivliyə dəyər verilən cəmiyyətin qurulmasına töhfə verib.

# Leyla Əliyeva "EcoMind 2025" konfransında iştirak edib






**Noyabrın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Avropa Azərbaycan Məktəbində keçirilən "EcoMind 2025" konfransında iştirak edib.**



AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyi və Avropa Azərbaycan Məktəbinin birgə təşkilatçılığı ilə baş tutan konfransın məqsədi uşaq və gənclər arasında ekoloji məsuliyyətin təbliği, məktəblərdə təhsil prosesində ətraf mühitə dair biliklərin və "yaşıl düşüncə" tərzinin təşviqidir.

Əvvəlcə Leyla Əliyeva məktəblilərin ətraf mühit problemlərinə, onun həlli yollarına, təbiətin qorunmasına dair ideyalarını əks etdirən əl işlərindən ibarət sərgiyə baxış keçirib.

Sonra konfransın açılış mərasimində çıxış edən Leyla Əliyeva gənclərin ekoloji təşəbbüslərdə fəal iştirakının və ətraf mühitin qorunması prosesində onların məsuliyyətinin vacibliyini vurğulayıb. O qeyd edib ki, hər bir məktəblinin ekoloji dəyərlərlə böyüməsi ölkənin "yaşıl gələcəyi"nin təminatıdır.

Digər çıxış edənlər təhsil müəssisələrində ekoloji məsuliyyətin artırılması, gənclərin ekoloji təşəbbüslərdə iştirakı və dayanıqlı inkişaf məqsədlərinin tədrisə inteqrasiyası istiqamətində öz fikirlərini bölüşüblər.

Tədbirdə həmçinin bədii hissə də nümayiş etdirilib.

Qeyd edək ki, ilk dəfə təşkil olunan "EcoMind 2025" konfransı gələcəkdə ənənəvi xarakter daşıyacaq və təhsil sahəsində ekoloji istiqamətdə əməkdaşlıq üçün yeni platforma formalaşdıracaq. Tədbirdə 30 universitet, 20 dövlət məktəbi, 21 özəl və beynəlxalq təhsil müəssisəsindən 450-dən çox iştirakçı bir araya gəlib.

# ADA İbtidai Məktəbində xeyriyyə məqsədli Payız festivalı - Məhsul bayramı keçirilib




**ADA Universitetinin nəzdində fəaliyyət göstərən ADA İbtidai Məktəbində artıq ənənə halını alan Payız festivalı - Məhsul bayramı böyük coşqu ilə qeyd edilib.**



Bu barədə universitetdən AZƏRTAC-a məlumat verilib.

Tarixən xalqımızın ənənələri sırasında xüsusi yer tutan məhsul bayramı bu gün də bolluğun, ruzinin, bərəkətin və birliyin simvolu kimi qeyd olunur.

Festivalın keçirilməsində əsas məqsəd ADA ailəsini və tərəfdaşlarını bir araya gətirərək şagirdlər və tələbələrdə məsuliyyətli vətəndaşlıq duyğusunu formalaşdırmaq, milli-mənəvi dəyərləri təbliğ etmək, xeyriyyəçilik adətlərimizi yaşatmaq və erkən yaşlardan cəmiyyət üçün faydalı şəxsiyyətlər yetişdirməkdir.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, dövlət rəsmiləri, ADA Universitetinin və ADA Məktəbinin müəllimləri, tələbələri, tərəfdaş şirkətlər, valideynlər və məzunlar bir araya gəliblər.

ADA Universitetinin rektoru Hafiz Paşayev tədbir iştirakçılarını salamlayaraq müxtəlif sahələrdən olan insanların bu bayramda ümumi məqsəd ətrafında bir araya gəldiklərini vurğulayıb. O, hər il miqyası və əhatə dairəsi genişlənən bu vacib təşəbbüsün gələcəkdə də davamlı olacağına inandığını qeyd edib.

Rəsmi hissədən sonra tədbir rəngarəng bədii proqramla davam edib. ADA Universitetinin tələbələri və məktəbin şagirdləri tərəfindən hazırlanan çıxışlar, musiqi və rəqs ifaları bayram ab-havasını daha da canlandırıb.

ADA ailəsinin üzvü, Azərbaycanın xalq artisti Zülfiyyə Xanbabayevanın musiqili çıxışı isə tədbirə xüsusi rəng qataraq iştirakçılara unudulmaz anlar yaşadıb.

Tədbir çərçivəsində tələbə və şagirdlərin əl işləri, eləcə də tərəfdaş şirkətlərin məhsullarından ibarət xeyriyyə məqsədli sərgi-satış təşkil olunub. Yığılan vəsait ADA İbtidai Məktəbinin şagirdləri və Azərbaycan Uşaq Fondu ilə birgə seçiləcək təhsil məqsədli sosial layihələrin həyata keçirilməsinə yönəldiləcək. Bu təşəbbüslər Məhsul bayramının mənəvi dəyərini daha da artıraraq paylaşma və xeyirxahlıq ruhunu yaşadır.

Ötən il keçirilən Məhsul bayramı zamanı toplanan vəsait 1 saylı Ailə tipli kiçik Qrup evi sosial xidmət müəssisəsində təşkil olunan təhsil layihələrinin reallaşdırılmasına sərf edilib.

Əsas və daimi tərəfdaş kimi "Veysəloğlu" Şirkətlər Qrupu, o cümlədən "Veysəloğlu Distribusiya", "Ulduz", "Araz" supermarketlər şəbəkəsi, "Oba" marketlər şəbəkəsi, "Xonça" və "Rossmann" şirkətləri, həmçinin ADA Universitetinin əməkdaşlıq etdiyi "Paul", "Fryday", "Cinnabon", "Şahdağ-E Arıçılıq", "Absheron Olive Garden", "Maxprint" və "Referans Medical Group" kimi şirkətlərin dəstəyi ilə keçirilən bu bayramda ölkəmizin müxtəlif bölgələrində yetişdirilən meyvə-tərəvəz, çörək, şirniyyat və digər yerli istehsal nümunələri ilə yanaşı, qeyri-qida məhsulları da satışa çıxarılıb.

# Vətənə və dünyaya sevgi nümunəsi

**Paytaxtımız 31 oktyabr - 2 noyabr tarixləri arasında mühüm bir mədəniyyət tədbirinə evsahibliyi etdi. Oktyabrın 31-də Heydər Əliyev Mərkəzində "ART Weekend" festivalının rəsmi açılışı oldu. Festival Heydər Əliyev Fondu və IDEA İctimai Birliyi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə təşkil edilmiş, bir sıra ölkələrdən olan incəsənət və mədəniyyət xadimləri burada bir araya gəlmişdilər.**



Festival günlərində paytaxtın müxtəlif sərgi salonları, muzeylər, təhsil ocaqları və ayrı-ayrı tarixi-mədəni məkanlarında sərgi, görüş, performanslar təşkil olundu. Festivalın Heydər Əliyev Mərkəzindəki açılış tədbirində isə "Mənim dənizlərim, mənim okeanlarım" ("My Seas, My Oceans") sərgisinin və məşhur kolumbiyalı rəssam-heykəltaraş Fernando Boteronun əsərlərindən ibarət "Bədii formanın təntənəsi" ("The Triumph of Form") sərgisinin təqdimatı keçirildi.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə Bakı tarixində ilk dəfə, böyük "Art Weekend" festivalına evsahibliyi etdi. Tədbirin miqyası barədə ümumi təsəvvür yaratmaq üçün təkcə bir faktı qeyd edək ki, festival çərçivəsində paytaxtımızda 40-a yaxın incəsənət tədbiri keçirildi.

## Ekoloji düşüncə ilə yaradıcılıq arasında körpü

Bütün dünyada belə festivallara getdikcə artan maraq incəsənətin müasir çağırışlara uyğunlaşmasından irəli gəlir. Müasir dövrdə incəsənət yalnız muzeylərin divarları arasında qapanıb qalmır - o, şəhərin ritminə, gənclərin enerjisinə, ictimai düşüncəyə sirayət edir. Bu baxımdan Leyla xanımın təşəbbüsü və təşkilatçılığı sayəsində Azərbaycanda da baş tutan "ART Weekend" festivalı ölkəmizin mədəni həyatında xüsusi yenilikdir. Festivalın məqsədi həm yerli, həm də beynəlxalq səviyyədə müasir incəsənətin təqdimatı, yaradıcı sənətkarların tanıdılması və ictimaiyyətin mədəniyyətlə daha sıx təmasda olmasını təmin etməkdir. Bu layihə məzmun etibarilə həm də ekoloji düşüncə ilə yaradıcılıq arasında körpü qurmağı, incəsənəti həm estetik, həm də sosial mesaj daşıyıcısına çevirməyi hədəfləyir.

Festival Azərbaycan gənclərinin yaradıcılıq potensialının üzə çıxarılmasına, müasir incəsənətin daha geniş auditoriyaya tanıdılmasına böyük kömək göstərir, xüsusilə gənc rəssamlar, dizaynerlər, fotoqraflar və performans sənətçiləri üçün platforma yaradır. Bakını regional mədəniyyət mərkəzlərindən birinə çevirir, incəsənət vasitəsilə ekoloji və sosial məsuliyyət ideyalarını yayaraq populyarlaşdırır.

"ART Weekend" təkcə sərgilərdən ibarət deyil - bu, multidisiplinar yaradıcılıq məkanıdır. Tədbir, adətən, bir neçə gün davam edir və müxtəlif istiqamətləri əhatə edir. Burada müasir rəssamlar öz əsərləri ilə sosial və ekoloji mövzulara toxunurlar. Canlı performanslar, eksperimental musiqi və teatr elementləri vasitəsilə tamaşaçılara dinamik təcrübə təqdim olunur. Gənc dizaynerlər ekoloji materiallardan istifadə etməklə innovativ yanaşmalarını nümayiş etdirirlər. Yerli və xarici kuratorlar, sənətşünaslar və sənətkarlar incəsənətin yeni tendensiyaları, yaradıcılıq bazarının inkişafı və mədəni diplomatiya barədə fikirlərini bölüşürlər, bu da ustad dərsləri, mədəniyyət mövzularında polemikalar kimi çox müsbət təsirlər yaradır. Bu format sayəsində "ART Weekend", sadəcə, bir sərgi deyil, həm də düşüncə və dialoq platforması kimi çıxış edir.

## Bakı yaradıcı mərkəzə çevrilir

Leyla xanım Əliyevanın böyük zəhməti sayəsində başa gəlmiş bu festival, ilk növbədə, Azərbaycan cəmiyyətində müasir incəsənətin qəbuluna və dəyərləndirilməsinə mühüm təsir göstərir. Ənənəvi mədəniyyətlə müasir yaradıcılıq arasında körpü rolunu oynayan bu tədbir yeni estetik baxış formalaşdırır. Gənc sənətçilərə beynəlxalq səviyyədə tanınmaq imkanı yaradır. İncəsənəti şəhər həyatına gətirərək Bakını yaradıcı mərkəzə çevirir. Mədəni turizmin inkişafına təkan verir. Ətraf mühit, sosial məsuliyyət və insan təbiətinin harmoniyası kimi mövzuları sənət dili ilə cəmiyyətə çatdırır. Belə festivallar digər tərəfdən də Azərbaycanın yumşaq gücünün - mədəniyyət diplomatiyasının təsirli bir alətidir. Burada iştirak edən xarici sənətçilər və qonaqlar ölkəmizi müasir, yaradıcı və açıqfikirli bir mədəniyyət məkanı kimi tanıyır və tanıdırlar.

Leyla xanımın təşəbbüsü ilə gerçəkləşən bu cür festivallar yalnız incəsənəti nümayiş etdirmir, həm də gəncləri düşünməyə, hiss etməyə və dəyişməyə çağırır. Onları həm sosial-ekoloji dəyərlərə, həm də mədəni məsuliyyətə yönəldir. O, incəsənəti sosial dəyişikliklərin katalizatoru kimi görür və bu baxımdan "ART Weekend" həm estetik, həm də vətəndaşlıq məzmunu daşıyır. Leyla xanım Əliyeva festivalın açılışında, bu çərçivədə nümayiş olunan "Əcdadlar" sərgisi kimi mədəni tədbirlərdə şəxsən iştirak etməklə başqaları üçün də nümunə yaradır, onun belə tədbirlərdə iştirakı, müasir incəsənətə marağı cəmiyyət üzvləri arasında xoş bir davranış elementinə çevirir.

Bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü ilə Mədəniyyət Nazirliyinin tabeliyində olan musiqi məktəbləri üçün alınmış yeni musiqi alətlərinin də nümayişi keçirildi. Musiqi məktəblərinin inkişafına, gənc istedadların daha keyfiyyətli təhsil almalarına və musiqi mədəniyyətinin gələcək nəsillərə ötürülməsinə xidmət edən bu layihənin təqdimatı mərasimində də Leyla xanım Arzu Əliyeva və Alena Əliyeva ilə birgə iştirak etdilər. Layihə çərçivəsində Bakı ilə yanaşı, regionlardakı bir sıra musiqi məktəbləri üçün 11 adda 70-dən çox musiqi aləti alınıb. Bu musiqi alətləri həm yerli ustaların əl işləri, həm də musiqi alətlərinin istehsalı sahəsində dünyanın aparıcı ölkələrindən sifariş olunan nümunələrdir.

Bütün bu nümunələr 2007-ci ildən etibarən Heydər Əliyev Fondunun vitse-prezidenti kimi fəaliyyət göstərərək bu vəzifədə Azərbaycanın mədəni, elmi və sosial sahələrdə inkişafına yönəlmiş çoxsaylı layihələrə rəhbərlik edən Leyla xanım Əliyevanın fondun fəaliyyət istiqamətlərinin formalaşmasında və beynəlxalq əlaqələrinin genişlənməsində mühüm rol oynadığını göstərir.

## Uğurlu nəticələr yaradan layihələr

Onun təşəbbüsləri, əsasən, humanitar yardım, təhsil, mədəniyyətin qorunması və sosial rifahın yaxşılaşdırılmasına yönəlib. Heydər Əliyev Fondunun həyata keçirdiyi bir çox layihə Leyla Əliyevanın şəxsi təşəbbüsü və rəhbərliyi altında gerçəkləşmiş və böyük nəticə vermişdir. Bu layihələrdən bir neçəsinə nəzərə salaq:

"Xocalıya ədalət!" beynəlxalq kampaniyası - 2008-ci ildə Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış bu kampaniya Xocalı soyqırımı haqqında dünya ictimaiyyətində məlumatlılığın artırılması məqsədinə yönəlib. Kampaniya çərçivəsində müxtəlif ölkələrdə sərgilər, konfranslar, aksiyalar keçirilmiş, sənədli filmlər və nəşrlər hazırlanmış, dünyanın bir neçə ölkəsinin parlamentlərində Xocalı soyqırımı rəsmən tanınmışdır.

Leyla xanım Əliyevanın fəal iştirakı ilə Heydər Əliyev Fondu uşaq evləri, internat məktəbləri və uşaq bağçalarının yenidən qurulması, aztəminatlı ailələrə dəstək proqramları kimi layihələri uğurla həyata keçirməkdədir. Leyla xanım Heydər Əliyev Fondunun vitse-prezidenti kimi Azərbaycanda tarixi abidələrin bərpası, eləcə də Azərbaycan mədəniyyətinin dünyada təbliği istiqamətində mühüm layihələrin icrasında yaxından iştirak edir. Onun təşəbbüsü əsasında bir sıra ölkələrdə Azərbaycan mədəniyyət günləri və sərgiləri təşkil edilmişdir.

Leyla xanımın fəaliyyətinin mühüm bir hissəsi də rəhbəri olduğu Ətraf Mühit Naminə Beynəlxalq Dialoq - IDEA (International Dialogue for Environmental Action) təşkilatı ilə bağlıdır. Bu təşkilat 2011-ci ildə təsis edilmişdir. IDEA-nın əsas məqsədi gənclər arasında ekoloji maarifləndirməni artırmaq, biomüxtəlifliyin qorunması və ətraf mühitin davamlı inkişafını təmin etməkdir. IDEA ötən illər ərzində nadir heyvan növlərinin, xüsusilə Qafqaz bəbiri, Qızıl qartal və digər növlərin qorunması proqramlarını uğurla həyata keçirmişdir. Təşkilat ağacəkmə aksiyaları, gənclər üçün ekoloji təhsil proqramları, təlimlər və beynəlxalq forumlar təşkil etmiş, Bakıda və regionlarda ən yüksək standartlara uyğun ictimai çimərliklər yaratmış, "Abad həyət" kimi layihələrlə məhəllələrin, həyətlərin abadlaşdırılması, yaşıllaşdırılması, vətəndaşlarımızda ekoloji savadlılığın, ətraf mühitlə bağlı məsuliyyət hissinin gücləndirilməsində misilsiz işlər görmüşdür.

## Ekoloji diplomatiyanın mühüm platforması

Leyla xanım Əliyevanın IDEA layihəsi regionda ekoloji diplomatiyanın mühüm platformalarından birinə çevrilmişdir. Qurum BMT, UNESCO və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrinə malikdir.

Leyla xanım Əliyeva Azərbaycanın gənclər diplomatiyasının da aparıcı simalarından biri kimi tanınır. O, həmçinin uzun illərdir "Bakı" jurnalının baş redaktoru kimi Azərbaycan mədəniyyətinin və incəsənətinin böyük bir qitədə tanıdılmasına töhfə verir, bu jurnal xalqlar arasında mədəni körpü rolunu oynayır. Bundan əlavə, Leyla xanım Rusiya Azərbaycanlı Gənclər Təşkilatının həmtəsisçisidir. Təşkilatın fəaliyyəti gənclər arasında dostluq, qarşılıqlı anlaşma və mədəni mübadiləni gücləndirməyə yönəlib.

Xeyirxahlıq, mərhəmət, sosial qayğıya ehtiyacı olan insanlara dəstək, cəmiyyət üçün maksimum faydalı olmaq Leyla xanım Əliyevanın xarakteridir. O, kimsəsiz uşaqlar, ahıllar, əlilliyi olan şəxslər üçün sosial layihələrin həyata keçirilməsində fəal iştirak edir. Çoxmillətli ölkə olan Azərbaycanda multikultural dəyərlərin yayılmasında, tolerantlıq ənənələrinin daha da möhkəmlənməsində Leyla xanımın müstəsna xidmətləri vardır. Onun fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq səviyyədə layiqincə qiymətləndirilmiş, müxtəlif yüksək mükafatlara layiq görülmüşdür. Ən böyük mükafatsa bəşəri missiya yerinə yetirən Leyla xanım kimi şəxsiyyətlərin özlərinin şəxsi keyfiyyətlərindən aldıqları mükafatdır.

Leyla xanım Əliyeva ölkəmiz və dünyamız üçün faydalı fəaliyyəti ilə Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir, insanlar üçün Vətənə və dünyaya sevginin parlaq nümunəsini yaradır.

***İradə ƏLİYEVA, "Azərbaycan"***

## Azərbaycan Milli Elmlər Akademiyası – 80

# AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi: tarixi uğurları və perspektivləri

**Ümummilli Lider Heydər Əliyevin xalqımızın milli sərvəti adlandırdığı Azərbaycan Milli Elmlər Akademiyasının yarandığı vaxtdan 80 il ötür. Ölkənin ali elmi qurumu olan Elmlər Akademiyası ilə birgə onun tərkibində müxtəlif adlar altında fəaliyyət göstərmiş Biologiya və Tibb Elmləri Bölməsi də bu il özünün 80 illik yubileyini qeyd edir.**



1918-ci ildə başladılan elmin təşkilati strukturlaşması prosesi 1920-1930-cu illərdə əhəmiyyətli dərəcədə inkişaf edilərək güclənmiş, bir sıra yeni qurumlar, o cümlədən 1936-cı ildə Botanika və Zoologiya institutları, 1945-ci ildə Aqrokimya və Torpaqşünaslıq İnstitutu təsis edilmişdir.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 27 mart 1945-ci il tarixli qərarı ilə yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin 2 aprel 1945-ci il tarixli iclasında Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsi təşkil edilmiş, onun tərkibinə Botanika, Zoologiya, Aqrokimya və Torpaqşünaslıq, Elmi-Tədqiqat Eksperimental Kliniki Təbabət institutları, Bitkiləri Mühafizə və Heyvandarlıq sektorları, daha sonra isə "Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (biologiya seriyası)" məcmuəsinin redaksiyası daxil olunmuşdur.

Bölməyə rəhbərlik akademiyanın birinci prezidenti, Azərbaycanın ilk tibb elmləri doktoru, milli cərrahiyyə məktəbinin əsasını qoymuş görkəmli alim, akademik Mirəsədulla Mirqasımova tapşırılmışdır. Qısa müddətdən sonra Azərbaycan tibb elminin, xüsusən cərrahiyyənin təşəkkülü və inkişafında, eləcə də beynəlxalq miqyasda təmsil olunmasında əvəzsiz xidmətlərə malik, 1945-ci ildə respublikanın 14 digər görkəmli alimi ilə birgə, Azərbaycan SSR Elmlər Akademiyasının ilk təsisçilərindən və həqiqi üzvlərindən biri olmuş görkəmli alim, akademik Mustafa Topçubaşov bölmənin sədri təyin edilmiş və bu vəzifəni 1951-ci ilin yayına kimi uğurla icra etmişdir.

Akademik Mustafa Topçubaşovun təşəbbüsü və səyləri ilə 1946-cı ildə Elmi-Tədqiqat Naftalan Problem laboratoriyasının və Eksperimental Kliniki Təbabət İnstitutunun yaradılması haqqında qərarlar qəbul olunmuşdur. Mustafa bəy bölmənin tərkibində 1947-1949-cu illərdə fəaliyyət göstərmiş həmin institutun direktoru, 1961-ci ildən laboratoriya rəhbəri kimi də təqdirəlayiq işlər görmüş, 1951-1956-cı və 1959-1981-ci illərdə Azərbaycan SSR EA-nın vitse-prezidenti vəzifəsində çalışmışdır.

Azərbaycan SSR EA-nın fəaliyyətinin ilk illərində alimlərimiz tərəfindən bir sıra mühüm elmi nailiyyətlər əldə edilərək dövlət səviyyəsində qiymətləndirilmişdir. Akademik Firuz Məlikovun rəhbərliyi ilə zərif yunlu "Azərbaycan dağ merinosu" qoyun cinsi yaradılmış, bununla bağlı 1947-ci ildə bütün yaradıcı qrupa SSRİ Dövlət mükafatı verilmişdir. Akademik Cəbrayıl Hüseynov 1950-ci ildə SSRİ Dövlət mükafatı almış, həmin il Azərbaycan SSR EA-nın müxbir üzvü Rəhim Hüseynovun yaratdığı yüksəkməhsuldar "Azərbaycan" tut ipəkqurdu cinsi də SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Söz düşmüşkən qeyd edək ki, 1950-ci ildə Əkinçilik İnstitutu təsis olunmuş, bu elmi-tədqiqat müəssisəsinə kənd təsərrüfatı sahəsində fundamental və tətbiqi tədqiqatların aparılması həvalə edilmişdir.

1951-ci ilin iyun ayından 1952-ci ilin aprelinə kimi Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinə akademik İmam Mustafayev, 1952-1956-cı illərdə Azərbaycanda fiziologiya elmi məktəbinin görkəmli nümayəndələrindən biri, akademik Abdulla Qarayev rəhbərlik etmişdir. Yeri gəlmişkən, 1968-ci ildə Fiziologiya İnstitutunun yaradılması da bilavasitə Abdulla Qarayevin adı ilə bağlıdır. 1956-1957-ci illərdə bölmənin akademik-katibi vəzifəsində görkəmli torpaqşünas alim, SSRİ Elmlər Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı akademik Vladimir Volobuyev çalışmışdır.

1957-ci ilin sonunda akademiyanın strukturundakı elmi bölmələr ləğv olunsa da, elmin strukturlaşması və yeni elmi müəssisələrin formalaşdırılması prosesi davam etmişdir. Məsələn, 1958-ci ildə müvafiq sektorun bazasında Genetika və Seleksiya İnstitutu təşkil edilmişdir. Bölmələrin mövcud olmadığı müddətdə Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin funksiyalarını EA-nın vitse-prezidenti (akademik Vladimir Volobuyev) yanında yaradılmış Biologiya və kənd təsərrüfatı elmləri üzrə Elmi şura icra etmişdir.

Elmin idarə edilməsində və əlaqələndirilməsi işində ciddi boşluqların meydana gəlməsi Azərbaycan SSR Elmlər Akademiyasının bölmələrinin bərpasına ehtiyac yaratmışdır. 1959-cu ildə əvvəlki Biologiya və Kənd Təsərrüfatı Elmləri Bölməsinin bazasında Biologiya və Tibb Elmləri Bölməsi yaradılmış, akademik Vladimir Volobuyev akademik-katib seçilərək 1981-ci ilə kimi bu vəzifədə uğurla çalışmışdır. 1958-1959-cu illərdə hökumət qərarı ilə Azərbaycan SSR Kənd Təsərrüfatı Elmləri Akademiyasının yaradılması ilə bağlı addımlar atılmış, lakin bu cəhd uğursuz alınmışdır. 1961-ci ildə formalaşdırılmış Kənd Təsərrüfatı Elmləri Bölməsi 1963-cü ildə ləğv edilmiş, bu bölmə



Biologiya və Tibb Elmləri Bölməsi ilə birləşdirilərək Biologiya Elmləri Bölməsi adlandırılmışdır.

Bölmənin tarixində yüksək inkişaf dövrünün xüsusi mərhələsi 1969-cu ildən, dövlətçilik tariximizin ən görkəmli siması, müstəqil Azərbaycan Respublikasının banisi, elmə hər zaman yüksək dəyər vermiş, elm adamlarına hamilik etmiş Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə ilk gəlişi ilə başlamışdır.

Görkəmli botanik alim, azərbaycanlı qadınlar arasında ilk biologiya elmləri doktoru olan Validə Tutayuq 1969-cu ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilməklə həmçinin ölkəmizdə ilk qadın akademik olmuşdur. 1972-ci ilin fevralında isə Azərbaycan SSR EA Rəyasət Heyətinin qərarına əsasən, Mikrobiologiya sektorunun yaradılması ilə mikrobiologiya elmi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

1979-cu ildə Azərbaycan SSR EA Rəyasət Heyətinin və Səhiyyə Nazirliyinin birgə qərarı əsasında Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunda görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın rəhbərliyi ilə Görmənin fiziologiyası laboratoriyasının yaradılması da mühüm hadisə olmuşdur. Elmdə bir sıra ilklərə imza atmış Zərifə xanım Əliyeva 1981-ci ildə oftalmologiya sahəsində ən yüksək mükafatı - SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatını alan yeganə azərbaycanlı alim kimi tarixə düşmüşdür.

1981-1991-ci illərdə Biologiya Elmləri Bölməsi dünyaşöhrətli alim və ictimai-siyasi xadim, Azərbaycanda biologiya elminin inkişafına və kadr hazırlığına böyük töhfələr vermiş akademik Cəlal Əliyevin rəhbərliyi ilə fəaliyyət göstərmişdir. Ölkəmizdə biologiya və əlaqədar elm sahələrinin düzgün istiqamətləndirilməsi və inkişafında, elmin müasir istiqamətlərinin, o cümlədən molekulyar biologiya, molekulyar genetika, gen və hüceyrə biotexnologiyası, riyazi biologiya və bioinformatikanın təşəkkülü və bu sahələr üzrə yüksəkixtisaslı elmi kadr potensialının yaradılmasında, Azərbaycan elminin dünya elminə inteqrasiyasının dərinləşdirilməsində, beynəlxalq elmi təşkilatlar və tanınmış xarici mərkəzlərlə əlaqələrin qurulması və gücləndirilməsində akademik Cəlal Əliyevin göstərdiyi xidmətlər xüsusi tarixi əhəmiyyət daşıyır. 1980-ci illərdə SSRİ məkanında ümumi durğunluq yaşansa da, akademik Cəlal Əliyev bölmə üzrə elmi tədqiqatların intensivliyinin və səmərəliliyinin artırılması, layiqli alimlərin əməyinin yüksək qiymətləndirilməsi üçün əlindən gələni əsirgəmirdi.

1983-cü ildə keçirilən Elmlər Akademiyası üzvlüyünə seçkilər bu mənada xarakterik olmuş, görkəmli oftalmoloq alim Zərifə Əliyeva, tanınmış pediatr və pedaqoq Ədilə Namazova Azərbaycan SSR EA-nın həqiqi üzvü, Siddiqə Məmmədova isə müxbir üzvü seçilmişlər. Bu seçkilər qadın alimlərin bölmədəki nüfuzunun və onlara göstərilən diqqətin göstəricisi hesab edilə bilər. Əlavə edək ki, Siddiqə Məmmədova 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Bölmənin mandatına uyğun elm sahələrində azərbaycanlı alimlərin mükafatlandırılması ilə bağlı digər faktlar da mövcuddur. Bölmənin ən fəal üzvlərindən biri, akademik Mirməmməd Cavadzadə "Böyrəklərin və sidik yollarının anadangəlmə anomaliyaları olan xəstələrin müalicəsi üçün müasir diaqnostik üsulların və orijinal rekonstruktiv orqanqoruyucu cərrahiyyə əməliyyatlarının hazırlanması və klinik praktikada tətbiqi"ndə əldə etdiyi mühüm nailiyyətlərə görə 1982-ci ildə SSRİ Dövlət mükafatı almışdır. Akademik Əhliman Əmiraslanov "Onkoloji xəstələrin bərpa müalicəsi metodlarının işlənib hazırlanması və onların kliniki təcrübədə tətbiqi" üzrə silsilə işlərə görə 1986-cı ildə elm və texnika üzrə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Müstəqillik illərində akademik Şamxal Tağıyev daha sonra akademik Musa Musayev bölmənin akademik-katibi vəzifəsində çalışmışlar. Yeri gəlmişkən, akademik Musa Musayev 1960-2010-cu illərdə Azərbaycan SSR EA Zoologiya İnstitutunun direktoru olmuşdur.

1994-cü ildə Mikrobiologiya İnstitutu təsis edilmişdir. 1997-ci ildə Mərdəkan Dendrarisi şöbəsi, 2000-ci ildə isə Nəbatat Bağı Botanika İnstitutunun tərkibindən çıxarılaraq müstəqil fəaliyyətə başlamışlar. 2003-cü ildə akademik Cəlal Əliyevin təşəbbüsü ilə Genetika və Seleksiya İnstitutunun bazasında Genetik Ehtiyatlar İnstitutu və bitki genetik ehtiyatlarının rüşeym plazmasının mühafizə olunduğu Milli Genbank yaradılmışdır.

2007-ci ildə bölmənin akademik-katibi vəzifəsinə Azərbaycanda tibb elmi və təhsilinin aparıcı simalarından biri, 1992-2015-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru olmuş, universitetin Onkologiya klinikasının direktoru akademik Əhliman Əmiraslanov təyin edilmişdir. 2011-ci ildə Biologiya Elmləri Bölməsinin adı dəyişdirilərək, Biologiya və Tibb Elmləri Bölməsi adlandırılmış, onun ölkə üzrə əhatə dairəsi xeyli genişlənmişdir. Akademik Əhliman Əmiraslanov bölməyə rəhbərlik etməklə yanaşı, 2010-cu ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Səhiyyə Komitəsinin sədri (2015, 2020, 2024) kimi ölkədə elm və səhiyyə sahəsində qanunvericiliyin təkmilləşdirilməsində mühüm rol oynamışdır.

Kənd təsərrüfatı yönümlü elmi müəssisələrin fəaliyyətini əlaqələndirmək məqsədilə 2011-ci ildə AMEA-nın tərkibində Aqrar Elmlər Bölməsi təşkil edilmişdir. Bölmənin akademik-katibi akademik Qərib Məmmədov olmuşdur. 2016-cı ildə AMEA-nın strukturunda aparılan institusional islahatlar nəticəsində Aqrar Elmlər Bölməsi ləğv edilmişdir. Həmin islahatlara əsasən, Eroziya və Suvarma İnstitutu Torpaqşünaslıq və Aqrokimya İnstitutuna birləşdirilərək yeni formalaşmış institut, eləcə də Genetik Ehtiyatlar İnstitutu yenidən Biologiya və Tibb Elmləri Bölməsinin tərkibinə daxil edilmişdir.

AMEA-nın 30 iyun 2014-cü il tarixli ümumi yığıncağında AMEA Botanika İnstitutunun Bioloji məhsuldarlığın fundamental problemləri şöbəsinin bazasında yeni Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun yaradılması haqqında qərar qəbul edilmişdir. Bu elmi təşkilatın formalaşdırılma tarixi, təşəkkülü və inkişafı akademik Cəlal Əliyevin adı ilə sıx bağlıdır. İnstitut 2016-cı ildən müstəqil fəaliyyətə başlamış, qısa müddətdə öz mandatı üzrə ölkədə aparıcı elmi-tədqiqat müəssisəsinə çevrilmişdir.

2019-cu ildən Biologiya və Tibb Elmləri Bölməsi AMEA-nın vitse-prezidenti, AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun (MBBİ) baş direktoru akademik İradə Hüseynovanın rəhbərliyi altında fəaliyyət göstərir.

80 il ərzində Azərbaycanda biologiya, kənd təsərrüfatı və tibb elmlərinin müxtəlif sahələri, o cümlədən məhsuldarlıq proseslərinin fizioloji, biofiziki və genetik əsasları; stres amillərinə davamlılığın molekulyar mexanizmləri; biomüxtəlifliyin, o cümlədən aqrobiomüxtəlifliyin tədqiqi, mühafizəsi və səmərəli istifadəsi; mikroorqanizmlərin ekologiyası, biokimyası; torpaq ekologiyası, təsnifatı, torpaqəmələgəlmənin energetikası; onurğalılarda beyinin analitik-sintetik fəaliyyəti; insanda patologiyaların diaqnostikası, profilaktikası və kompleks müalicə üsulları istiqamətlərində tədqiqatlar aparılmışdır.

Ölkəmizdə biologiya və tibb elmlərinin qeyd edilən istiqamətlərində yeni elm sahələrinin əsasının qoyulması, təşəkkülü, formalaşması və inkişafında tanınmış akademiklər Cəlal Əliyev, Aleksandr Qrossheym, Mustafa Topçubaşov, Abdulla Qarayev, Vladimir Volobuyev, Həsən Əliyev, Müzəffər Abutalıbov, Məmmədtağı Qəniyev, İmam Mustafayev, Musa Musayev, Cəmil Əliyev, Əhliman Əmiraslanov, Qərib Məmmədov və başqaları tərəfindən nəzərəçarpacaq işlər görülmüş, mühüm nailiyyətlər əldə edilmiş, tədqiqat müəssisələri və elmi məktəblər yaradılmışdır.

Bu gün də bölmənin üzvləri respublikada elmin dünya səviyyəsində inkişafına, onun səmərəli idarə edilməsinə və yüksəkixtisaslı elmi kadrların hazırlanmasına mühüm töhfələr verirlər. Azərbaycan onkologiya elminin korifeyi, görkəmli səhiyyə və elm təşkilatçısı, Rusiya Tibb Elmləri Akademiyasının (hazırda Rusiya Elmlər Akademiyasının) üzvü, AMEA Rəyasət Heyətinin üzvü, akademik Cəmil Əliyevin çoxşaxəli elmi və təşkilati fəaliyyəti bu baxımdan xüsusi qeyd olunmalıdır.

2022-ci ilə qədər bölmənin tərkibində 9 institut fəaliyyət göstərmişdir. Azərbaycan elmində aparılan struktur islahatları bu institutları da əhatə etmişdir. 7 yanvar 2022-ci ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyində "Mərkəzi Nəbatat Bağı" və "Dendrologiya Bağı" publik hüquqi şəxslərin yaradılması haqqında qərar qəbul edilmişdir. "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 iyul 2022-ci il tarixli fərmanı ilə Təhsil Nazirliyi Elm və Təhsil Nazirliyi adlandırılmış, həmin fərmanla AMEA-nın bir sıra elmi müəssisə və təşkilatları, o cümlədən BTEB-in tabeliyində olan aşağıdakı institutlar nazirliyin tabeliyinə verilmişdir: Botanika; Molekulyar Biologiya və Biotexnologiyalar; Zoologiya; Akademik Abdulla Qarayev adına Fiziologiya; Genetik Ehtiyatlar; Torpaqşünaslıq və Aqrokimya; Mikrobiologiya; Dendrologiya institutları.

Ölkənin müvafiq elm və təhsil müəssisələrində biologiya, aqrar və tibb elmləri sahəsində tədqiqatlar bölmə tərəfindən müəyyən edilən və mütəmadi şəkildə yenilənən istiqamətlərdə aparılmışdır. Hazırda bu istiqamətlər aşağıdakı kimidir: biomüxtəlifliyin, torpaq və su ehtiyatlarının müasir yanaşmalarla tədqiqi, bərpası, mühafizəsi, səmərəli istifadəsi, elektron məlumat bazaları və rəqəmsal xəritələrinin yaradılması; bioloji proseslərin molekulyar-genetik və fiziki-kimyəvi əsasları, genom, proteom və metabolom tədqiqatları, yeni bio-, nano- və postgenom texnologiyalarının fundamental və tətbiqi əsaslarının işlənib hazırlanması; rəqəmsal texnologiyaların və süni intellektin biologiya, kənd təsərrüfatı və təbabətdə tətbiqi; patologiyaların fizioloji və molekulyar-genetik əsaslarının tədqiqi, yeni diaqnostika və müalicə üsullarının, dərman preparatlarının işlənib hazırlanmasında və reproduktiv təbabətdə yüksək texnologiyaların və kök hüceyrələrinin tətbiqi; aqrar istehsal zəncirinin bütün mərhələlərinin optimallaşdırılması və diversifikasiyası, ekosistemlərin davamlılığını və resurslardan səmərəli istifadəni təmin edən, karbon emissiyasını azaldan innovativ texnologiyaların və inteqrasiya olunmuş metodların tətbiqi ilə ərzaq təhlükəsizliyinin təmin olunması.

Dünyanı 3 ilə qədər əsarətində saxlamış COVID-19 pandemiyası ilə mübarizə dövründə (2020-2022) bölmə tərəfindən onlarla elmi və elmi-kütləvi tədbir təşkil edilmiş, əməkdaşlar tərəfindən COVID-19-la bağlı kütləvi informasiya vasitələrində ümumilikdə 80-dən çox məqalə, çıxış, müsahibə və müraciətləri yayımlanmışdır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonrakı dövrdə bölmənin əsas fəaliyyət istiqamətlərindən biri Qarabağın bərpası və işğaldan azad edilmiş ərazilərə elmin Böyük qayıdışı ilə bağlıdır. 20-21 may 2021-ci ildə keçirilmiş "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bu günü və gələcəyi" mövzusunda konfrans bu sahədə çalışan alim və mütəxəssisləri vahid virtual məkanda toplamaqla müvafiq fəaliyyətlərlə bağlı yol xəritəsinin müəyyənləşdirilməsi baxımından önəmli hadisə olmuşdur. 8-9 noyabrda onlayn formatda "Zəfər Günü və şəhidlərin xatirəsinə" 2-ci beynəlxalq Qarabağ - Tətbiqi Elmlər konqresi, 11 may 2022-ci ildə BTEB-in və Dendrologiya İnstitutunun birgə təşkilatçılığı ilə "Şuşa ili" çərçivəsində II Xarıbülbül rəsm və əl işlərindən ibarət ümumrespublika yaradıcılıq müsabiqəsi keçirilmişdir. 2021-2024-cü illərdə Genetik Ehtiyatlar İnstitutunun Qarabağ Elmi-Tədqiqat Bazasında (Tərtər rayonu, Şıxarx qəsəbəsi) 4 tarla seminarı təşkil olunmuşdur. 22-23 sentyabr 2022-ci ildə Bakı və Şuşa şəhərlərində BTEB-in təşkilatçılığı ilə keçirilmiş və "Şuşa ili"nə həsr edilmiş "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: gələcəyə baxış" mövzusunda beynəlxalq konfrans elmi ictimaiyyətin diqqətinin Böyük qayıdışa yönəldilməsi baxımından əlamətdar hadisədir.

AMEA-nın ingilis dilində nəşr olunan "Həyat Elmləri və Biotibb" jurnalının 2 xüsusi nömrəsi işğaldan azad edilmiş ərazilərin biomüxtəlifliyinin, torpaq və su ehtiyatlarının tədqiqinə həsr edilmişdir.

İşğaldan azad edilmiş ərazilərin biomüxtəlifliyi, su və torpaq resursları, onlardan səmərəli istifadə ilə bağlı alimlərimizin məlumat, təklif və tövsiyələri elmi arayışlar şəklində hazırlanaraq aidiyyəti instansiyalara təqdim edilmişdir. Bundan əlavə, həmin ərazilərə BTEB-in əhatə etdiyi institutlar tərəfindən çoxsaylı ekspedisiyalar təşkil edilmiş, nadir və itmək təhlükəsində olan bitki və heyvan növlərinin, torpaq və su ehtiyatlarının, içməli su mənbələrinin, meşə və digər ekosistemlərin monitorinqləri aparılmışdır. Oxçuçay və Bəsitçayın monitorinqləri üzrə fəaliyyətlər, ekspedisiyalar və nümunələrin analizi prosesi 4 institutun əməkdaşlarından ibarət işçi qrupu tərəfindən aparılmışdır.

Bölmə çərçivəsində respublikada mövcud olan su problemlərinin, Xəzər dənizinin Azərbaycan sektorunun və ətraf ekosistemlərin tədqiqi, dənizin bioloji resurslarının öyrənilməsi üzrə də intensiv işlər görülmüşdür. Onu da qeyd edək ki, son illər bölmənin fəaliyyətinin əsas istiqamətlərindən biri də kadr hazırlığı ilə bağlı olmuşdur. 6 institutda dissertasiya müdafiəsi şuraları mövcud olmuşdur. Bölmə üzrə kadr hazırlığında beynəlxalq əməkdaşlıqdan və qrant proqramlarından geniş istifadə olunmuşdur. Təkcə 2019-2022-ci illərdə bölmə institutlarının 40-dan çox gənc mütəxəssisi tanınmış xarici universitetlərdə (Böyük Britaniyanın Oksford, Fransanın Monpelye, Belçika Krallığının Gent, Fransa Respublikasının Grenoble Politexnik, Türkiyənin Bilecik Şeyh Edebali, İzmir, ABŞ-nin Viskonzin və s. universitetlərində) doktorantura və ya magistratura təhsili almışdır. Həmin müddətdə 100-ə qədər alim və mütəxəssisin xarici mərkəzlərdə elmi təcrübə keçmədə olması məqsədilə bütün təşkilati tədbirlər görülmüşdür. 2016-2022-ci illərdə AMEA-nın elmi-tədqiqat institutlarının nəzdində ali təhsilin magistratura səviyyəsi üzrə kadr hazırlığının aparılması uğurlu nəticələr vermişdir. Bölmə üzrə xaricdə doktorantura təhsili alanların böyük əksəriyyəti AMEA-nın magistraturasının məzunlarıdır. Bölmədə həmçinin elm və təhsilin inteqrasiyası daim diqqət mərkəzində saxlanılmış, universitetlərin müvafiq kafedraları ilə əlaqələr saxlanılmış və inkişaf etdirilmişdir.

Biologiya və Tibb Elmləri Bölməsinin "Həyat Elmləri və Biotibb" jurnalı (Journal of Life Sciences and Biomedicine) ildə iki dəfə (iyun və dekabr) ingilis dilində mütəmadi nəşr olunur. 1945-ci ildən "AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri)" kimi fəaliyyət göstərmiş jurnal yeni ad altında 2019-cu ildən çap edilir. Jurnalın beynəlxalq standartlara uyğun saytı (https://jlsbjournal.org/) fəaliyyət göstərir.

Bölmənin tabeliyində olmuş 5 institutda son 13 il ərzində 11 beynəlxalq laboratoriya yaradılmışdır. Son 10 ildə isə 40-dan çox ölkənin 80-ə yaxın elmi-tədqiqat müəssisəsi, tanınmış universiteti, genbankları, nəbatat və dendrologiya bağı ilə, eləcə də nüfuzlu beynəlxalq mərkəz və təşkilatla elmi əlaqələr intensiv inkişaf etdirilmişdir. Məsələn, 2020-2023-cü illərdə Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində fəaliyyət göstərən İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutu (İKSAD) ilə birgə bir neçə beynəlxalq konfrans təşkil olunmuşdur.

BTEB-in 2023-cü ildəki fəaliyyətinin əhəmiyyətli hissəsi Prezidentin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 28 noyabr 2022-ci il, görkəmli oftalmoloq-alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın 100 illik yubileyinin qeyd edilməsi haqqında 3 noyabr 2022-ci il tarixli sərəncamlarının icrasına həsr edilmiş, çoxsaylı elmi tədbir, iclas, konfrans, sərgi və seminar böyük uğurla həyata keçirilmişdir. Bunlardan əlavə, 2023-cü ilin noyabrında görkəmli alim və ictimai xadim, akademik Cəlal Əliyevin 95 illik yubileyinə həsr edilmiş "Fotosintez, ətraf mühit və bitkilərin məhsuldarlığı" mövzusunda qiraətlər keçirilmişdir.

2019-2023-cü illərdə bölmənin diqqətində olan ən aktual problemlərdən biri də Azərbaycan Respublikasının "Qırmızı Kitab"ının III nəşrinin hazırlanması olmuşdur. III nəşr nəfis şəkildə çapdan çıxmışdır. BTEB-in 2024-cü ildəki elmi və elmi-təşkilati fəaliyyətinin mühüm bir hissəsi də "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında" Azərbaycan Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamının icrasını əhatə etmişdir.

Bu gün Biologiya və Tibb Elmləri Bölməsi öz işini ölkə üzrə elmi proseslərin sistemli koordinasiyası, biologiya və tibb sahələrində elmi-tədqiqat istiqamətlərinin müəyyənləşdirilməsi, bu istiqamətlər üzrə elmi nəticələrin toplanması, təhlili və qiymətləndirilməsi, eləcə də müvafiq tədqiqat müəssisələrinə və universitet kafedralarına elmi-metodiki dəstəyin göstərilməsi üzərində qurur. Bu fəaliyyət çərçivəsində bölmə Elm və Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Səhiyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, eləcə də digər dövlət qurumlarının elmi-tədqiqat və ali təhsil müəssisələri ilə sıx əməkdaşlıq edir. Bu qarşılıqlı fəaliyyət elmi resursların səmərəli inteqrasiyasına, milli elmi siyasətin həyata keçirilməsində vahid elmi məkanın formalaşmasına və elmin real sektorlara yönəldilməsinə xidmət göstərir.

Bu gün Biologiya və Tibb Elmləri Bölməsi Azərbaycanın elmi ekosistemində birləşdirici və istiqamətverici mərkəz kimi çıxış edir. Bölmənin fəaliyyəti ölkədə fundamental və tətbiqi elmlərin qarşılıqlı əlaqəsini möhkəmləndirir, innovasiyaların və süni intellekt əsaslı tədqiqatların inkişafına zəmin yaradır.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti,***
***AR ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru akademik***

# Azərbaycanın xarici siyasətinin uğurları

# "Orta güc" strategiyası: çoxistiqamətliliklə çoxtərəfli əməkdaşlığın vəhdəti

**Prezident İlham Əliyevin yaradıcı liderliyi haqqında Azərbaycan və dünya mətbuatında araşdırmalar dərc olunur. Eyni zamanda ekspert dairələrində politoloji aspektdə dövlət başçısının siyasi kursunun tədqiqi aparılır. Azərbaycan Prezidentinin siyasi lider kimi meyarlarının mühüm bir cəhəti son dərəcə çevik addımlar atması ilə bağlıdır. Bu da, faktiki olaraq, dövlət başçısının siyasi fəaliyyətini zamanında təhlil etmək tələbini ortaya qoyur. Bütün bunları nəzərə alaraq, Azərbaycan Prezidenti İlham Əliyevin bu ilin sentyabr-oktyabr aylarında mötəbər beynəlxalq tədbirlərdə iştirakını multivektorluq və multilaterallıq kontekstində təhlil etməyə ehtiyac duyduq.**




## Multivektorluq və multilaterallıq yeni tarixi mərhələdə

Azərbaycanın xarici siyasətini xarakterizə edən politoloqlar onun bir sıra xüsusiyyətlərini vurğulayırlar. Onların sırasında multivektorluq (çoxistiqamətlilik) və multilaterallıq (çoxtərəfli və ya çoxaspektli əməkdaşlıq forması) xüsusi yer tutur. Yeni tarixi mərhələdə həmin özəlliklər yeni səviyyədə xarici siyasətin prioritetləri sırasında yer alır.

Realpolitik yanaşma çərçivəsində bu iki siyasi parametr sadə mənaya malik deyildir. O, əslində, hər bir real situasiyada dövlətin xarici siyasətinin mühüm cəhətlərini əks etdirir. Yəni multivektorluq dövlətin xarici siyasətində müxtəlif istiqamətlərin siyasi və geosiyasi kontekstdə əlaqələndirilməsi ilə bağlıdır. Multilaterallıq isə daha mürəkkəb anlayışdır. Çünki burada çoxistiqamətlilik şəraitində əməkdaşlığın bütün aspektlərini mövcud siyasi və geosiyasi şərtlərə uyğunlaşdırmaq tələb olunur. Bundan başqa, xarici siyasətdə hər iki özəlliyin milli maraqlara və dövlətin strateji hədəflərinə uyğunluğunu təmin etmək lazım gəlir.

Bu fikirlərin işığında Azərbaycanın xarici siyasətində özünü göstərən mühüm bir trendə diqqət yetirək. Öncə, onu qeyd edək ki, ekspertlər bu kontekstdə müəyyən təhlillər əsasında qiymətləndirmələr aparırlar. Onların bir qisminə qısa nəzər salaq.

Ekspertlərin cari ilin sentyabr və oktyabr aylarında Prezident İlham Əliyevin qlobalmiqyaslı toplantılarda iştirakı əsasında siyasi ümumiləşdirmələri maraq doğurur. Belə ki, Azərbaycan Prezidentinin Çinin Tiencin şəhərində "ŞƏT plyus" formatındakı görüşdə, Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında, "Avropa Siyasi Birliyi"nin Kopenhagendə keçirilən 7-ci Zirvə görüşündə, Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələ sammitində, Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının Düşənbədə keçirilən sammitində və ABŞ Prezidenti Donald Trampın, həmçinin Misir, Qətər və Türkiyə liderlərinin iştirak etdikləri Şarm əl-Şeyxdəki Yaxın Şərq sülh sammitində iştirakı ölkəmizin artan qlobal nüfuzunun göstəricisi kimi qiymətləndirilir.

Bunlara iki hadisəni də əlavə edək: İtaliya Prezidentinin Azərbaycana səfəri və Azərbaycan Prezidentinin Qazaxıstana səfəri. Bu onu göstərir ki, Prezident İlham Əliyev fəal və məqsədyönlü xarici siyasət yürüdür. Ekspertlər onu ümumən aşağıdakı kimi qiymətləndirirlər.

Prezident İlham Əliyevin qatıldığı sammitlər fərqli siyasi-mədəni məkanlarda keçirilib və hər biri ölkənin xarici siyasət palitrasında fərqli məna daşıyır. Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin sammitinin əsas məzmununu enerji təhlükəsizliyi, qitələrarası sabitlik, Avropa-Asiya əlaqələri kontekstində dəyərləndirmək olar. Ölkəmiz üçün əsas məna Azərbaycanın Qərb məkanında etibarlı enerji tərəfdaşı və təhlükəsizlik aktoru kimi qəbul edilməsidir. Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşündə isə əsas mövzu Orta dəhliz, mədəni-strateji həmrəylik idi. Bu Zirvə görüşü Azərbaycanın türk dünyasında lider və təşəbbüskar mövqeyi, türk inteqrasiyasının hərəkətverici qüvvəsi kimi fəaliyyətini ortaya qoyub.

Vurğulanan ümumi trek kontekstində ekspertlər konkret nəticələri ifadə edirlər.

Birincisi, Prezident İlham Əliyev bu platformadakı çıxışında Türk Dövlətləri Təşkilatının ideoloji birlikdən strateji güc mərkəzinə çevrilməsi zərurətini ortaya qoyub.

İkincisi, Azərbaycan Prezidenti türk dünyasının qlobal güc balansında öz yerini möhkəmləndirməsi üçün faydalı addımlar atır.

Üçüncüsü, İlham Əliyev Azərbaycanı türk dünyasının siyasi mərkəzi statusuna yüksəldir.

Dördüncüsü, Prezident İlham Əliyev təkmilləşdirilmiş əməkdaşlıq fəlsəfəsi irəli sürüb. Həmin fəlsəfənin məğzi müxtəlif dövlətləri ortaq maraqlar və qarşılıqlı hörmət əsasında bir araya gətirməkdən ibarətdir. Onun əsas əlaməti isə Azərbaycanın xarici siyasətində dəyişməz prinsipin - tarazlıq və suveren qərarvermənin bərqərar olmasıdır.

Beşincisi, Prezident İlham Əliyev Azərbaycanın Yaxın Şərq istiqamətində xarici siyasətinə yeni prioritetlər gətirib. Dövlət başçısının Yaxın Şərq sülh sammitində iştirakı bunun əyani təzahürüdür. Ekspertlərin fikirlərinə görə, Prezident İlham Əliyevin Qəzza sammitində iştirakı ölkəmizin Qərb və Şərq arasında tarazlaşdırılmış mövqeyini, beynəlxalq aləmdə vasitəçi dövlət imicini daha da gücləndirir və əlamətdardır ki, İlham Əliyev burada sülh və ədalət anlayışlarını yalnız region deyil, bütün dünya üçün universal dəyərlər kimi təqdim edən lider obrazında çıxış edir.

Başqa maraqlı məqam isə ekspertlərin gəldikləri ümumi qənaətlə bağlıdır. Onların qənaətinə görə, Prezident İlham Əliyevin müxtəlif geosiyasi məkanlarda və fərqli siyasi sistemləri təmsil edən siyasi liderlərlə dialoq aparması, ortaq dil tapması diplomatik fəallıqla yanaşı, strateji çevikliyin və liderlik enerjisinin göstəricisidir.

Bizcə, vurğulanan fikirlər fonunda xarici siyasətin multivektorluq və multilaterallıq kontekstinin yeni çalarları aydın görünür. Məsələnin substantiv tərəfi üzərində geniş dayanmağa çalışaq.

## Təhlilin substantiv aspekti

Substantivlik məsələnin konkret məzmun tərəfi ilə həyata keçirilən siyasi kursun praktiki nəticələrini özündə ehtiva edir. Burada ilk qənaət ondan ibarətdir ki, Azərbaycan regional lider statusunu aşaraq regionlararası miqyasda yeni mövqeyə çıxıb. Bu mövqenin başlıca əlaməti ölkəmizin geosiyasətin subyekti olması ilə sıx bağlıdır. Belə ki, Azərbaycan postsovet məkanında buna nail olan ilk müstəqil dövlətdir (Rusiya buraya aid deyil, çünki o, artıq bir neçə yüz ildir ki, geosiyasətin subyektidir).

Onu da qeyd edək ki, ilk baxışdan Baltikyanı dövlətlərin də geosiyasi proseslərin subyekti olması təəssüratı yarana bilər. Lakin bu, baş vermədi. Əsas səbəb odur ki, həmin region dövlətləri avtoritar sistemdən (sovetlərdən) xilas olmaqla müstəqil mövcudluq müstəvisinə keçə bilmədilər - Avropa İttifaqı (Aİ) dərhal "əlini üzərlərinə" qoydu. Onlar indi Brüsselin rəva gördüyü qədər geosiyasətin subyektləridirlər.

Bundan başqa, Aİ ilə TDT arasında paralellər aparmaq olmaz. Çünki Aİ-nin qurulmasında Baltikyanı dövlətlər iştirak etməyiblər. Bu mənada onlar artıq "bölünmüş suverenliklərin masasına oturublar". Azərbaycan isə TDT-nin əsas qurucusudur. Onun ideya müəllifi və praktiki reallaşma konsepsiyasının banisidir. Azərbaycan TDT-nin lideri kimi təşkilatın geosiyasi proseslərdə yeri və rolunun müəyyən olunmasında həlledici rol oynayır. Bu nöqteyi-nəzərdən ölkəmiz, sözün həqiqi mənasında, regionlararası miqyasda geosiyasətin subyektidir. Azərbaycan Prezidenti bu məqsədinə bütövlükdə türk dünyası ilə ortaq mədəniyyət, vahid geosiyasi, iqtisadi, hərbi və ideya gücü olmaq xəttini qətiyyətlə inkişaf etdirməsi sayəsində çatıb!

Substantivlik kontekstində multivektorluqla multilaterallığın sintezi digər üç istiqamətdə də aydın ifadəsini tapıb. Onlar məzmunca Avropa ilə enerji sferasında əməkdaşlıqda, Şərqlə (xüsusən Çinlə) nəqliyyat və logistika aspektlərində qarşılıqlı faydalı əlaqələrin inkişafında və Yaxın Şərqdə nəqliyyat, enerji, logistika sferalarında əməkdaşlıqda əks olunub.

Hər bir istiqaməti birləşdirən mühüm geosiyasi faktor isə budur ki, Azərbaycan realpolitik paradiqması fonunda hər bir istiqamətdə enerji təhlükəsizliyi ilə milli təhlükəsizliyin mükəmməl sintezinə nail ola bilib.

Vurğuladığımız bütün özəlliklər substantiv və funksional aspektlərdə səkkiz istiqamətin vahid geosiyasi məntiq çərçivəsində təhlili üçün nəzəri baza yaradır.

Azərbaycanın yuxarıda vurğuladığımız səkkiz istiqamət üzrə fəaliyyəti çox ciddi geosiyasi nəticələr verməkdədir. Prezident İlham Əliyev çoxistiqamətli və çoxaspektli siyasət sayəsində Azərbaycanı müstəqil dövlət kimi, Cənubi Qafqazı region olaraq, türk dünyasını Türk Dövlətləri Təşkilatının timsalında yeni geosiyasi səviyyəyə yüksəldib. Bunun fonunda Avropa və bütövlükdə dünya miqyasında həm Azərbaycanın, həm də türk dünyasının yeni pozitiv obrazı formalaşmaqdadır.

## Səkkiz istiqamətin ideya müqayisəsi

Bu mövzuda yuxarıda qeyd olunan səkkiz istiqamətin ideya, məzmun və məqsədlərini motivə edən bir hadisəni mütləq vurğulamalıyıq. Çünki məhz həmin hadisə siyasi, geosiyasi, sülh və təhlükəsizlik anlamlarına məna verir. Bu isə o deməkdir ki, avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri tərəfindən Birgə Bəyannamənin imzalanması, Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması tarixi hadisədir. Və indi nəzərdən keçirdiyimiz geosiyasi məsələ kontekstində İlham Əliyev, Donald Tramp və Nikol Paşinyanın Vaşinqton müzakirələrinin əhəmiyyəti böyükdür.

Birincisi, həmin müzakirələr çərçivəsində paraflanan sazişin təməl şərtlərini Azərbaycan Prezidentinin təklif etdiyi beş əsas prinsip təşkil edir.

İkincisi, Azərbaycanla Ermənistan arasında mümkün sülh sazişinin fəlsəfəsi rəsmi Bakıya məxsusdur.

Üçüncüsü, məhz Azərbaycanın təklif etdiyi məzmun və ssenaridə Bakı-İrəvan münasibətlərinin normallaşmasının regional konteksti vardır.

Dördüncüsü, sülh sazişinin imzalanmasından sonra regional, regionlararası və qlobal miqyaslarda iqtisadiyyat, enerji, nəqliyyat, logistika, informasiya və təhlükəsizlik sahələrində əlaqələr Bakının strateji vizyonu ilə sıx bağlılıqda həyata keçiriləcək.

Bu dörd xüsusiyyət səkkiz istiqamətin ideya təməlinin tərkib hissələridir. Çünki onlar, əvvəla, dünya miqyasında anti-Azərbaycan mövqeyi tutanların arzusunu gözündə qoydu, ikincisi, Azərbaycan Prezidentinin liderlik nüfuzunu yeni səviyyəyə yüksəltdi, üçüncüsü, Azərbaycanın, regional, regionlararası və qlobal miqyaslarda geosiyasi aktorluğuna yeni məna çaları gətirdi. Bu aspekt üzərində bir qədər geniş dayanaq.

## "ŞƏT plyus" formatında görüş

Çinin Tiencin şəhərində Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) fəaliyyəti fonunda daha geniş coğrafiyada qarşılıqlı faydalı, sabit və səmərəli əməkdaşlıq perspektivlərinə nəzər salınıb. Bu formatda yeni məqam ŞƏT üzvü olmayan ölkələrin təşkilatın ümumi platforması çərçivəsində iştirak imkanlarının müzakirəsi ilə bağlıdır.

Azərbaycan Prezidenti tədbirdəki çıxışında yeni enerji növləri (məsələn, bərpaolunan enerji) və nəqliyyat-logistika əlaqələrinin inkişaf yolları ilə bağlı tezislər irəli sürüb. Orta dəhlizin Zəngəzur hissəsinin geosiyasi və geoiqtisadi əhəmiyyətini geniş izah edib. Prezident İlham Əliyevin vurğulanan tezisinin ciddiliyi və praktiki reallaşması üçün Bakının əhəmiyyətli rol oynaya biləcəyinə inam Azərbaycan Prezidentinin liderlik nüfuzu ilə birbaşa bağlıdır. Buna görə də hər kəs dövlət başçımızın bu təklifinə həssaslıqla yanaşır.

## BMT Baş Assambleyasının sessiyası

Nyu Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxışı zamanı İlham Əliyevin irəli sürdüyü tezislər XXI əsrdə uğurlu siyasi liderliyin triumfu idi. Çünki həmin tezislərin ümumi ideya ruhu dövlətin geosiyasi mövqeyinin strateji aspektinin dəqiq ifadəsindən ibarətdir. Həmin çıxışla İlham Əliyev, birincisi, uğurlu liderlik təcrübəsinin bir sıra məqamlarını nümayiş etdirdi, ikincisi, Azərbaycan Respublikasının müstəqil dövlət kimi həyata keçirdiyi strateji inkişaf kursunun perspektivinin anatomiyasını ortaya qoydu. Nəticədə, Azərbaycan dövlətinin və onun başçısının qlobal geosiyasi miqyasda yüksək statusunun mövcud olduğuna BMT-də tam əminlik yarandı. Bu, müstəqil bir dövlətin regional liderlikdən qlobal geosiyasi oyunçuya yüksəlmək istiqamətində konkret müsbət təcrübənin özünütəsdiqi kimi də qəbul edilə bilər.

## "Avropa Siyasi Birliyi"nin sammiti

Nyu Yorkda dünyanın ən ali kürsüsündən - BMT tribunasından çıxışından sonra Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci sammitində Azərbaycan Prezidentinə yüksək marağın olması tamamilə təbii və gözlənilən idi. Orada Avropanın enerji təhlükəsizliyi, sabit inkişafı və geosiyasi miqyasda oynaya biləcəyi rol ilə bağlı Prezident İlham Əliyevin müxtəlif görüşlərdə səsləndirdiyi fikirlərə verilən qiymət və göstərilən diqqət bu qənaəti təsdiqləyir. Mövzu baxımından Kopenhagen Sammiti Azərbaycanın Avropa qitəsi üçün aktual olan məsələlərin müzakirəsində xüsusi yeri olduğunu nümayiş etdirdi. Bu aspektdə əgər Nyu York Azərbaycanın dövlət identikliyinin beynəlxalq miqyasda tam qəbulunun göstəricisi idisə, Kopenhagen tədbiri Azərbaycanın Avropa üçün strateji əhəmiyyətini nümayiş etdirdi. Bu cür miqyas və məkan dəyişikliyinin politoloji dərki çox vacibdir. Həmin kontekstdə Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələdə keçirilən 12-ci zirvə görüşünün xüsusi əhəmiyyəti vardır.

## Qəbələ Zirvəsi

Dövlət başçılarının Qəbələ görüşündə İlham Əliyevin ifadə etdiyi fikirlər və irəli sürdüyü təkliflər türk dünyası üçün son dərəcə aktual və əhəmiyyətli idi. Azərbaycan Prezidenti TDT-nin daha da gücləndirilməsi, hədəflədiyi məqsədlərə çatması istiqamətində tezislər söylədi. Bu tezislər türk dünyasının inteqrasiyasının mühüm mərhələsini ifadə edir. Və TDT üzvlərinin təhlükəsizlik sferasında ortaq fəaliyyətinin təməlini əks etdirir. TDT bir təşkilat kimi bu istiqamətdə sistemli, ardıcıl və ölçülü-biçili addımlar atır. Onun ana yolunu Prezident İlham Əliyev Qəbələ Zirvəsində göstərdi!

## Düşənbə görüşü

Buradan Prezidentin Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasındakı iştirakına keçidin ciddi məntiqi əsası var. Çünki həmin tədbirdə İlham Əliyev dünyanın ən güclü dövlətlərindən olan, şimal qonşumuz Rusiya ilə prinsipial geosiyasi əhəmiyyət kəsb edən məsələnin həllinə nail oldu. Fəaliyyət miqyası baxımından isə Nyu York-Kopenhagen-Qəbələ miqyaslarında irəli sürülən müddəaların davamı olaraq Düşənbə vacib incəliyi ifadə edir. Onun strateji mənası Azərbaycan Prezidentinin V.Putinlə görüşə güclü arqumentlərlə getməsindən ibarətdir.

Türk dünyası, Avropa və dünya səviyyəsində İlham Əliyevin çox uğurlu liderlik təcrübəsi aydın göstərdi ki, onunla bəhanələrlə danışmağın perspektivi yoxdur. Çox yaxşıdır ki, Rusiya Prezidenti bunu ciddi nəzərə alaraq iki qonşu ölkə arasında münasibətlərin "İlham Əliyev ssenarisi" üzrə inkişafının lazımlığını qəbul etdi!

## Yaxın Şərq sülh sammiti

Bu hadisədən cəmi üç gün sonra İlham Əliyevin Azərbaycanın xarici siyasəti üçün strateji əhəmiyyət daşıyan, lakin çox mürəkkəb situasiya ilə qarşılaşmış Yaxın Şərqə səfərinin tarixi mənası vardı. Azərbaycan Prezidenti ABŞ Prezidenti Donald Trampın və Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin dəvəti ilə Yaxın Şərq sülh sammitində iştirak etdi. Dünyanın çox məhdud sayda dövlət başçılarının dəvət olunduğu həmin sammitdə ABŞ Prezidenti daxil olmaqla bir çox dövlət başçısının İlham Əliyevə xüsusi sayğı göstərməsi tarixi olaydır. Azərbaycan həmin tədbirdən Qəzzada təhlükəsizliyin təminatçısı olan dövlətlərdən biri kimi ayrıldı. Bu fakt dünya miqyasında Azərbaycanın geosiyasi statusunun növbəti yüksəlişi idi.

## İtaliya və Qazaxıstan

Nəhayət, İtaliya Prezidentinin Azərbaycana, dövlət başçısı İlham Əliyevin isə Qazaxıstana səfəri vurğulanan altı istiqamətin fonunda son dərəcə gərəkli siyasi addımdır. Onları yeddinci və səkkizinci istiqamətlər kimi qəbul etmək olar.

İtaliyanın dövlət başçısı ilə müzakirələr Azərbaycan-Avropa əlaqələrinin perspektivini bir daha ortaya qoydu. Xüsusilə Avropanın Azərbaycanla tərəfdaşlıqda marağının yüksək olduğunu sübut etdi. Prezident İlham Əliyevin Qazaxıstana səfəri isə rəsmi Bakının geniş geosiyasi məkanda birləşdirici rolunu bir faktla təsdiqlədi: İlham Əliyev Ermənistana taxılın Azərbaycan ərazisindən keçməklə çatdırılmasına yaşıl işıq yandırdı. Bütün dünya bunu çox yüksək qiymətləndirdi. Diplomatik gediş kimi isə çox məharətli və zamanında atılmış addım olaraq xarakterizə etdilər.

Vurğuladığımız mövzu müxtəlifliyi prizmasından yekun geosiyasi qənaət əldə edə bilərik.

## Ümumi geosiyasi qənaət

Azərbaycan Prezidentinin yuxarıda vurğulanan səkkiz istiqamətdə fəaliyyəti ölkənin xarici siyasət kursunun multivektorluq və multilaterallıq prinsiplərinin növbəti təntənəsidir. İlham Əliyev bütün istiqamətlərdə həm uğurlu liderlik aspektində, həm də Azərbaycanın regional, regionlararası və qlobal miqyaslarda dövlət statusunda geosiyasi rolunun yüksəlməsi kontekstində mühüm uğurlara imza atıb.

Azərbaycan regional lider kimi TDT-də rolunu və yerini daha da möhkəmləndirib. Avropa miqyasında qitənin davamlı inkişafı və təhlükəsizliyi üçün çox vacib dövlət olduğunu sübuta yetirib. Qlobal səviyyədə isə etibarlı tərəfdaş, sülhsevər dövlət və inkişaf paradiqmasına malik ölkə olaraq özünü bir daha təsdiqləyib. Bununla Azərbaycan, faktiki olaraq, yeni növ "orta güc" obrazının formalaşdırılması istiqamətində mühüm bir mərhələyə qədəm qoyub.

***Kamal ADIGÖZƏLOV,***
***siyasi analitik***

## *Viktor KİPİANİ:* "Orta dəhliz regional logistikanın fundamental komponentinə çevriləcək"

**Tammiqyaslı reallaşdırılacağı təqdirdə Orta dəhliz bütün nəqliyyat axınlarını kifayət qədər ötürücülük qabiliyyəti ilə qəbul edə biləcək. Layihənin tam həcmdə tətbiqi onun regional logistikanın fundamental komponentinə çevrilməsinə imkan verəcək.**



Bu barədə gürcü eksperti və "Geocase" analitik mərkəzinin rəhbəri Viktor Kipiani AZƏRTAC-ın "Azərbaycan və dünya" proqramının ilk buraxılışında Zəngəzur dəhlizinin Gürcüstan tranzit marşrutunu tamamlamaq potensialını qiymətləndirərkən bildirib.

Buraxılış qlobal proseslərin Azərbaycana təsiri, Cənubi Qafqazdakı əsas geosiyasi və iqtisadi tendensiyalar, o cümlədən nəqliyyat və logistika marşrutları, ABŞ və Çinin regiondakı rolu, Azərbaycan-Gürcüstan əməkdaşlığının perspektivləri kimi mövzulara həsr olunub.

Gürcüstanda alternativ marşrutların inkişaf etdirilməsinin ölkənin rəqabət qabiliyyətinə təsiri ilə bağlı müzakirələrin aparıldığını təsdiqləyən ekspert qeyd edib ki, belə bir yanaşmaya təhlükə deyil, stimul kimi baxılmalıdır. "Bu, bizim üçün bir növ ev tapşırığıdır, yəni Gürcüstanı öz rəqabət qabiliyyətini artırmağa sövq edən əlavə bir təkandır. Bu çağırış zəiflətmək deyil, əksinə, potensialımızı və kapitalımızı gücləndirmək iqtidarındadır", - deyə o bildirib.

V.Kipianinin sözlərinə görə, Gürcüstanın əhəmiyyəti təkcə coğrafi mövqeyi ilə deyil, həm də Qara dənizə açılan qapı qismində rolu ilə müəyyən edilir. Müsahibimiz aparıcı Tamilla Məmmədova ilə söhbətində vurğulayıb: "Sahilyanı ərazimiz Gürcüstana xüsusi mövqe qazandıran strateji bir resursdur".

O əlavə edib ki, yeni marşrutlara rəqabət və ya qısqanclıq mövqeyindən baxmamaq lazımdır. "Əksinə, biz onları bütün regionun tranzit potensialını gücləndirən ümumi müsbət dinamika kimi görməliyik. Bu medalın müsbət tərəfi açıq-aşkar göz qabağındadır. Qeyd etdiyim üç aspekt də bunun birbaşa təsdiqidir", - deyə Gürcüstan analitik mərkəzinin rəhbəri sözlərini yekunlaşdırıb.

## *Xalid Teymur AKRAM:* "Zəngəzur dəhlizi Pakistanı və Mərkəzi Asiyanı Avropa ilə yaxınlaşdıracaq"

**"Zəngəzur dəhlizi Çin-Pakistan iqtisadi dəhlizinin məqsədlərinə tam şəkildə uyğundur. Bu layihə Pakistan və Mərkəzi Asiya ölkələri üçün Avropa və Türkiyə bazarlarına çıxış baxımından daha qısa və təhlükəsiz quru marşrut yaradacaq. Qvadar limanı ilə Xəzər dənizi arasında mövcud olan əlaqə sayəsində Pakistan öz mallarını quru yolla İran və ya Mərkəzi Asiya üzərindən Azərbaycan vasitəsilə Türkiyəyə, oradan isə Avropaya göndərə biləcək. Bu, daşınma vaxtını və nəqliyyat xərclərini azaldacaq, eyni zamanda Pakistanın dost ölkələrlə ticarət və siyasi əlaqələrini möhkəmləndirəcək".**



Bu fikirləri AZƏRTAC-a "Ortaq Gələcək İcması üçün Pakistan Tədqiqat Mərkəzi"nin icraçı direktoru Xalid Teymur Akram bildirib. O, Zəngəzur dəhlizinin Pakistan və Mərkəzi Asiya üçün Qərb bazarlarına alternativ çıxış baxımından gətirə biləcəyi üstünlükləri şərh edib.

Onun sözlərinə görə, Zəngəzur dəhlizi Avrasiya regionunda ən maraqlı və mühüm layihələrdən biridir. Ekspert hesab edir ki, bu marşrut təkcə Azərbaycan üçün deyil, həm Pakistan, həm də Mərkəzi Asiya ölkələri üçün əsl irəliləyiş olacaq.

"Bu dəhliz təkcə ölkələri birləşdirməyəcək, həm də bütün region üzrə ticarət, inkişaf və əməkdaşlıq üçün yeni imkanlar açacaq. O, Azərbaycanın Şərqlə Qərb arasında əsas körpü kimi əhəmiyyətini xeyli artıracaq. Azərbaycanı birbaşa Naxçıvanla, daha sonra isə Türkiyə ilə birləşdirərək Xəzər dənizindən Aralıq dənizinədək fasiləsiz quru marşrut yaradacaq", - deyə Xalid Teymur Akram vurğulayıb.

Bununla bağlı ekspert diqqətə çatdırıb ki, Zəngəzur dəhlizi Çin və Mərkəzi Asiyanı Avropa ilə birləşdirən Orta dəhlizin mərkəzi hissəsinə çevriləcək: "Beləliklə, Azərbaycan mühüm ticarət və nəqliyyat qovşağına çevriləcək. Bu, ölkəyə daha çox investisiyanın cəlb edilməsinə və iqtisadiyyatın yalnız neft və qaz sahəsindən asılı olmadan inkişafına kömək edəcək. Bu layihə Prezident İlham Əliyevin güclü iradəsini və liderliyini parlaq şəkildə nümayiş etdirir. O, Azərbaycanın regional nəqliyyat əlçatanlığı sahəsində liderə çevrilməsi üçün böyük səylər göstərib".

Mərkəzi Asiya respublikaları üçün Zəngəzur dəhlizinin dünya bazarlarına çıxışı baxımından yeni və müstəqil marşrut yaradacağını qeyd edən Xalid Teymur Akram əlavə edib ki, bu dəhliz həm də mövcud nəqliyyat yollarından asılılığı azaldacaq.

"Nəticədə onların iqtisadi təhlükəsizliyi güclənəcək, Azərbaycan, Türkiyə və Pakistanla əməkdaşlıq üçün yeni imkanlar açılacaq", - deyə o vurğulayıb.

Analitikin fikrincə, Zəngəzur dəhlizi geniş perspektivlərə malik ümidverici layihədir.

"O, Azərbaycanı əsas regional körpüyə çevirəcək, Pakistan və Mərkəzi Asiyanı Avropaya yaxınlaşdıracaq və ticarət və əlaqələr vasitəsilə sülhə və rifaha töhfə verəcək. Bu layihə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində regional əməkdaşlığın nümunəsi kimi yüksək qiymətə layiqdir", - deyə ekspert yekunlaşdırıb.

# Örnək mənəvi portret

**Noyabrın 4-də Azərbaycan elmi və ədəbi mühitinin görkəmli nümayəndələrindən biri - filologiya elmləri doktoru, professor, şair Mahirə Nağıqızının yubiley yaşı tamam olur. Bu yubiley təkcə bir mərhələnin tamamlanması deyil, həm də bədii sözə, elmə, Vətənə və mənəviyyata həsr edilmiş bir ömrün təntənəsidir.**

Onun həyatı və yaradıcılığı, Azərbaycan qadınının zəkasının, elmə sədaqətinin, mənəvi bütövlüyünün və poeziya ilə nəfəs alan ruhunun canlı təcəssümüdür. Mahirə Nağıqızının elmi-pedaqoji fəaliyyəti və poetik yaradıcılığı uzun illərdir ki, milli ədəbiyyatşünaslığın, təhsil sisteminin və ədəbi mühitin ayrılmaz parçasına çevrilib. O, həm auditoriyada gənc nəslə bilik və dəyərlər aşılayan müəllim, həm elmi mühitdə yorulmaz tədqiqatçı, həm də bədii söz dünyasında öz dəst-xəti ilə seçilən bir şairdir. Bu yubiley yalnız onun yaşının deyil, həm də yaradıcılığının kamillik dövrünün, sözə və insana xidmətlə dolu bir həyatın zirvəsinin bayramıdır.

Mahirə Nağıqızının adı çəkiləndə, ilk növbədə, sözə sadiqlik, elmə bağlılıq və insanlığa hörmət kimi anlayışlar göz önünə gəlir.

O, Azərbaycanın qadın ziyalısının müasir dövrdəki ən parlaq simalarından biri olmaqla həm alim, həm şair, həm ana, həm də mənəvi sütunlardan sayılan şəxsiyyətdir.

Onun həyatı və yaradıcılığı düşüncə, səmimiyyət, halallıq məktəbidir. Burada söz insanı tərbiyə edir, əməl fikrə çevrilir, zəkayla qəlbin, elmlə mənəviyyatın sərhədləri birləşir.

Mahirə Nağıqızının ömrü göstərir ki, əsl ziyalılıq yalnız biliklə deyil, həm də vicdanla yaşamaq sənətidir; insanın dəyəri söylədiyi fikirlə yanaşı, həm də yaşadığı və yaşatdığı mənəviyyatla ölçülür.

Mahirə Nağıqızının poeziyası sadəcə estetik gözəllik daşıyıcısı deyil, - o, mənəvi və milli yaddaşın poetik salnaməsidir. Onun şeirlərində Vətən sevgisi, ana məhəbbəti, insan ağrısı və qadın duyğusu bir ahəngdə səslənir. O, poeziyada qadın zərifliyini ruhi dərinliklə birləşdirir, sözü duyğuların deyil, vicdanın səsi kimi təqdim edir. Mahirə xanımın yazdıqları sanki bir ruhun gündəliyidir - hər misrasında düşüncə, hiss və insanlıq dərsi var.

Mahirə Nağıqızı uzun illərdir ki, Azərbaycan Dövlət Pedaqoji Universitetində dərs deyir. O, auditoriyaya daxil olanda sadəcə bir müəllim kimi yox, həyat bələdçisi, mənəviyyat daşıyıcısı, ana kimi daxil olur. Onun dərs dediyi tələbələrin böyük əksəriyyəti gənc qızlardır və bu qızlar üçün Mahirə xanım təkcə akademik bilik mənbəyi deyil, həm də qadın ləyaqətinin, elmə sədaqətin, şəfqətin və müəllimliyin örnəyidir. Mahirə xanımın dərs dediyi gənclər, xüsusilə qız tələbələr, onun timsalında həm qadın ləyaqətinin, həm də ziyalı sadəliyinin nümunəsini görürlər.

Bu mənada o, yalnız müəllim deyil, həm də mənəvi bələdçi funksiyasını yerinə yetirir.

Onun dərslərində elm quru terminlərdən ibarət deyil, orada həyatın öz nəfəsi, poeziyanın duyğusu, insanın düşüncəsi var.

Mahirə Nağıqızı auditoriyada insana işıq olmaq missiyasını daşıyır. O, tələbələrinə yazmağı, oxumağı, düşünməyi və yaşamağı, dəyərləri qorumağı, qadın və ana olmağın mənəvi məsuliyyətini aşılayır.

Auditoriyaya təhsil və tərbiyə, mərhəmət və sevgi bəxş edir.

Mahirə Nağıqızının yaradıcılığı elmlə sənətin vəhdətidir. O, düşüncələrini yalnız tədqiqat əsərlərində deyil, poeziyanın ahəngində, bədii sözün cazibəsində ifadə edir. Onun elmi təfəkkürü ilə poetik duyumu bir-birini tamamlayır, biri digərinə dayaq olur.

Professorun həm elmi, həm də bədii yaradıcılığı bir-birindən ayrı deyil, əksinə, bu iki istiqamət onun şəxsiyyətində və düşüncə tərzində ahəngdar şəkildə birləşir. Onun elmə yanaşması da, poeziyada yaratdığı mənzərə də eyni ruhdan - dərin düşüncədən və səmimi hissdən doğur. O, sözü yalnız ifadə vasitəsi kimi yox, həm də düşüncənin, mənəviyyatın daşıyıcısı kimi qəbul edir, elmi fikrini duyğu ilə, poetik ruhunu isə ağıl və zəkayla tamamlayır.

Hər çıxışında, müzakirəsində, elmi və yaradıcılıq görüşlərində Mahirə xanımın səmimiyyəti, təvazökarlığı, insanlara olan doğmalığı dərhal hiss olunur. Fikirlərini oxucuları ilə təmkinlə, içdən gələn dürüstlük və sadəliklə bölüşür. Şəxsiyyətində alimin zəkası, şairin ruhu və insanın saflığı bir-birinə qarışaraq bütöv bir mənəvi obraz yaradır.

Mahirə xanım eyni zamanda milli və ailə dəyərlərinə sadiq bir ziyalıdır. O, təkcə öz övladları üçün deyil, onu tanıyan hər bir tələbə, dost və oxucu üçün də bir mənəvi dayaq, ana simvoludur. Ana obrazı təkcə bioloji anlam daşımır - bu obraz maarif, mədəniyyət və mənəviyyatla yoğrulmuş bir mənəvi liderin təcəssümüdür. Belə bir ana cəmiyyətə yalnız öz ailəsində deyil, bütövlükdə millət üçün dəyərli, vətənpərvər və əxlaqlı nəsil bəxş edə bilər. Məhz bu cür ziyalı qadınların tərbiyəsindən keçən gənclər Vətənə layiq övladlara çevrilirlər.

Mahirə xanımın poeziya yaradıcılığında ana obrazı ən ülvi mövzulardan biridir. O, ananı dünyanın mərkəzinə çevirir - həm həyat verən, həm qoruyan, həm də dua edən varlıq kimi. Onun poetik dünyasında analar qocalmır, çünki analar övladın, torpağın, xalqın yaddaşında əbədiləşirlər.

O, analıq duyğusunu yalnız təsvir etmir, yaşadır. Onun yazdıqlarında hər ana həm real, həm də mənəvi obrazdır - bir tərəfdə fədakarlığın, digər tərəfdə ləyaqətin simvoludur. Bu obrazlarda həm mərhəmət, həm ağrı, həm də müqəddəslik birləşir.

Mahirə xanımın öz həyatında da bu dəyərlər aydın görünür. O, ailəsində halallıq, zəhmət, dürüstlük və mənəvi təmizliklə böyüyüb. Onun şəxsiyyətində bir sadəlik, bir təmkin, bir vicdan aurası var. O, dediyi kimi yaşayan, yaşadığı kimi yazan ziyalıdır.

Mahirə Nağıqızının yaradıcılığı Azərbaycan poeziyasının milli yaddaşla bağlı ən önəmli mərhələlərindən birini təmsil edir. Onun poeziyasında Vətən bir məkan deyil, bir hissdir - xalqın ruhunda yaşayan əbədi bir dəyərdir.

Onun şeirlərində vətənpərvərlik nə pafosdur, nə də şüar - bu, bir ruh halıdır. O, Vətəni sevgi kimi hiss edir, onu şeirlərində bir ana, bir ocaq, bir dua kimi təqdim edir. O, şəhidlərin xatirəsini yaşadır, xalqın ağrısını sözlə daşıyır, qələbəni poeziyanın ucalığında əbədiləşdirir.



Şair Mahirə Nağıqızının poetik dili qələbə sevincini də, şəhid analarının göz yaşını da eyni səmimiyyətlə ifadə edir. O, ağrını gözəlliyə, kədəri şeirə, ümidsizliyi isə inama çevirən sənətkardır.

Mahirə Nağıqızı yaradıcılığında elm, söz və mənəviyyat bir-birini tamamlayır. O, sözü sadiq dost, insanı müqəddəs dəyər, həyatın özünü isə ədəbiyyat sayır.

O, həm yazdıqları, həm dedikləri, həm də yaşadıqları ilə Azərbaycan qadınının müdrik, vicdanlı, savadlı, duyğulu, amma eyni zamanda qətiyyətli, müasir obrazını yaradır.

Mahirə Nağıqızı alim, şair, ziyalı kimi bütöv bir şəxsiyyətdir. O, sözlə yaşayıb, sözlə nəfəs alır.

Şairin bədii yaradıcılığını özündə ehtiva edən onlarla kitabında insanın mənəvi aləmi, ana məhəbbəti, vətənpərvərlik duyğuları, milli-mənəvi dəyərlərə sədaqət və insani təmizliyin poetik ifadəsi xüsusi yer tutur. Onun şeirlərində qadın incəliyi ilə vətəndaş mövqeyi, duyğu dərinliyi ilə düşüncə aydınlığı vəhdət təşkil edir. Mahirə Nağıqızının poetik dili səmimiyyəti, bədii təsvir vasitələrinin təbiiliyi və fikrin emosional dolğunluğu ilə seçilir.

Mahirə Nağıqızı zəkası ilə aydın, duyğusu ilə dərin, sözü ilə ülvi, ruhu ilə saf Azərbaycan qadınının mənəvi portretidir. Onun yaradıcılığı milli poeziyamızın yeni nəfəsidir, onun şəxsiyyəti halallığın, sədaqətin və elm nurunun birgə təcəssümüdür.

Professor Mahirə Nağıqızı həm də Azərbaycan filologiyasının inkişafında mühüm rolu olan, çoxşaxəli elmi yaradıcılığı ilə seçilən görkəmli alimlərdəndir. O, məhsuldar elmi fəaliyyətlə məşğul olur, 30-a yaxın kitab və monoqrafiyanın, həmçinin onlarla dərs vəsaiti və metodik proqramın müəllifidir. Tədqiqatlarında dilçilik, ədəbiyyatşünaslıq, türkologiya, folklorşünaslıq və publisistika kimi sahələr geniş yer tutur.

Alim Azərbaycan folklorunun, xüsusilə Dərələyəz mahalının aşıq ədəbiyyatının dilçilik baxımından öyrənilməsinə mühüm töhfələr verib. Onun "Qərbi Azərbaycanın Dərələyəz mahalının aşıq və el şairlərinin yaradıcılığında onomastik vahidlər" adlı monoqrafiyası bu istiqamətdə aparılmış ilk fundamental tədqiqatlardan biridir.

Onun araşdırmalarında milli poeziyada obrazların mifoloji, estetik və ideya-məzmun dərinliyi elmi əsaslarla təhlil olunub.

Son illər professor türkologiya sahəsində apardığı tədqiqatlarla da diqqət çəkir. "Azərbaycan dilçiliyində türk dillərinin dialekt və şivələrinin müqayisəli aspektdə tədqiqi məsələləri", "Türk dilləri dialekt və şivələrinin qarşılıqlı inteqrasiyası" və "M.Kaşğarinin "Divani-lüğət-it-türk" əsərinin qrammatik xüsusiyyətləri" adlı monoqrafiyaları onun ümumtürk dilçilik düşüncəsinə verdiyi elmi töhfələrin bariz nümunəsidir.

Bundan başqa, "Sözün və əməlin yaratdığı tarix" adlı elmi-publisistik toplusu Mahirə Nağıqızının vətəndaş alim mövqeyini və ictimai-siyasi hadisələrə münasibətini əks etdirir.

Ümumilikdə, professor Mahirə Nağıqızı elmi və bədii yaradıcılığı ilə Azərbaycan dilçiliyinin, ədəbiyyatşünaslığının və türkologiyanın inkişafında mühüm xidmətlər göstərmiş, ömrünü milli filologiyanın inkişafına həsr etmiş fədakar alimdir. O, bu gün də elmin, təhsilin və milli mədəniyyətin inkişafına töhfə verməyə davam edən müdrik və məhsuldar ziyalı kimi tanınır.

Mahirə Nağıqızının ömür salnaməsi bir insanın fərdi həyat yolu olmaqdan daha çox, Azərbaycan ziyalılığının mənəvi tarixidir. O, elmin məsuliyyətini sözün estetik gücü ilə birləşdirərək düşüncə və duyğunun, ağıl və hissin nadir harmoniyasını yaradıb. Onun fəaliyyəti göstərir ki, elm yalnız faktların toplusu deyil, həm də insanın ruhuna, dəyərlərinə işıq saçan mənəvi bir missiyadır. Mahirə xanım bu missiyanı öz zəkası, əməli və şəxsiyyəti ilə yaşadan alimlər nəslinə mənsubdur.

O, elmi mühitdə dərin analitik baxışı ilə seçilən alim, ədəbi aləmdə isə poetik səmimiyyəti ilə fərqlənən şairdir. Mahirə Nağıqızı elmin sərhədlərini poeziyanın duyğusu ilə, poeziyanın həssaslığını isə elmin intizamı ilə tamamlayaraq müasir Azərbaycan qadınının dolğun mənəvi modelini yaradır.

Mahirə Nağıqızının elmə, ədəbiyyata və insana yönələn baxışı bütöv, davamlı bir dəyərlər sistemidir.

***Hüseynbala MİRƏLƏMOV,***
***texnika elmləri doktoru,***
***professor***

# Bakı qlobal urban dialoqunun mərkəzinə çevrilir

**Gələn il Bakı qlobal miqyasda ən mühüm urban forumlarından birinə - Ümumdünya Şəhər Forumuna (World Urban Forum - WUF) evsahibliyi etməklə, urbanizasiya, iqlim və dayanıqlı inkişaf sahəsində beynəlxalq dialoqun mərkəzinə çevriləcək.**




XXI əsr şəhərlərin əsridir. Hazırda dünya əhalisinin təxminən 56 faizindən çoxu şəhərlərdə yaşayır. BMT-nin 2023-cü il "World Urbanization Prospects" hesabatında bu göstəricinin 2050-ci ilə qədər 68,4 faizə çatacağı qeyd olunur. Belə bir şəraitdə şəhərsalma, dayanıqlı inkişaf, ekoloji tarazlıq və sosial bərabərlik məsələləri beynəlxalq gündəmin mərkəzinə çevrilib. Bu baxımdan, BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təşkil olunan Ümumdünya Şəhər Forumu dünya miqyasında şəhər inkişafı üzrə ən nüfuzlu platformalardan biridir.

Azərbaycan üçün WUF-un əhəmiyyəti sadəcə beynəlxalq tədbirdə iştirakla məhdudlaşmır. Bu forum ölkəmizin şəhərsalma strategiyasını, postmünaqişə dövründə yenidənqurma modelini və innovativ yanaşmalarını dünya ictimaiyyətinə təqdim etmək imkanı yaradır.

Prezident İlham Əliyevin Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumunun iştirakçılarına müraciətində vurğuladığı kimi, Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma prioritet istiqamətlərdən birini təşkil edir. Ölkədə bu sahədə qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial rifahın artırılmasına və iqlim dəyişmələrinə uyğunlaşmaya mühüm töhfə verir. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın şəhərsalma sahəsində strateji baxışını və icra imkanlarını nümayiş etdirir.

Şəhərsalma, davamlılıq və inklüziv inkişaf sahəsində beynəlxalq səviyyəli diskussiyaların və praktiki əməkdaşlıq platformasının əsas meydanlarından olan WUF13-ün Bakıda keçirilməsi Azərbaycan üçün strateji əhəmiyyət daşıyan hadisədir. Bu forumun ölkəmizə gətirəcəyi siyasi, iqtisadi, sosial və ekoloji faydalar kompleks şəkildə müzakirə edilməlidir.

## Beynəlxalq etimadın təsdiqi və regional liderlik

Azərbaycanın WUF13-ə evsahibliyi etmək hüququ qazanması ölkəmizin beynəlxalq miqyasda artan etimadının və regional liderliyinin göstəricisidir. BMT-nin qərarı ilə bu mötəbər tədbirin Bakı şəhərində keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf, şəhərsalma və bərpa sahəsində əldə etdiyi uğurların qlobal miqyasda tanınmasının bariz nümunəsidir.

WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq imicinin möhkəmlənməsi və diplomatik əlaqələrinin genişlənməsi baxımından da strateji əhəmiyyət daşıyır. Bu, Azərbaycanın regional əməkdaşlıq mərkəzi kimi rolunu gücləndirir, şəhərsalma diplomatiyasını iqtisadi və ekoloji diplomatiya ilə inteqrasiya edən nadir modellərdən birini formalaşdırır.

Onu da qeyd edək ki, Bakı şəhərinin ev sahibi kimi seçilməsi Azərbaycanın son illərdə şəhərsalma, infrastruktur və bərpa sahəsində atdığı addımların nəticəsidir. Bu fakt, həmçinin Bakının qlobal dialoq mərkəzi imicinin daha da güclənməsinə xidmət edir.

Bakıda keçiriləcək tədbirə 140-dan çox ölkədən nümayəndənin qatılacağı proqnozlaşdırılır. Forum çərçivəsində 40-dan çox beynəlxalq panel, 100-ə yaxın paralel sessiya və şəhər innovasiyaları sərgiləri nəzərdə tutulur.

WUF13 Azərbaycanın "urban inkişafda aktiv tərəfdaş" kimi çıxış etməsi, çoxsaylı beynəlxalq təşkilatlar, dövlətlər və şəhərsalma sahəsinin aparıcı qurumları ilə birbaşa əlaqələr qurması üçün unikal platformadır. Əsas mövzusu "Hər kəs üçün yaşayış yerləri: Təhlükəsiz, dayanıqlı şəhərlər və yaşayış məskənləri" olan forum Azərbaycanın "şəhər-insan-davamlılıq" üçlüyündə əldə etdiyi təcrübəni bölüşmək üçün əla fürsət yaradır.

## Regional liderlik və yeni əməkdaşlıq sferası

Azərbaycan üçün WUF13 yalnız ölkə daxilində deyil, regionda da mühüm rol oynayır. Forum çərçivəsində 64 ölkədən 400-dən çox ekspertin iştirak etdiyi Üçüncü Azərbaycan Milli Şəhərsalma Forumu artıq uğurla keçirilib. WUF13-ün Bakıda təşkili qərarı qonşu ölkələrdə və beynəlxalq mediada da rezonans doğurub. Türkiyə və Gürcüstan mətbuatı bu hadisəni urban diplomatiyasının mərkəzinin Cənubi Qafqazda formalaşması kimi dəyərləndirib. Bu təcrübə Azərbaycanı urban inkişafı sahəsində regionda "dialoq mərkəzi" kimi mövqeləndirir.

Forum vasitəsilə Azərbaycan:

- Cənubi Qafqazda dayanıqlı inkişaf və enerji keçidi prosesinə liderlik edən ölkə statusunu möhkəmləndirir;
- Türkiyə, Gürcüstan və Mərkəzi Asiya ölkələri ilə "yaşıl infrastruktur dəhlizi" üzrə strateji inteqrasiya platforması yaradır;
- Ermənistanla normallaşma və regional kommunikasiyaların bərpası fonunda, "urban diplomatiya" vasitəsilə sülh narrativini iqtisadi və sosial əməkdaşlığa çevirir.

BMT-nin UN-Habitat strukturu və Dünya Bankının hesablamalarına görə, Cənubi Qafqazda urban bərpa layihələrinin dəyəri 2030-cu ilə qədər 40 milyard dollara çata bilər. Bu kontekstdə WUF13-ün Bakıda keçirilməsi regionun bu bazarda əsas söz sahibinin məhz Azərbaycan olacağını göstərir. Bir sözlə, WUF13 sadəcə bir forum deyil, Qafqazda postmünaqişə dövründə urban mədəniyyətinin yenidən formalaşması prosesinin başlanğıcıdır.

Eyni zamanda forum yerli bələdiyyələr, icmalar, özəl sektor və QHT-lər üçün dünyəvi urbanizm təcrübələri ilə tanışlıq və region səviyyəsində təqdimat imkanları təmin edir. Bu, Cənubi Qafqazda daha vahid, əlaqələndirilmiş şəhərsalma strategiyalarının formalaşmasına stimul verəcək və Azərbaycanın regional liderlik mövqeyini gücləndirəcək.

Azərbaycan Cənubi Qafqazda bərpa, inkişaf və sülh modeli təşviq edən ölkə kimi, WUF vasitəsilə bu missiyasını qlobal auditoriyaya çatdırır. Forumun Bakıda təşkili yalnız beynəlxalq tədbir deyil, həm də şəhərsalma vasitəsilə sülh quruculuğu ideyasının təbliğidir və BMT-nin "Sülh və rifah üçün davamlı şəhərsalma" prinsipləri ilə tam uyğundur.

Postmünaqişə dövründə şəhərsalma, eyni zamanda ictimai yaddaşın bərpası və sosial etimadın formalaşması vasitəsidir. Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən layihələr bu mənada "sülh üçün şəhərsalma"nın konkret təzahürüdür - burada infrastrukturla yanaşı, birgəyaşayış, inklüziv icmalar və sosial barış konsepsiyaları paralel şəkildə inkişaf etdirilir. WUF bu layihələrin beynəlxalq səviyyədə elmi və sosial legitimliyini artırmaq, Azərbaycanın urbanistik və postmünaqişə inkişaf modelini dünyaya nümayiş etdirmək üçün nadir fürsət yaradır.

Vurğulamaq yerinə düşər ki, Böyük qayıdış proqramı çərçivəsində yenidən qurulan torpaqlarımızda müasir texnologiyalar əsasında "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələri istifadə edilir ki, bu da ölkəmizə səfər edən xarici qonaqların diqqətini cəlb edir.

## Forumun iqtisadi və ekoloji təsirləri

WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın iqtisadi və infrastruktur inkişafı üçün yeni imkanlar açır:

- Tədbirə 20 mindən çox iştirakçının qatılması gözlənilir ki, bu da hotel, nəqliyyat, logistika, qonaqpərvərlik və konfrans xidmətləri sektorlarında ciddi hərəkətlilik yaradacaq.
- Forumun hazırlıq mərhələsində şəhər infrastrukturu yenilənəcək, ictimai məkanlar və logistika sistemləri beynəlxalq standartlara uyğunlaşdırılacaq. Bu proses həm yerli bizneslər üçün əlavə gəlir mənbəyi yaradacaq, həm də xidmət sektorunda yeni iş yerlərinin açılmasına təkan verəcək. Belə ki, təxminən 15 mindən çox yerli əməkdaşın hotel, iaşə, nəqliyyat, media, texniki xidmət və təhlükəsizlik sahələrində məşğulluğu təmin ediləcək.
- Forum çərçivəsində şəhərsalma üzrə beynəlxalq əməkdaşlıq layihələri, investisiya sessiyaları, startap sərgiləri və urbanistika sahəsində elmi müzakirələr təşkil olunacaq. Bu tədbirlər həm yerli universitetlərin və gənc mütəxəssislərin qlobal urban şəbəkələrinə inteqrasiyasını gücləndirəcək, həm də Azərbaycan şirkətlərinə beynəlxalq tərəfdaşlarla birbaşa əməkdaşlıq imkanları yaradacaq.
- WUF13 Azərbaycanda şəhərsalma və bərpa layihələrinin beynəlxalq müstəvidə təqdimatı üçün yeni investisiya axınlarının formalaşmasına şərait yaradacaq. Yerli bələdiyyələr, dövlət qurumları və özəl sektor "smart infrastruktur", "yaşıl şəhər" və "enerji səmərəliliyi" kimi mövzularda bilik və təcrübə mübadiləsi aparacaq. Bu, Azərbaycanın müasir şəhərsalma standartlarına uyğun transformasiyasını daha da sürətləndirəcək.

İrimiqyaslı beynəlxalq forumlar ev sahibi ölkəyə BMT-nin Dayanıqlı İnkişaf Ofisinin və Dünya Turizm Təşkilatının (UNWTO) qiymətləndirmələrinə əsasən, 200-250 milyon dollar birbaşa və dolayı iqtisadi fayda gətirir. Bu gəlirlər, əsasən, turizm, nəqliyyat, hotel və xidmət sektorlarında cəmlənir. 2020-ci ildə Əbu-Dabidə keçirilən WUF10 forumu zamanı 30 mindən çox iştirakçı 170 ölkədən qatılmış, yerli iqtisadiyyata təxminən 180 milyon dollar əlavə gəlir gətirmişdi.

2022-ci ildə Polşanın Katovitse şəhərində keçirilən WUF11-də 17 mindən çox iştirakçı olmuşdu. Bakıda keçiriləcək WUF13-ün isə bu göstəricini 20-25 faiz üstələyərək 20 minə yaxın beynəlxalq qonağı cəlb edəcəyi gözlənilir. Bu, təkcə elmi və institusional əməkdaşlığa deyil, həm də turizm və xidmət sektoruna ciddi iqtisadi təkan verəcək.

Dünya üzrə urban ərazilər iqlim dəyişikliyi və resurs məhdudiyyəti qarşısında ən həssas məkanlardan sayılır. UN-Habitatın məlumatına görə, qlobal miqyasda enerji istehlakının və karbon emissiyalarının 70 faizi şəhərlərdə yaranır, bu isə "yaşıl infrastruktur" və ekoloji dayanıqlılıq məsələlərini prioritetə çevirir.

Azərbaycan üçün bu mövzu xüsusi aktuallığa malikdir. Bakı və digər şəhərlərdə urban inkişaf, iqlim riskləri və təbii resurslardan səmərəli istifadə məsələləri diqqət mərkəzindədir. WUF13 çərçivəsində bu problemlərin müzakirəsi ölkəmiz üçün bir sıra yeni imkanlar yarada bilər:

- "Ağıllı şəhər", "yaşıl enerji", "smart su və enerji sistemləri" kimi sahələrdə beynəlxalq təcrübənin tətbiqi;
- Təkrar istifadə edilən materiallardan və ekoloji texnologiyalardan istifadənin artırılması;
- İqlim adaptasiyası və dayanıqlı bərpa layihələri üçün beynəlxalq maliyyə və texnoloji əməkdaşlıq imkanlarının genişlənməsi;
- Azərbaycanın regional səviyyədə "urban ekosistemlərdə dayanıqlı inkişaf" sahəsində təcrübə paylaşan lider ölkə kimi tanınması.

Beləliklə, WUF13 təkcə şəhərsalma və iqtisadi inkişaf baxımından deyil, həm də ekoloji və elmi baxımdan Azərbaycanın beynəlxalq imicini möhkəmləndirən, gələcək nəsillər üçün dayanıqlı şəhər modeli formalaşdıran mühüm platforma olacaq.

# "Kəlağayı Günləri - 2025" layihəsi çərçivəsində ilk tədbir

**"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşkilatçılığı ilə "Kəlağayı ev-muzeyi"ndə "Kəlağayı Günləri - 2025" layihəsinin ilk tədbiri keçirilib.**

İctimai Birlikdən Azərtac-a bildirilib ki, əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən İctimai Birliyin sədri, "Kəlağayı ev-muzeyi"nin direktoru Güllü Eldar Tomarlı layihə barədə geniş məlumat verib. O bildirib ki, milli dəyər olan kəlağayının təbliği illərdir davam etdirilir.

Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov milli dəyərlərimizin qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıb.

Araşdırmaçı-yazar, publisist Vaqif Osmanlı vurğulayıb ki, kəlağayı nənələrdən miras qalmış mənəvi əmanətdir və Güllü Eldar Tomarlının mənəvi dəstəyi ilə kəlağayı mövzusunda bir sıra kitablar və mahnılar ərsəyə gəlib.

Tədbirdə Mirvarid Dilbazi Poeziya Məclisinin üzvləri - Əmək qəhrəmanı Tərlan Musayeva, Fəxrəddin Mahmudov, Eyzanat Osmanova, şəhid Zaur İsmayılzadənin anası Sevil Hüseynova, Polad Ağa və digərləri Güllü Eldar Tomarlının Vətən, kəlağayı və papaq sevgisi ilə reallaşdırdığı tədbirlərdən söhbət açıblar.

Bədii hissədə gənc aşıq Dərya Nəsibova musiqi nömrələri ilə çıxış edib.

# Torpağın qədrini əsl sahibi bilər

## Qarabağ və Şərqi Zəngəzurdakı dirçəliş bunun əyani təsdiqidir





**Vətən müharibəsindəki şanlı zəfərdən dərhal sonra işğaldan azad edilən ərazilərimizin bərpası və quruculuğu dövlətimizin qarşısına qoyduğu vacib prioritetlərdən biri olub. Düşmən tapdağından azad etdiyi əraziləri öz iqtisadi imkanları hesabına yenidən quran dövlətimiz bu torpaqlarda əhəmiyyətli layihələr həyata keçirir. Böyük qayıdış proqramının icrası üçün müasir tipli şəhər, qəsəbə və kəndlər salınır, hərtərəfli infrastruktur qurulur.**

Bir sözlə, keçmiş məcburi köçkünlərin dədə-baba yurdlarında rahat yaşamaları üçün kompleks işlər görülür.

### Büdcəmizin prioriteti

Qarabağ və Şərqi Zəngəzura qayıdışın həyata keçirilməsi üçün hər il bu ərazilərə dövlət büdcəsindən maliyyə ayrılır. Maliyyə Nazirliyinin yaxın 4 il üçün açıqladığı Ortamüddətli Xərclər Çərçivəsində əksini tapan məlumata görə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı xərclərin (Böyük qayıdış I planının layihəsi) 2026-2029-cu illərdə 13,5 milyard manat təşkil edəcəyi proqnozlaşdırılır ki, bunun da əsaslı xərclərdə xüsusi çəkisi 23,5 faizdir. Ümumilikdə 2020-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb. 2025-ci ildə isə bu məqsədə 4,3 milyard manat vəsait nəzərdə tutulub: "2027-2030-cu illəri əhatə edəcək "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması çərçivəsində proqram üzrə həyata keçiriləcək tədbirlər və onların maliyyə tutumu dəqiqləşdiriləcək".

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işləri nəticəsində regionun ümumi planlaşdırılması başa çatıb. 13,6 min kvadratkilometr ərazini əhatə edən bu plan əsasında 1,1 milyon nəfərdən çox insanın doğma şəhər və kəndlərində məskunlaşması üçün yenidənqurma işləri icra olunur. Əhalisi 300 min nəfərdən çox olan 8 şəhər və 90 kəndin baş planları artıq təsdiqlənib.

### Böyük qayıdışın əyani sübutu

Azad edilən tarixi yurdlarımızda gerçəkləşdirilən bərpa-quruculuq işlərinə Prezident İlham Əliyevin bu ərazilərə mütəmadi səfərləri zamanı daha yaxından şahidlik edirik.

28 oktyabrda dövlətimizin başçısının Cəbrayıl və Zəngilan rayonlarına səfərləri də buradakı sürətli və genişmiqyaslı quruculuğun təntənəsini bir daha gözlər önünə sərdi. Həmin gün Prezident İlham Əliyev Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak etdi, rayonun Şahvəlli kəndində "Şəms" və "Üfüq" Günəş-Elektrik stansiyalarının təməlini qoydu, "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunu açdı. Həmçinin Cəbrayıl şəhərində ikinci və üçüncü yaşayış komplekslərinin, Cəbrayıl şəhər məscidinin təməlini qoydu. Zəngilan rayonunun Ağalı kəndinin 2-ci mərhələsinin və Məmmədbəyli kəndinin açılışlarında iştirak edən ölkəmizin rəhbəri Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksində görülmüş işlərlə tanış oldu.

Zəngilan rayonunun Məmmədbəyli və Ağalı sakinlərini dədə-baba yurdlarına qayıdış münasibətilə təbrik edib onlara mənzillərinin açarlarını təqdim edən Prezident İlham Əliyev söylədi ki, beş ilə yaxındır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib və azad olunmuş bütün torpaqlarda geniş quruculuq işləri gedir, o cümlədən Zəngilan rayonunda: "Bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki, bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq. Bugünkü reallıq - qurduğumuz şəhərlər və kəndlər bunu göstərir".

Həmçinin Cəbrayıl rayonunun Horovlu kəndinə dönən sakinlərlə görüşüb-söhbətləşən dövlət başçısı vurğuladı ki, Böyük qayıdışın əyani sübutu bu gün gözünüzün önündədir: "Belə gözəl şərait yaratmaqla Azərbaycan dövləti bir daha öz siyasətini göstərir. İşğal dövründə ovaxtkı köçkünlərlə çoxsaylı görüşlərimdə mən demişdim ki, torpaqlar işğaldan azad olunandan sonra şəhərlərimiz, kəndlərimiz yenidən qurulacaq, əvvəlkindən daha gözəl olacaq. Bugünkü gün bu sözlərin əyani sübutudur. Bu gün sizin həyatınızda yeni dövr başlayır".

Dövlətimizin işğaldan azad edilən yerlərdə apardığı sürətli quruculuq işlərinin nəticəsidir ki, bu ərazilərdə hazırda 50 mindən çox insan yaşayır, işləyir, təhsil alır. Həmin insanların 20 mindən çoxu öz vətəninə dönüb xoşbəxt həyata başlayan keçmiş məcburi köçkünlərdir.

### Quruculuq zəfəri

Bu gün böyük tikinti meydançasına çevrilən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən meqa layihələr, salınan "ağıllı şəhər" və kəndlər, müasir infrastruktur dünyada da təqdirlə qarşılanır. Onu da xüsusi vurğulayaq ki, Prezident İlham Əliyevin hər dəfə bu iqtisadi rayonlara səfərləri çərçivəsində yeni açılışlarını etdiyi modern kənd və şəhərlərin möhtəşəmliyi Ermənistanda da böyük əsk-səda yaradır. Həmçinin sosial şəbəkələrin erməni seqmentində də bu hiss olunur. Oktyabrın 28-də Azərbaycan Prezidenti tərəfindən birinci mərhələsinin açılışı edilən Horovlu kəndinin timsalında da analoji hal yaşandı. Belə ki, bununla bağlı ermənilər tərəfindən edilən paylaşımın altına sözügedən xalqın minlərlə nümayəndəsi şərh yazaraq öz heyrətini, təəccübünü ifadə edib. Bu isə onu göstərir ki, 30 il ərzində işğalçıların xarabazara çevirdiyi Qarabağ və Şərqi Zəngəzurun bu gün necə cənnətməkana çevrilməsinə ermənilər özləri də, sözün əsl mənasında, mat qalıblar. Yəni sadə ermənilər bilirlər ki, bu torpaqlar heç zaman onların olmadığı üçün onilliklər boyu Ermənistan burada dağıdıcı fəaliyyət göstərib. İndi isə bu yurdların əsl sahibləri - qurub-yaradan Azərbaycan xalqı qayıdıb.

Torpaq da insan kimi canlıdır... Qayğıya, diqqətə, təmiz havaya, suya ehtiyacı var. Ancaq işğalçılar Qarabağ və Şərqi Zəngəzurda daşı-daş üstündə qoymamış, talançılıqla məşğul olmuş, "yandırılmış torpaq" siyasəti həyata keçirmişdilər. İndi dirçələn, çəmənləri yaşıllaşan, meşələri pöhrələyən, kəndlərində, şəhərlərində işıqlar yanan Qarabağ və Şərqi Zəngəzuru görən ermənilərin verdikləri reaksiyalardan aydın olduğu kimi, onlar özləri də bir daha etiraf edirlər ki, torpağın qədrini əsl sahibi bilər.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



# Azərbaycanın aqrar sektoruna xarici ölkələrin marağı artır

**Azərbaycan dünyada etibarlı tərəfdaş imici qazanıb və bu təkcə tez-tez qeyd etdiyimiz enerji sahəsinə aid deyil. Ölkəmizin iqtisadi əlaqələrinin coğrafiyasının geniş olduğu kimi, əməkdaşlıq etdiyi sahələr də çoxşaxəlidir. Aqrar sahədə də bir çox ölkələrlə uğurlu əməkdaşlıq əlaqələri qurulub.**



Təqdirəlayiq haldır ki, hazırda ölkəmizlə kənd təsərrüfatı sahəsində əməkdaşlıq etmək, yaxud mövcud əlaqələri genişləndirmək istəyində və qərarında olan ölkələrin sayı getdikcə artır. Məsələn, Bolqarıstanın kənd təsərrüfatı və ərzaq naziri Georgi Tahov ölkəsinin Azərbaycanla dost olduğunu, bütün sahələr üzrə tərəfdaşlıq münasibətlərini inkişaf etdirməyə maraq göstərdiyini bir daha vurğulayıb. Qeyd edib ki, iki ölkə arasında ticarət əlaqələrinin intensivləşdirilməsi, aqrar sahədə əlaqələrin genişləndirilməsi istiqamətində işlərin aparılması mühüm əhəmiyyət daşıyır. O, ölkəsinin Azərbaycanla kənd təsərrüfatı sahəsində əməkdaşlığa önəm verdiyini deyib.

Bu günlər Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov Bolqarıstanda səfərdə olarkən hər iki ölkənin nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə aqrar sahədə əməkdaşlığın mövcud vəziyyəti barədə müzakirələr aparıb. Qarşı tərəfə ölkəmizdə aqrar inkişaf strategiyasının əsas istiqamətləri, aqrar sahəyə dövlət dəstəyi, həyata keçirilən innovativ layihələr barədə ətraflı məlumat verilib. Bildirilib ki, Azərbaycan da Bolqarıstan ilə iqtisadi və ticari əməkdaşlığın gücləndirilməsi istiqamətində bütün təşəbbüsləri dəstəkləyir.

Görüşdə aqrar sahədə əməkdaşlığın və hüquq-müqavilə bazasının, eləcə də kənd təsərrüfatı üzrə birgə İşçi Qrup arasında fəaliyyətin gücləndirilməsi, ixrac potensialı yüksək olan məhsullarla bağlı informasiya mübadiləsi, Azərbaycanda yetişdirilən meyvə və tərəvəz məhsullarının Bolqarıstana ixracı, ticarət dövriyyəsinin artırılması, iş adamları arasında əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib. Həmçinin müasir texnologiyaların transferi, tingçilik, bitki seleksiyası, akvakultura və balıqçılıq sahəsində əməkdaşlıq, spirtli içkilərin istehsalı sahəsində təcrübə mübadiləsi, hər iki ölkədə təşkil olunan beynəlxalq sərgi və yarmarkalarda iş adamlarının iştirakının təşviq edilməsi, aqrar elmi-tədqiqat və aqrar təhsil sahəsində əməkdaşlıq məsələlərindən danışılıb.

Tərəflər iki ölkə arasında kənd təsərrüfatı sahəsində gələcəkdə ikitərəfli əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsində, kənd təsərrüfatı və ərzaq məhsullarının ticarət dövriyyəsinin artırılmasında maraqlı olduqlarını ifadə ediblər.

Eləcə də qardaş Türkiyə ilə bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də etibarlı tərəfdaşlıq mövcuddur. Ölkələrimiz aqrar tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, aqrar sığorta və digər sahələr üzrə səmərəli əməkdaşlıq edirlər. Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqrar sahə ilə bağlı həyata keçirdiyi layihələr böyük əhəmiyyət daşıyır. İki ölkənin iş adamlarının iştirakı ilə aqrar sahə üzrə birgə forumlar və digər tədbirlər əlaqələrin daha da güclənməsinə dəstək verir.

Hələ iki il əvvəl tərəflər "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşə Nazirliyi arasında kənd təsərrüfatı infrastrukturu və ərazilərin qiymətləndirilməsi məsələləri üzrə əməkdaşlıq haqqında" Niyyət Bəyannaməsi imzalayıblar. Bəyannamədə Türkiyədə həyata keçirilən kənd təsərrüfatı infrastrukturu və ərazilərin qiymətləndirilməsi fəaliyyətlərinin Azərbaycan Respublikasında tətbiqi imkanlarının araşdırılması və təcrübə mübadiləsinin aparılması niyyəti öz əksini tapıb.

Azərbaycan ilə Belarusun da aqrar sahədə əməkdaşlığın genişləndirilməsində maraqlı olduqları hamıya məlumdur. Ölkələrimiz kənd təsərrüfatı və qida məhsullarının ticarət dövriyyəsinin artırılması, kənd təsərrüfatı sahəsində ən müasir texnologiyaların transferi, aqrar sektorda elmi-tədqiqat və təhsil sahələrində təcrübə proqramlarının həyata keçirilməsinə maraq göstərirlər. Tərəflər Belarus və Azərbaycanda hər il təşkil olunan "Belagro" və "CaspianAgro" sərgilərində qarşılıqlı şəkildə iştirak edirlər. Bu sərgilər aqrar sahədə fəaliyyət göstərən iş adamları və fermerlərin yeni məhsul və texnologiyalarla tanış olmasına şərait yaradır.

Dost Belarus ölkəsi Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatı sahəsində apardığımız genişmiqyaslı işləri də dəstəkləyir. Bunu keçən ilin may ayında Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ölkəmizə rəsmi səfəri çərçivəsində azad edilmiş ərazilərimizdə olarkən də əyani gördük.

Hazırda Belarus Ağdam rayonunda Aqrar şəhərciyin yaradılmasına dəstək verir. Bu günlərdə baş nazirin müavini Samir Şərifov məlumat verərək bildirib ki, Belarusun Baş nazirinin müavini Natalya Petkeviçlə Ağdama səfər zamanı layihə üzrə müzakirələr aparılıb. Hazırda Ağdamın Qızıl Kəngərli kəndində layihələndirmə işləri görülür. Ərazidə quşçuluq təsərrüfatı, ət və süd istehsalı müəssisələrinin qurulması planlaşdırılır. Layihələndirmə Belarus, investisiya isə Azərbaycan tərəfindən təmin olunacaq.

Macarıstan şirkətləri isə Azərbaycanın kənd təsərrüfatının modernləşdirilməsində iştirak etmək niyyətindədirlər. Ümumiyyətlə, bu iki ölkə arasında iqtisadi əməkdaşlığa Azərbaycanın öz iqtisadiyyatını şaxələndirmək istəyi müsbət təsir göstərir. Azərbaycanın strateji diversifikasiya sektorlarına kənd təsərrüfatı və qida emalı sektorları da daxildir. Bu sektorlar çərçivəsində Macarıstan ixrac qabiliyyətinə malik KOB-lar vasitəsilə Azərbaycanı yüksəkkeyfiyyətli, faydalı texnologiya ilə təmin edə bilir. Macarıstanla Azərbaycanın bu sahədə də əməkdaşlığının perspektivlərti böyükdür.

Ölkəmizlə aqrar sektorda əməkdaşlıq etməkdə maraqlı olan digər ölkələri də göstərmək olar. Bütün bunlar Azərbaycanın özünü etibarlı tərəfdaş kimi təsdiq etməsindən, Prezident İlham Əliyevin ölkə iqtisadiyyatının şaxələndirilməsinə böyük vüsət verməsindən, o cümlədən son dövrlər ölkədə aparılan uğurlu aqrar islahatlardan qaynaqlanır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Dünya Bankı ölkəmizdəki iqtisadi dinamikanı yüksək qiymətləndirir

**Son bir neçə ildir dünya iqtisadiyyatının inkişaf dinamikasında ciddi bir geriləmə müşahidə olunur. Birinci zərbəni qlobal iqtisadiyyata koronavirus pandemiyası vurmuşdu. Dünya iqtisadiyyatının təchizat zənciri qırılmış, ticarətin həcmi əhəmiyyətli dərəcədə azalmış, məhsul satışında baş verən geriləmə istehsalın həcminin kiçilməsinə səbəb olmuşdu.**




İkinci və başlıca səbəb isə dünyada baş verən geosiyasi proseslərdir. Qərbin dünyanı təkqütblü idarəetmə cəhdləri ciddi müqavimətə rast gəldi. Bu işdə xüsusən ABŞ-nin sabiq Prezidenti Co Baydenin apardığı aqressiv siyasət mühüm rol oynadı. ABŞ siyasi hədəflərinə çatmaq üçün iqtisadi təzyiq mexanizmlərdən - sanksiyalardan geniş istifadə etməyə başladı. Və bununla qlobal səviyyədə qarşılıqlı sanksiyalar dövrü başlandı və bu proses indi də davam edir.

Məlum olduğu kimi, iqtisadi inkişafın təməlində duran əsas amillərdən biri investisiya qoyuluşudur. Amma sanksiyalar ucbatından dünya üzrə maliyyə sistemində bir durğunluq yaranıb. Banklar gəlirlərini əsasən investisiya qoyuluşunda əldə edir və bu imkanın məhdud olması qlobal səviyyədə bank-maliyyə sistemində də gəlirlərin azalmasına səbəb olub.

Azərbaycan liberal iqtisadiyyata malik ölkələrdəndir. Yəni dünya iqtisadiyyatına inteqrasiya olunub və o səbəbdən qlobal bazarda baş verən neqativ təsirlərdən tam sığortalanmayıb. Ancaq ölkəmizdə vaxtında icra edilən iqtisadi islahatlar ölkədə dayanıqlı inkişafın qorunub saxlanılmasına imkan verib.

Düzdür, ölkə üzrə gəlirlərin əldə olunmasında neft-qaz sənayesi özünün üstün mövqeyini qoruyub saxlayır. Lakin qeyri-neft-qaz sektorundan gələn gəlirlərin həcmi də ildən-ilə artır. Bu, ixracda da özünü göstərir və qeyri-neft-qaz sektorunda ixracın həcmi artdıqca ölkənin maliyyə imkanları genişlənir. Hazırda Azərbaycanın valyuta ehtiyatı 80 milyard dollar civarındadır. Bu, 10 milyonluq əhalisi olan ölkə üçün böyük rəqəmdir.

Azərbaycanın yüksək iqtisadi göstəriciləri xarici sərmayədarlar üçün cəlbedici olaraq qalır və ölkəmizdə bir çox layihəyə iri məbləğdə xarici investisiya qoyulur. Biz bunu xüsusən "yaşıl enerji" sahəsinə ayrılan vəsaitlərdən aydın görürük. Bütün bunlar beynəlxalq bank və maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Dünya Bankının Azərbaycan üzrə ilk dövr üçün Ölkə İqtisadi İcmalının təqdimatından da bunu aydın görə bilərik.

Qeyd edək ki, Azərbaycan üzrə Ölkə İqtisadi İcmalı (AÖİİ) ildə iki dəfə dərc olunan hesabatdır. Sənəd ölkədəki son iqtisadi hadisələri və perspektivləri əhatə edir. İki hissədən ibarət olan hesabatda qeyd olunur ki, Azərbaycan son 10 ildə qlobal və regional sarsıntılara qarşı əhəmiyyətli dayanıqlıq nümayiş etdirmişdir. Rəqabət Məcəlləsinin qəbulu, əhəmiyyətli vergi islahatları, lisenziya və icazələrin alınması prosedurlarının sadələşdirilməsi, əmək münasibətlərində şəffaflaşma və biznes mühitindəki çağırışların həlli istiqamətində atılan digər addımlar sahibkarlıq fəaliyyətinin dəstəklənməsində mühüm rol oynamışdır. Ölkədə reallaşdırılan iqtisadi islahatlar, Cənubi Qafqazda strateji mövqeyi və zəngin enerji resursları güclü iqtisadi artımı və yoxsulluğun əhəmiyyətli dərəcədə azalmasını təmin etmişdir. Hökumətin makroiqtisadi sabitliyə verdiyi önəm ölkəyə dəyişkənliklərə, o cümlədən 2015-ci ildəki neft qiymətləri şoku və COVID-19 pandemiyasına qarşı mübarizə aparmağa, fiskal və xarici ticarət profisitlərini, aşağı dövlət borcunu və əhəmiyyətli makroiqtisadi ehtiyatları qoruyub saxlamağa imkan vermişdir.

Dünya Bankının təhlili göstərir ki, 2025-ci ilin ilk yarısında neft-qaz sektorunda 3,2 faizlik daralma müşahidə olunsa da, qeyri-neft sektorunda artım 3,9 faiz təşkil edib. Tikinti, nəqliyyat, İKT və pərakəndə ticarət sahələrində fəaliyyət normallaşıb, kənd təsərrüfatı və turizm sahələri artım tempini qoruyub saxlayıb.

Sənəddə həmçinin qeyd olunur ki, iyun ayının sonuna doğru daxili və xarici təzyiqlərin azalması ilə inflyasiya bir qədər aşağı düşüb və illik inflyasiya 4,8 faizə enib. Bu göstərici Azərbaycan Mərkəzi Bankının hədəf diapazonunun (4 ± 2 faiz) mərkəz nöqtəsinə yaxındır.

Hesabata görə, xarici və fiskal balanslar əhəmiyyətli profisitlərə malikdir, baxmayaraq ki, neft-qaz gəlirlərinin azalması bu göstəriciləri bir qədər zəiflədib. Makroiqtisadi ehtiyatlar güclü olaraq qalır: Dövlət Neft Fondu (ARDNF) ehtiyatları 13,2 faiz artaraq 65 milyard dollara (ÜDM-in 88 faizi) çatıb, Azərbaycan Mərkəzi Bankının ehtiyatları isə 11,5 milyard dollara qədər yüksəlib ki, bu da 5,6 aylıq idxala bərabərdir.

Gələcəyə baxışda, iqtisadi artımın 2025-2027-ci illər arasında orta hesabla 1,7 faiz səviyyəsində qalacağı proqnozlaşdırılır. Bu, neft qiymətlərinin azalması fonunda fiskal siyasətin sərtləşməsi ilə bağlıdır. İnflyasiyanın Mərkəzi Bankın hədəf diapazonunda qalacağı gözlənilir. Risklərə uzunmüddətli aşağı artım və enerji qiymətlərində daha kəskin azalma daxildir. Qısamüddətli risklərə qarşı ehtiyatlar kifayət qədər olsa da, uzunmüddətli dayanıqlıq iqtisadiyyatın struktur islahatları vasitəsilə şaxələndirilməsi səylərinin uğuruna bağlı olacaq.

İcmalda qeyri-neft sektoruna investisiya qoyuluşları və onun artımına təsir edən məsələlər də geniş əhatə olunub. İnvestisiya səviyyələri ÜDM-in təxminən son illərdə 20 faizədək hissəsini təşkil edir. Bu, əsasən, neft-qaz gəlirlərinin azalması fonunda dövlət investisiyalarının azalması ilə bağlıdır. Yerli özəl investisiyalar əsasən daxilə yönəlmiş sahələrdə, məsələn, tikintidə cəmlənib.

Hesabatda özəl sektorun potensialından faydalanmaq üçün struktur islahatlarının vacibliyi vurğulanıb. Bu islahatlar siyasi sabitliyin artırılması, bərabər rəqabət mühitinin təkmilləşdirilməsi, maliyyə resurslarına çıxışın genişləndirilməsi və məhkəmə sisteminin gücləndirilməsini əhatə edir.

Beynəlxalq səviyyədə etimad göstərilən Dünya Bankının təhlili bir daha sübut edir ki, ölkədə icra olunan islahatlar milli iqtisadiyyatın inkişafında önəmli rol oynayır. Bu gün Azərbaycan dünyanın yüksək və sabit maliyyə resurslarına malik olan azsaylı ölkələrdəndir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*







# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Mübarizin təkcə həmyerlisi deyildi...

### Həm də qəhrəmanlıq yolunun davamçısı idi

**İkinci Qarabağ müharibəsində qəhrəmanların qanı bahasına düşmənə "əsir" düşən müqəddəs Vətən torpaqları 44 günün içində azadlığa qovuşdu və bununla Azərbaycanımızın yeni, şanlı tarixi yazıldı.**

Bu şərəfli yolda oddan-alovdan keçib sinəsini Vətənə sipər edən minlərlə qeyrətli igidlərdən biri də polkovnik-leytenant Orxan Nadir oğlu Əkbərovdur. Müharibə meydanında son nəfəsinə qədər yağıya qan qusduran, 38 yaşında əbədiyyətə qovuşan Orxanın şərəfli ömür yolu Vətəninə, torpağına məhəbbət mücəssəməsinə dönərək gələcək nəsillər üçün də örnək oldu.

1982-ci ildə Biləsuvarda ziyalı ailəsində dünyaya göz açan Orxan Əkbərov Vətəninə, xalqına, insanlığa ilahi bir sevgi ilə boy atıb, yetkinlik yaşına çatıb. Yurdunun taleyi onu daha çox düşündürüb və belə bir vaxtda hərbçi olmağı özünə ən doğru yol bilib. Orta təhsilini başa vurduqdan sonra - 2000-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Burada hərbi biliklərə mükəmməl yiyələnib, Vətənə olan sevgisini nümunəvi davranışı ilə göstərib, həmçinin vacib təlimlərdə əla döyüşçü keyfiyyətləri nümayiş etdirib. Üstəlik, idmanın boks növünə həvəsi qatıldığı bütün yarışlarda Orxana uğur qazandırıb.

Leytenant rütbəsi alan Orxan 2005-ci ildə Təlim Tədris Mərkəzində daha bir il oxumaqla peşəsinə ürəkdən bağlı bir bacarıqlı kəşfiyyatçı kimi yetişib. Füzulidəki "N" saylı həbi hissədə taqım komandiri, sonra bölük komandiri vəzifəsində çalışmaqla canından artıq sevdiyi doğma Azərbaycana şərəflə xidmət edib, cəsurluğu, igidliyi, mərdliyi, əsgərlərinə məhəbbətlə yanaşması ona saf sevgi gətirib. Özü necə Vətəni sevibsə, əsgərlərinə də bunu öyrədib. Hər qarış torpağı uğrunda canından keçməyə hazır olan Orxan idman yarışlarından da qalmır, həmişə yüksək nəticələrlə əsgərlərini sevindirib. Bir qayda olaraq düşmən tapdağına dönən torpaqları azad etmək naminə təlimlər zamanı gücünü durmadan artırıb, çətin tapşırıqları



belə uğurla yerinə yetirib, əsgərləri, zabitləri qələbəyə kökləyib. Qəlbində gəzdirdiyi ən ülvi istək isə müqəddəs Şuşa torpağının bağrına üçrəngli bayrağımızı sancmaq olub.

Orxan Əkbərovun 14 illik xidməti ön cəbhədə keçib. O, bununla qürur duyub, peşəkar zabit kimi özünə hörmət, şöhrət qazandırıb. İllər ötdükcə artan zəngin təcrübəsi, cəsarəti yağının gözünə ox olub. Beyləqan və Ağdam rayonlarında "N" saylı hərbi hissələrdə kəşfiyyat rəisi olduğu zaman dəfələrlə ən yaxşı döyüş hazırlığı adına layiq görülüb. Cəbhə xəttində erməni dığaları ilə qarşı-qarşıya gələndə onların layiqli cəzasını verib. Orxanın odla-alovla çarpışan günləri çox olsa da, Vətən məhəbbəti, düşmənə amansız nifrəti bir an belə azalmayıb. Nümunəvi xidməti nəzərə alınaraq "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi" yubiley, "Qüsursuz xidmətə görə 3-cü dərəcəli", "Qüsursuz xidmətə görə 2-ci dərəcəli" medallarla təltif edilib.

Həmişə Ali Baş Komandanın döyüş əmrini böyük intizarla gözləyən Orxan Əkbərov 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı olub. O, əsgərlərinin önündə olmaqla Lələtəpə istiqamətində düşmənin alınmaz qala hesab etdiyi beş postun istehkamlarını başına sovurub. Horadiz istiqamətində meşədə çoxlu sayda xüsusi təyinatlı düşmən əsgərinin məhv edilməsində xüsusi rəşadət göstərib. Eyni zamanda düşmənə kömək üçün tələsən bölüyün silahla dolu 5 avtomobili, 60 nəfərlik canlı qüvvəsi Orxanın komandanlığı ilə məhv edilib. Hər gün düşmənlə üz-üzə durub ölümün gözünə dik baxan kəşfiyyatçı komandir daşnaklara ciddi itki verməklə onların cəbhədə törətdiyi təxribatların qarşısını vaxtında ala bilib. Azərbaycanın qəhrəman oğlu 2020-ci ildə Tovuz istiqamətində gedən döyüşdə də yağıya, sözün əsl mənasında, qan uddurub.

2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın hücum əmri gələndə polkovnik-leytenant Orxan Əkbərov silaha sarılıb, sinəsini Vətənə sipər edib. Mərdliklə vuruşub, bir-birindən çətin döyüşlərdən zəfərlə çıxıb. Şuşanı azad görmək arzusu ilə igid döyüşçü düşmənə göz açmağa imkan verməyib, 200-dən çox erməni əsgərinin axırına çıxıb, bir neçə silah dolu maşınını məhv edib. Polkovnik-leytenant 2 oktyabr 2020-ci il Füzuli istiqamətində gedən döyüşdə düşmən snayperi ilə açılan atəş nəticəsində şəhadətə ucalıb. Doğma Biləsuvar rayonunda canı qədər sevdiyi torpağa tapşırılıb. Dövlət başçısının sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda" və digər medallarla təltif olunub. Ailəli olan şəhidimizin Vətənə əmanət iki övladı yadigar qalıb.

*Zəfər ORUCOĞLU*

## "Fəxr edirəm ki, Qələbənin qazanılmasında tankçı oğullarımın da payı olub"

**Şanlı Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsində adını Zəfər tariximizə yazan qəhrəman oğullardan biri də Balakən rayonundan olan şəhid tankçı Vüsal Omarovdur.**

AZƏRTAC-ın bölgə müxbiri şəhidin ailəsini ziyarət edib, valideynləri ilə Vüsalın Vətən müharibəsindəki qəhrəmanlığından danışıb.

Vüsal Omarov 1989-cu il iyulun 7-də Rusiya Federasiyasının Kemerovo vilayətinin Prokopyevsk şəhərində anadan olub. O, 1995-2006-cı illərdə Balakən rayonunun Poştbinə kənd 1 saylı tam orta məktəbində təhsil alıb. Vüsal 2007-2009-cu illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra 2009-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. Vüsal 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin giziri kimi tankçı vəzifəsində xidmətə başlayıb, tank komandiri olub. 2016-cı ildə Aprel döyüşlərində Lələtəpə uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə savaşıb, "dəmir atı" ilə düşmənin başına od ələyib. Sentyabrın 28-də Cəbrayıl döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Balakən şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki qızı yadigar qalıb.







Şəhidin anası Asayas Omarova övladı barədə danışdıqca kövrəlir: "Oğullarımın hər ikisi hərbçi olub, tank bölmələrində xidmət edirdilər. Böyük oğlum Umar 25 il hərbidə xidmət edib, hazırda ehtiyata buraxılıb. Vüsal isə 10 il idi xidmət edirdi. Hər ikisi çox vətənpərvər idi, müharibə adı gələndə döyüşə getmək üçün can atırdılar, düşməndən qisas almağa tələsirdilər. Vətən müharibəsində də hər ikisi tankçı kimi iştirak ediblər".

Qeyd edək ki, tank komandiri olan Vüsal Omarov Rusiyada keçirilən "Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində təşkil edilən "Tank biatlonu" müsabiqəsində Azərbaycanı təmsil edən şəxsi heyətin tərkibində olub. O, fərdi ustalıq nümayiş etdirərək, komandasının 16 ölkə arasından 4-cü yeri tutmasında xüsusi rol oynayıb.

"Qardaşı Umar da xidmət dövründə 7 dəfə tank yarışlarında iştirak edib, respublika birincisi olub, bir neçə dəfə ikinci yeri tutub, çoxlu medalları var", - deyə şəhid anası vurğulayıb.

Şəhidin atası Şəmsəddin Omarzadə tankçı oğullarının Vətən müharibəsindəki qəhrəmanlıqlarından qürur duyduğunu bildirib: "Fəxr edirəm ki, şəhid atasıyam. Oğlum Vətən uğrunda şəhid olub. Əsas odur ki, torpaqlarımız düşmən işğalından azad edilib, şəhidlərimizin qisası alınıb. Qələbə gününü illərlə gözləmişik. Sevinirəm ki, şanlı Qələbənin qazanılmasında mənim tankçı oğullarımın da payı olub".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vüsal Omarov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Vüsal Omarovun adının əbədiləşdirilməsi məqsədilə rayonun Gərəkli kəndində küçələrdən birinə onun adı verilib.

## "Oğlum üçün Vətən, torpaq və bayraq eşqi hər şeydən üstün idi"

**Vətən müharibəsində illərdir işğal altında olan torpaqlarımızın azadlığını, xalqımızın şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan oğulları döyüş meydanında əllərindən gələnin ən yaxşısını edərək haqq mübarizəmizi uğurla başa vurdular. Ordumuzun böyük qələbəsilə Ermənistanın işğalçı siyasətinə son qoyuldu, tarixi ədalət bərpa edildi. Bunun üçün şəhidlik zirvəsinə yüksələnlərdən biri də Vüqar Rüstəmov oldu.**

AZƏRTAC xəbər verir ki, Vüqar Kamil oğlu Rüstəmov 1994-cü il mayın 1-də Gədəbəy rayonunun Xarxar kəndində anadan olub. 2000-2011-ci illərdə Elşən Məmmədov adına Xarxar kənd tam orta məktəbində təhsil alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçərək Vətən qarşısında borcunu layiqincə yerinə yetirib.

Şəhidin anası Rəfiqə Rüstəmova deyir ki, Vüqar 2020-ci il sentyabrın 27-də 44 günlük Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq döyüşlərə qatılıb. Hərbçi yoldaşları ilə birgə işğalçı düşmənə qarşı igidliklə mübarizə aparıb. Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümayiş etdirib. Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Şəhid noyabrın 16-da doğulub, boya-başa çatdığı Gədəbəyin Xarxar kəndində dəfn edilib.



"Türkiyədə işləyirdi, müharibənin başladığını bilən kimi Vətənə döndü. Dedi ki, döyüşlərə qatılacaq. Deyirdi ki, "Üç bacımla yanaşı, bütün Azərbaycan qadınları mənim anam, bacımdır. İstəmərəm ki, Xocalı faciəsi yenidən yaşansın". Əlbəttə ki, ürəyinin hansısa küncündə bizə yer olub, ancaq Vətən, torpaq, bayraq eşqi hər şeydən daha üstün idi. Belə zirvəyə yüksəlməsi mənim, bacılarının, qardaşının, oğlunun və həyat yoldaşının başucalığıdır", - deyə şəhid anası bildirir.

Şəhid Vüqar Rüstəmovun İdris adında bir oğlu var. "Mən onunla fəxr edirəm. Onun bir övladını böyüdürəm. Qürurlu olsam da, onun üçün çox darıxıram. Noyabrın 7-si axşam zəng etdi və dedi ki, səni Allaha, İdrisi sənə əmanət edirəm. Vüqar ölümə gedəcək, şəhid olacaq qədər Vətənini çox sevirdi", - deyə şəhidin həyat yoldaşı Tünzalə Səfərova söyləyir.

Vüqar Rüstəmov Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

## ZƏFƏR gündəliyi

### 4 noyabr 2020-ci il

## İlham ƏLİYEV:

## "Biz Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik"

### Düşmənin 2 "T-72" tankı, 3 "D-30" haubitsa topu, 1 zenit qurğusu məhv edilib



**Noyabrın 4-də** gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.

Döyüş əməliyyatları davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 2 ədəd "T-72" tankı, 3 ədəd "D-30" haubitsa topu, 1 ədəd "Zastava M-55" zenit qurğusu, 1 ədəd taktiki PUA-sı, 3 ədəd hərbi yük maşını məhv edilib və sıradan çıxarılıb.

### Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib

Prezident İlham Əliyev xalqa müjdəli xəbər verib. Dövlət başçısı özünün "X" hesabında paylaşım edərək bildirib:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### Ağdam və Tərtər artilleriya atəşinə tutulub




Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutub. Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşin tutulub.

### Düşmənin xüsusi hazırlanmış "M-55" zenit qurğusu məhv edilib

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlər davam etdirilib.

Cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilib.

1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 mm-lik 3 topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

### İlham Əliyev: "Biz öz torpağımızda döyüşürük"



Prezident İlham Əliyev İspaniyanın "EFE" informasiya agentliyinə müsahibə verib.

Cəbhədəki vəziyyəti dəyərləndirən dövlət başçısı deyib ki, Azərbaycan Ordusunun üstünlüyü davam edir: "Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".

Atəşkəsin elan olunmasına və savaşın dayandırılmasına gəlincə isə Prezident deyib ki, Ermənistan elan edilmiş humanitar atəşkəs rejimini hər dəfə pozaraq dinc əhalini hədəfə alıb. Belə olan halda Azərbaycan üçün başqa yol qalmayıb: "Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir".

Prezident vurğulayb ki, məhz bu səbəbdən də Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyincə dayanmayacaq.

### Zəngilanda düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizə qarşı düşmənin diversiya cəhdinin qarşısı qətiyyətlə alınıb.

Ciddi döyüş itkiləri verən düşmənin kəşfiyyat-diversiya qrupu geri çəkilməyə məcbur edilib.

*R.BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...






● GƏNCLİK

## Məsuliyyətdən doğan başucalığı

**Abbas Aqil oğlu Mustafayev 1998-ci il sentyabr ayının 25-də Salyan rayonunda anadan olub. O, orta təhsilini bu sətirlərin müəllifinin bir zamanlar müəllim işlədiyi Salyan şəhər 1 saylı məktəb-liseydə alıb.**



2015-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes və menecment fakültəsinə qəbul olunub. Abbas fəal tələbələrdən biri kimi debat klublarında yarışıb, elmi-intellektual layihələrdə iştirak edib. Fəal bir gənc olaraq müxtəlif sosial layihələrin də müəllifidir. Ali məktəbi başa vurduqdan bir neçə il sonra - 2023-cü ildə ikinci ali təhsil almaq üçün Gəncə Dövlət Universitetinin Tarix fakültəsinə daxil olub, qiyabi təhsil alır.

Abbas 2019-cu ilin oktyabr ayından etibarən əmək fəaliyyətinə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Salyan Regional Bölməsində (indiki Şirvan-Salyan Regional Bölmə) müfəttiş kimi başlayıb. Fəaliyyəti çərçivəsində regionda yerləşən və qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərində - ictimati iaşə müəssisələrində yoxlamalar və maarifləndirmə işləri apararaq xidməti vəzifəsini uğurla icra edib. Xüsusilə 2020-ci ildə - çətin "COVID-19" pandemiyası dövründə gücləndirilmiş iş rejimində çalışan dövlət məmurlarından biri olub və müvafiq sahədə geniş əhatəli maarifləndirmə və nəzarət tədbirləri həyata keçirib.

Abbas 2022-ci ilin iyun ayından etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin Şirvan-Salyan Regional Sektorunun aparıcı mütəxəssisi olaraq çalışır. İdarənin əsas hədəfi tabeliyində olan müəssisələrdə tədris prosesinin həyata keçirilməsi üçün normal infrastrukturun yaxşılaşdırılması və yenilərinin yaradılması məsələləri ilə bağlı problemlərin aradan qaldırılmasıdır. Gənc Abbas da təhsil müəssisələrindəki cari təmir işlərinə nəzarət edir və həmin müəssisələr də həm idarənin, həm də onun işindən razılıq edirlər.

Abbas deyir ki, ilk növbədə təmirə çox ehtiyacı olan, vəziyyəti daha ağır olan məktəb və bağçalarımız diqqət mərkəzindədir: "Təhsil müəssisələrinin istilik problemləri, qışda pedaqoji heyətin və uşaqların normal temperatur rejimində tədris prosesinə cəlb edilməsinə əlverişli şərait yaradılması da bizim öhdəmizə düşür".

A.Mustafayev daim sabaha baxan, həyatda nə iləsə kifayətlənməyən, öz üzərində yorulmadan çalışan gənclərimizdəndir. Belə gənclər müəllimlərinin də, cəmiyyətin də sevimlisidir.

***Gülzar HÜSEYNOVA,***
***təqaüdçü müəllim***

● HEÇ KİM UNUDULMUR

## Qoşa abidə

**Şəhid İman və Bəhrəm Məmmədov qardaşlarının adı çəkiləndə bütün Azərbaycan xalqı qürur hissi keçirir. Dağlar diyarı Lerikin Kəlvəz kəndindən olan vətənpərvər qardaşlar 44 günlük haqq savaşımızda 30 il düşmənə əsir düşən Qarabağımızın xilaskar ərənləri kimi tarixin yaddaşına düşüblər və qazanılan qələbəmizin simvoluna dönüblər.**



Leriklilər öz şəhid oğullarının xatirəsini həmişə əziz tutur, adlarına layiqli işlər görürlər. Onların şərəfinə doğma Kəlvəz kəndində abidə də qoyublar. Bu günlər abidə kompleksinin açılış mərasimi keçirildi. Rayon Mədəniyyət Mərkəzinin dəstəyi sayəsində baş tutan tədbirdə Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin, rayonda fəaliyyət göstərən mədəniyyət müəssisələrinin əməkdaşları, şəhid ailələri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Şəhid qardaşların atası Elman Məmmədov, Heydər Əliyev Mərkəzinin direktoru Hüsaməddin Abbasov və şəhid valideynləri çıxışlarında Vətən müharibəsində Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin qəhrəmanlıqları, şəhidlərin gənclərə nümunə olan qısa, lakin şərəfli ömür yolları barədə böyük iftixarla danışdılar. Qeyd olundu ki, məhz onların döyüş əzmi və Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində torpaqlarımız işğaldan azad edildi.

Natiqlər onu da vurğuladılar ki, bu möhtəşəm abidə gənc nəslin vətənpərvərlik ruhunda böyüməsində böyük əhəmiyyətə malikdir.

***Z.ƏLİYEV,***
***Lerik rayon sakini***

AZƏRBAYCAN-a cavab verirlər

## Bir məktuba iki cavab

**Quba rayonu Uzunmeşə kəndi yaxınlığındakı ərazinin məişət tullantıları ilə çirkləndirilməsi probleminin həlli barədə tədbirin görülməsi ilə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinə ünvanlanmış 2025-ci il 9 sentyabr tarixli müraciətiniz nazirliyin 5 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin əməkdaşları tərəfindən yerində araşdırılmışdır.**

Araşdırma zamanı Quba rayonu Uzunmeşə kəndi ərazisində Alpan bələdiyyəsinin mülkiyyətində olan yaşıllıq sahəsində bir neçə yerdə bərk məişət tullantılarının qalaqlanması faktı aşkar edilmişdir.

Alpan bələdiyyəsinin araşdırmaya təqdim etdiyi 15.10.2025-ci il tarixli arayışda tullantıların qalaqlandığı ərazinin Alpan bələdiyyəsinin mülkiyyətində olduğu sözügedən əraziyə tullantıların naməlum şəxslər tərəfindən atıldığı, ərazinin nəzarətə götürüldüyü və qısa müddət ərzində həmin ərazinin tullantılardan təmizlənəcəyi bildirilmişdir.

Bələdiyyə sədrinə bələdiyyə ərazisində tullantıların qanunvericiliyin tələblərinə uyğun idarə edilməsinə nəzarətin gücləndirilməsi, vətəndaşlar arasında bu sahədə maarifləndirici tədbirlərin keçirilməsi tövsiyə olunmuş, həmçinin aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması barədə Alpan bələdiyyəsinə 2025-ci ilin 21 oktyabr tarixli "Ekoloji tələb" verilmiş və icrası nəzarətə götürülmüşdür.

***Hikmət ƏLİZADƏ,***
***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin rəisi***

***

**"Azərbaycan" qəzetinin 9 sentyabr 2025-ci il tarixli sayında dərc edilmiş "Meşələrimizi zibil poliqonuna çevirməyək" sərlövhəli məqalədə qaldırılmış problemin həlli barədə rayon icra hakimiyyətinə ünvanlanmış məktuba tərəfimizdən baxılmışdır.**

Məlumat üçün bildiririk ki, müraciətlə bağlı müvafiq tədbirlər görülməsi üçün rayon icra hakimiyyəti tərəfindən aidiyyəti üzrə müvafiq qurumlara tapşırıqlar verilmiş, nəticədə tullantılar ərazidən tam şəkildə yığılaraq daşınmış və ərazi əvvəlki təbii vəziyyətinə gətirilmişdir.

Əlavə olaraq bildiririk ki, ərazidə belə halların təkrarlanmaması üçün maarifləndirmə tədbirləri həyata keçirilmiş, ətraf kənd və yaşayış məntəqələrinin sakinlərinə tullantıların təbiətə atılmasının zərərli nəticələri barədə izahat işi aparılmışdır. Hazırda ərazidə mütəmadi nəzarət tədbirləri davam etdirilir.

***Tariyel İBRAHİMOV,***
***Quba Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, başçının səlahiyyətlərini müvəqqəti icra edən***

● GİLEY

## Yolumuz təhlükə saçır

**Biz Bakı şəhəri Sabunçu rayonu, Yeni Ramana qəsəbəsi, Qarabağ küçəsində yaşayırıq. Yaşadığımız qəsəbə "Köhnə aeroport" adlanan avtomobil yolunun üzərindədir. Həmin avtomobil yolu Sabunçu rayonu ilə Suraxanı rayonunu ayırır. Bu yol "Komsomol dairəsi"ndən başlayaraq, "Şuşa" qəsəbəsinə və yeni aeroport xəttinə birləşir.**



Diqqətinizə çatdırırıq ki, qeyd edilən avtomobil yolu çox böyük təhlükə mənbəyidir. Belə ki, bu yol üzərində hər iki tərəfdə çox sayda əhali məskunlaşıb. Yol darısqaldır, çünki hər iki tərəfdə çoxlu iaşə obyektləri tikilib. Maraqlısı odur ki, bu magistralda hərəkətin intensiv olmasına baxmayaraq, heç bir texniki vasitələrdən istifadə edilmir. Bu gün Azərbaycanın ən ucqar kəndlərindəki avtomobil yolları belə texniki vasitələrlə təchiz olunub. Lakin ən çox hərəkət olan bu magistralda nə bir işıqfor, nə bir radar, nə də bir qadağanedici işarələr var. Magistralda hətta yol polisi də xidmət aparmır. Sürücülər də bundan istifadə edərək hər gün çoxlu qəza vəziyyəti yaradırlar.

İndi bizi bir sual düşündürür: belə təhlükəli vəziyyət nə vaxtacan davam edəcək?

**Bakı şəhəri Sabunçu rayonu, Yeni Ramana qəsəbəsi, Qarabağ küçəsinin sakinləri adından:**

***Tahirə Əsgərova, Rabil Həmzəyev, İntizam Sadıqov, Nərminə Quliyeva, Günel Abbasova, Xatirə Əliyeva, Nuriyyə Osmanova, Aynurə Məmmədova, Afiq Osmanov, Aslan Arixov***

● FOTOFAKT

## Təmir-tikinti işləri şəhərin ritmini və vətəndaşların rahatlığını pozmamalıdır








**Ölkədə son illər tikinti, kommunikasiya və abadlıq işlərinin artması şəhərlərin ümumi infrastrukturunun inkişafı baxımından müsbət hadisə sayılsa da, bu prosesin bəzən uzunmüddətli və nizamsız aparılması yaşayış məskənlərində və əhalinin gündəlik həyatında ciddi narahatlıqlar yaradır.**

Şəhər və ya qəsəbələrdə yeni infrastrukturun yaradılması və ya yol təmiri adı ilə aylarla uzanan işlər mövcuddur. Yollar müxtəlif xidmət təşkilatları - ADSEA, "Azəristiliktəchizat", "Azəriqaz" və s. qurumlar tərəfindən qazılır, sonra uzun müddət bərpa olunmur, AAYDA tərəfindən asfalt örtüyünün salınması gecikdirilir, nəticədə ərazilər "yarımçıq inşaat zonası"na çevrilir. Belə mənzərə həm nəqliyyatın normal hərəkətinə, həm də piyadaların gediş-gəlişinə mane olur.

Problemin kökündə əsasən bir neçə amil dayanır. Əvvəla, layihələrin icrasında koordinasiya zəifdir. Məsələn, müəyyən bir küçədə təbii qaz və ya su xətlərinin dəyişdirilməsi başa çatdıqdan sonra həmin yolun bərpası üçün digər qurumu həftələrlə, bəzən aylarla gözləmək lazım gəlir. Bu vaxt ərzində dağıdılmış ərazi açıq vəziyyətdə qaldığından torpaq çökür, yağış yağdıqda palçıq əmələ gəlir, yayda isə toz qalxır. Ən əsası, vurulan asfalt örtüyünün altı boş olduğu üçün yolu əvvəlki vəziyyətə gətirmək mümkün olmur. Nəticədə yol getdikcə keçilməz hala düşür.

Bundan başqa, bəzi hallarda podratçı şirkətlər işə vaxtında başlayır, lakin çox keçmir, texniki və maliyyə səbəblərdən onu dayandırır. Büdcə vəsaitlərinin mərhələli ayrılması, tender mexanizmlərindəki gecikmələr və ya layihə sənədlərindəki dəyişikliklər nəticəsində işin sürəti aşağı düşür. Bu zaman yolun bir hissəsində işlər tamamlanır, digərində isə heç başlamır da. Halbuki dünyada bu kimi problemlərin qarşısı ciddi planlaşdırma və məsuliyyət mexanizmləri ilə alınır, növbəlilik əsasında iş rejimi tətbiq olunur. Məsələn, Almaniya, Yaponiya, Cənubi Koreya və Skandinaviya ölkələrində yol tikintisi və təmiri işlərinə başlamazdan əvvəl bütün kommunikasiya xətləri, layihənin mərhələləri və icra qrafiki bir mərkəzdən idarə edilir. Hər bir addım üçün konkret vaxt müəyyən olunur və gecikməyə yol verən podratçılar cərimələnir. Əlavə olaraq, işlər çox vaxt gecə saatlarında, yəni nəqliyyatın minimal olduğu vaxtda aparılır, eyni zamanda problemin tez aradan qaldırılması üçün daha çox işçi qüvvəsi cəlb olunaraq növbəlilik tətbiq edilir. Bununla həm tıxacın qarşısı alınır, həm də şəhər həyatının gündəlik ritmi pozulmur.

Amma bizdə çox zaman tikinti və abadlıq işləri günün pik saatlarında - hərəkət sıxlığı zamanı həyata keçirilir. Bu isə həm sürücülərin əsəblərinin gərilməsinə, həm də işin səmərəsinin azalmasına gətirib çıxarır. Bundan başqa, müvəqqəti alternativ yollar müəyyən edilmir və təmir gedən əraziyə yaxın yerlərdə xəbərdarlıq nişanları quraşdırılmır. Yol abadlığı ilə bağlı digər problem işin keyfiyyətinə lazımi nəzarətin olmamasıdır. Bəzən asfalt örtüyü elə tələsik salınır ki, bir neçə ay sonra dağılır, qabarmalar və çatlar yaranır. Bu da dövlət büdcəsindən ayrılan vəsaitin səmərəsiz istifadəsi deməkdir. Əgər iş keyfiyyətli aparılsa, eyni yolda təkrar-təkrar təmirə ehtiyac da qalmaz.

Bütün bunların qarşısını almaq üçün əsas çıxış yolu vahid idarəetmə və dəqiq planlaşdırmanın tətbiqidir. Yəni bir küçə və ya prospektdə aparılan bütün kommunikasiya və abadlıq işləri eyni mərkəzdən həyata keçirilməlidir ki, işlər ardıcıl və vaxt itirilmədən görülsün.

Yol tikintisi təkcə texniki deyil, həm də sosial məsuliyyət məsələsidir. Çünki o, vətəndaşın və şəhərin gündəlik həyatına birbaşa təsir göstərir. Uzunmüddətli qazıntılar, bitməyən işlər və dağılmış yollar əhalinin fiziki və psixoloji rahatlığına mənfi təsir etməklə bərabər, şəhərin normal ritmini də pozur. Gəlin unutmayaq ki, bir şəhərin müasirliyi onun yollarının vəziyyəti ilə də ölçülür. Əgər biz inkişaf etmiş şəhər mühitindən danışırıqsa, o zaman yolların da səliqəli və təhlükəsiz olması vacibdir.

***Nərminə ƏSGƏROVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***








● TƏKLİF

## Zibil konteynerlərinə ehtiyac var

**Yaşadığımız Yaşma massivində əvvəllər 5-10 ev var idi. İndi isə burada 1000-ə yaxın ailə yaşayır. Bütün infrastruktur normal şəkildə qurulub.**



Gün ərzində Sumqayıtda ictimai nəqliyyat ardıcıl şəkildə işləyir. Son zamanlar internetlə də təmin edilmişik. 90 döngəsi, 4 küçəsi olan Yaşmada təmizlik məsələləri də normaldır. Hərə öz qapısının ağzını təmiz saxlayır. Evlərin qarşısında quraşdırılan işıqlandırma sistemi isə məhəllələrin gecəsini gündüzə çevirir.

Amma ərazidə bir dənə də olsun zibil konteyneri yoxdur. Əhali tullantıları hara gəldi atır. Massivin bir addımlığında yerləşən Şirvan qəsəbəsində yol kənarına onlarca zibil qabı qoyulub. Yaşıllıq içində olan, əsasən bağ evlərindən ibarət olan Yaşmaya 10-15 zibil konteyneri kifayət edər ki, yol ətrafına zibil atılmasın. Görəsən bunu anlamaq o qədərmi çətindir?!

***İsmayıl ƏLİZADƏ,***
***Sumqayıt şəhər Yaşma massivinin sakini***

● SADƏ PEŞƏ ADAMI

## Sənətini tezliklə Qubadlıda davam etdirəcək

**Məcburi köçkün həyatı hər kəs üçün çətin sınaq dövrü idi. Lakin bu sınaqlar bəzən insanlarda güclü iradə, peşəyə sevgi və əmək əzmi formalaşdırır. Qubadlı rayonunun Mərdanlı kəndindən məcburi köçkün düşmüş Muxtar Nəriman oğlu Nəzərov da belə insanlardandır.**

Hələ Qubadlıda yaşayanda bu peşəni öyrənmək üçün evlərinin yaxınlığında işləyən ayaqqabı ustasının yanında oturardı. Usta da ondakı həvəsi görüb ona sənətin sirlərini öyrədərdi. Sumqayıtda ilk illər zavodlardan hansısa birində işləmək istəyirdi. Amma özünün dediyi kimi, heç bir yerdə qərar tuta bilmədi.

2000-ci ildən ayaqqabı ustası kimi fəaliyyət göstərən Muxtar Nəzərov artıq 25 ilə yaxındır ki, bu sənətlə məşğuldur. O, hazırda Sumqayıt şəhərinin 1-ci mikrorayonunda yerləşən ayaqqabı təmiri köşkündə çalışır. Kiçik bir köşk olsa da, Muxtar ustanın əlləri ilə orada böyük işlər görülür, köhnə ayaqqabılar yenilənir. Muxtar usta işinə göstərdiyi dəqiqlik və səliqə ilə müştərilərinin rəğbətini qazanıb. Çünki onun üçün bu iş, sadəcə, bir qazanc vasitəsi deyil, həm də həyat tərzidir. O öz peşəsinə hörmətlə yanaşır, ona görə də müraciət edənlər ustanın həm peşəkarlığından, həm də insanlığından razılıq edirlər.

Tezliklə geri dönəcəkləri Qubadlıda da sənətini davam etdirəcək Muxtar usta kimi insanlar cəmiyyətimizdə dürüstlüyün və sənətə bağlılığın nümunəsidirlər.



***Vaqif BABAYEV,***
***Qubadlı rayon sakini,***
***Sumqayıt***

# Ermənistan iqtidarı kilsə və revanşistlərə qarşı daha qətiyyətli addımlar atır

**Ermənistanda iqtidar-kilsə qarşıdurması getdikcə daha da şiddətlənir. Yerli kilsə uzun illərdir ki, daha çox siyasi-ideoloji fəaliyyəti ilə diqqəti çəkir. Haqq, ədalət, barışıq yerinə, kin-küdurət, düşmənçilik toxumları səpməyə, nifaq salmağa cəhd edir.**



Baş nazir Nikol Paşinyanla kilsə arasında mövcud olan və xeyli müddətdir davam edən qarşıdurma artıq açıq müstəviyə keçib. Hələ bu ilin may ayının sonlarından başlayaraq Erməni Apostol Kilsəsinin qanunsuz əməlləri ilə bağlı Ermənistanın Baş nazirinin sosial şəbəkələr üzərindən paylaşımları da bunu təsdiq edirdi.

Ermənistanda hakimiyyətə kimin gəlməsinə, ölkənin necə idarə olunmasına qədər bütün məsələlərə cidcəhdlə müdaxilə edən kilsənin planları ilə Nikol Paşinyanın baş nazir vəzifəsinə gəlməsi üst-üstə düşməyib. Nəticədə Paşinyanın hələ hakimiyyətə gəlməsindən qabaq başlayan gərginlik səngiməyib.

Son illər Ermənistanın Baş nazirinin müharibədən bezən, sülh istəyən erməni qüvvələri ilə həmrəy olması da kilsə və revanşistləri narazı salan səbəblərdəndir. Çünki zaman keçdikcə onlar daha aydın görürlər ki, hakimiyyətdən narazı qüvvələri və Qarabağı tərk edən separatçıları səfərbər etmək, qarışıqlıq yaratmaq və vəziyyətdən yararlanmaq niyyətini gerçəkləşdirə bilməyəcəklər. Başa düşürlər ki, müharibədə məğlub olmuş Nikol Paşinyan hökumətini devirmək arzusunu reallaşdırmaq, bu məqsədlə qızışdıraraq küçələrə çıxardıqları kütləni idarə edən arxiyepiskop Mikael Ajapaxyan və arxiyepiskop Baqrat Qalstanyan kimi onlara da nəsib olmayacaq. Əksinə, hadisələrin gedişi göstərir ki, Ermənistan iqtidarı bu gün kilsə və revanşistlərə qarşı daha qətiyyətli addımlar atır.

Ermənistanda bu ilin iyununda ilk həbslər həyata keçirilib. Belə ki, iyunun 25-də "konstitusional quruluşu zorla dəyişdirməyə çağırış"a görə saxlanılan arxiyepiskop Baqrat Qalstanyana qarşı Ermənistan İstintaq Komitəsi tərəfindən "hakimiyyəti ələ keçirmə planı"nda iştirak etmək ittihamı irəli sürülüb.

Kilsə rəhbərliyinin ittihamlara "siyasi sifariş", "dini azadlıqlara zərbə" donu geyindirmək planı baş tutmayıb. Çünki kilsənin siyasətlə dindən müqayisəedilməz dərəcədə çox məşğul olduğu, ölkədə qarışıqlıq yaratdığı, hakimiyyətə çevriliş cəhdləri göz önündədir. Odur ki, rəsmi İrəvan bu istiqamətdə növbəti tədbirlər həyata keçirməli olub. Oktyabrın 15-də təhlükəsilik qüvvələri Araqatsotn yeparxiyasının rəhbəri yepiskop Mkrtiç Proşyan da daxil olmaqla 13 din xadimini saxlayıb. Yepiskop da daxil olmaqla üç saxlanılan şəxs barəsində cinayət işi başlanıb. Onlara vətəndaşları ictimai toplantılarda iştirak etməyə məcbur etmə ittihamı ilə yanaşı, "Etibardan sui-istifadə etməklə özgənin əmlakını mənimsəmə, külli miqdarda və vəzifə səlahiyyətlərindən istifadə etməklə törədildikdə" və "Vəzifə mövqeyindən istifadə etməklə seçki hüquqlarının həyata keçirilməsinə mane olma" maddələri ilə ittiham irəli sürülüb. Erməni mediası hakimiyyətin ruhanilərə hücumunun bütün yeparxiyanı iflic vəziyyətinə saldığını yazıb. Erməni Apostol Kilsəsinin üç yeparxiyasının rəhbəri - Araqatsotndan Proşyan, Şirakdan Mikael Ajapaxyan və Tavuşdan Baqrat Qalstanyan hazırda həbsdədir. Ajapaxyan dövlət çevrilişinə çağırışa görə 2 il, Qalstanyan isə üsyan hazırlamağa görə 15 ilə qədər, kilsənin müdafiəsi üçün ilk çıxış edənlərdən biri olmuş, parlament müxalifətinin Paşinyanı sakitləşdirə bilməsə, başqa üsullara əl atacağını bəyan etmiş, hazırda Ermənistan hakimiyyəti tərəfindən dövlət çevrilişinə çağırışda suçlanan oliqarx Samvel Karapetyanı isə 5 ilədək həbs gözləyir.

Ermənistan hökumətinin qərarı ilə qondarma "erməni soyqırımı memorialı"nda aparılan təmir-bərpa işləri də qriqorian kilsəsinin və revanşist qüvvələrin əlində qarışıqlıq yaratmağa cəhd etmək üçün bəhanə olub. Ermənistandakı bəzi qüvvələr hökumətin qondarma "erməni soyqırımı kompleksini" bərpa adı ilə əslində, tamamilə məhv etmək istədiyini iddia ediblər. Ermənistan Memarlar Palatası bəyanat yayaraq, "erməni soyqırımı memorialında" davam edən bərpa işlərinin dərhal dayandırılmasını və yeni peşəkar qrupun yaradılmasını tələb edib.

Bu günlərdə Ermənistan parlamenti kilsənin təsis etdiyi "Şoqakat" telekanalının fəaliyyətinin dayandırılması barədə qərar qəbul edib. Məlumata görə, bu addım ölkədə ictimai yayım statusuna malik telekanalların sayının azaldılmasını nəzərdə tutan qanun dəyişikliyi ilə əlaqədardır. Yeni qərara əsasən, kilsəyə və bir sıra ictimai təşkilatlara məxsus media qurumları ictimai yayım statusundan məhrum ediləcək. Bunun nəticəsində dini və mədəni proqramlar yayımlayan "Şoqakat" telekanalı fəaliyyətini dayandırmalı olacaq.

Qeyd etdiyimiz kimi, baş verən hadisələr fonunda iqtidarın qətiyyətli mövqeyi aydın görünür. Ermənistan parlamentinin spikeri Alen Simonyan jurnalistlərə açıqlamasında bildirib ki, 2026-cı il parlament seçkilərindən əvvəl Erməni Apostol Kilsəsinin rəhbərliyində dəyişiklik baş verməlidir. O, kilsə rəhbərinin dəyişdirilməsinin təxirə salınma ehtimalı ilə bağlı suala cavab olaraq vurğulayıb: "Xeyr, bunu seçkilərdən əvvəl siyasiləşdirmək olmaz".

Ermənistan parlamentinin spikeri bütün ermənilərin katolikosu II Qaregini vaxtında istefa verməyə çağırıb: "O başa düşməlidir ki, işlərin alternativi olmayan bir nöqtəyə çatmasına imkan verməməlidir. Alternativi olduğu müddətcə bu qərarı özü verə bilər".

Bildiyimiz kimi, Nikol Paşinyana qarşı istifadə etmək üçün hər yola əl atan qüvvələrin indi ən böyük arzuları onun 2026-cı ildə keçiriləcək seçkilərdə məğlub olmasıdır. Hazırda kilsə bu istiqamətdə hərəkət edir, Paşinyanı nüfuzdan salmaq məqsədilə cəmiyyətdə geniş kampaniya aparır. Lakin Ermənistanda mövcud olan ab-hava və iqtidarın verdiyi məqsədyönlü qərarlar, həyata keçirdiyi tədbirlər deməyə əsas verir ki, kilsə və revanşist qüvvələr öz məqsədlərinə çatmayacaqlar.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Onlar beynəlxalq hüquq baxımından müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərdir" - Ermənistan vətəndaşlarının məhkəməsində prokurorların çıxışı başladı

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası noyabrın 3-də davam etdirilib.**



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmədə çıxış üçün dövlət ittihamını müdafiə edən prokurorlara söz verilib. Qeyd edək ki, ötən məhkəmə iclasında tərəflər məhkəmə istintaqının yekunlaşmasına etiraz etmədiklərini, təqdim və tədqiq edilən sübutlarla kifayətləndiklərini bildirmişdilər. Dövlət ittihamını müdafiə edən prokurorlar isə çıxış üçün noyabrın 3-dək onlara vaxt verilməsini məhkəmədən xahiş etmişdilər.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev çıxışında bildirib ki, bir ilə yaxın müddət ərzində 100-ə yaxın məhkəmə iclası keçirilib. 500 saatdan artıq müddət ərzində sənədlər və sübutlar tədqiq olunub.

Dövlət ittihamını müdafiə edən prokuror daha sonra deyib: "Təqsirləndirilən şəxslər, zərərçəkmişlər və şahidlər dindirilib. İbtidai istintaq zamanı toplanmış, həmçinin müdafiə tərəfinin təqdim etdiyi sübutlar məhkəmə iclaslarında bir-bir nəzərdən keçirilib. İttiham tərəfi olaraq hesab edirik ki, hazırkı proses üzrə təqsirləndirilən şəxslərin 1988-ci ildən etibarən törədilmiş çoxsaylı cinayət əməllərinə görə təqsirləri təqdim edilmiş sübutlar əsasında öz təsdiqini tapıb".

Qeyd edilib ki, çıxışda təqsirləndirilən şəxslərə verilmiş ittihamlar bir daha nəzərdən keçiriləcək. Ermənistan dövləti və onun formalaşdırdığı cinayətkar birlik tərəfindən törədilmiş cinayətlər, həmin cinayətlərin törədilməsində təqsirləndirilən şəxslərin iştirakını təsdiqləyən sübutlar yenidən təhlil edilərək qiymətləndiriləcək.

V.Əliyev bildirib ki, hazırkı məhkəmə qarşısında duran təqsirləndirilən şəxslər qeyd edilən çoxsaylı cinayətlərin törədilməsində iştirak etmiş şəxslərin yalnız bir qismidir.

Diqqətə çatdırılıb ki, ümumilikdə təqsirləndirilən şəxslər şərti olaraq 15 fəslə bölünmüş, Ermənistan dövləti və onun formalaşdırdığı cinayətkar birlik tərəfindən 1988-ci ildən etibarən 2023-cü il sentyabrın 20-dək olan müddət ərzində törədilmiş cinayətlərdə onların fəaliyyətini əhatə edən dövrlərə müvafiq şəkildə bilavasitə və ya dolayı yolla iştirak etməkdə ittiham olunurlar.

V.Əliyev həmçinin ittiham çıxışının 6 hissədən ibarət olduğunu bildirib.

Əvvəlcə, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalını ehtiva edən cinayətkar niyyətin yaranmasını və cinayətkar birliyin ilkin mərhələdə formalaşdırılmasını təsdiqləyən sübutlar elan edilib.

Dövlət ittihamını müdafiə edən prokuror cinayətkar birliyin hüquqi anlayışını izah edib, daha sonra cinayətkar birliyin formalaşdırılmasını təsdiq edən sənədləri və sübutları elan edib.

Bildirilib ki, məhkəmə iclasında tədqiq edilmiş digər sənədlərlə də cinayətkar birliyin rəhbərlərinin əsas məqsədinin nəyin bahasına olursa-olsun Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ bölgəsinin ərazisinin Azərbaycanın tərkibindən ayrılmasına nail olmaq, həmin əraziləri işğal etmək olması təsdiq edilib.

İttiham tərəfi cinayətkar birliyin yaradılma əsaslarının ideoloji və tarixi ardıcıllığını da diqqətə çatdırıb.

Bildirilib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyində çalışan şəxslər, cinayətkar ideyaların həmin dövrdə təbliğat və təşviqatçıları, habelə ideoloqları Balayan Zori Hayki, Kaputikyan Silva Barunakovna, Muradyan İqor Maratoviç, Manukyan Vazgen Mikaeli, Manuçarov Arkadi Manveli, Qukasyan Arkadi Arşaviroviç, Melik-Şahnazaryan Levon Qrantoviç, Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Babayan Samvel Andraniki, Sefilyan Jirayr Simonoviç, Balasanyan Vitali Mikaeli, Karapetyan Arkadi Muradoviç, Petrosyan Qeorqi Mikaeli və qeyriləri, habelə öz qulluq mövqelərindən cinayətkar məqsədləri üçün istifadə etməkdən ötrü keçmiş SSRİ-nin rəhbərliyində müxtəlif vəzifələrdə təmsil olunan erməni və ya ermənipərəst şəxslər ciddi rol bölgüsünə əsaslanan sabit mütəşəkkil cinayətkar qruplar və onların sabit birliyini, yəni cinayətkar təşkilat yaratmaqla açıq şəkildə fəaliyyət göstərməyə başlayıb. Onlar Ermənistan cəmiyyətində Azərbaycan xalqına qarşı milli-etnik nifrət və düşmənçiliyə əsaslanan "Miatsum" ("Birləşmə") adlandırdıqları ideyalar ətrafında cinayətkar təşkilatda birləşiblər.

Daha sonra Azərbaycan Respublikasının suveren ərazilərinin işğalı, işğal dövründə törədilmiş soyqırımı və əhalinin məhv edilməsi, terror və digər cinayət faktlarını təsdiq edən sənədlər və sübutlar diqqətə çatdırılıb.

Vurğulanıb ki, Ermənistanın Azərbaycana qarşı apardığı silahlı münaqişə beynəlxalq hüquq baxımından təcavüzkar müharibə kimi qiymətləndirilməlidir.

Bildirilib ki, Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın suveren əraziləri uzun müddət işğal altında saxlanılıb. İşğalın planlı şəkildə həyata keçirilməsi və davam etdirilməsi Ermənistan dövlətinin rəsmi strukturları, silahlı qüvvələri və qeyri-rəsmi silahlı birləşmələrinin vahid strateji plan və rəhbərlik altında fəaliyyət apardığını göstərir. Bu, Ermənistan siyasi-ideoloji mühitində uzun illər formalaşdırılmış və "böyük Ermənistan" konsepsiyası ilə əsaslandırılan ekspansionist ideologiyanın bir təzahürü olub.

Bildirilib ki, təcavüzkar müharibə nəticəsində 1988-1994-cü illər ərzində Azərbaycan Respublikasının 12 şəhəri, 18 qəsəbəsi, 895 kəndi olmaqla cəmi 925 yaşayış məntəqəsi işğal edilib.

Prokuror Xankəndi şəhərinin və Kərkicahan qəsəbəsinin işğalı, Xocalı rayonunun işğalı və Xocalı soyqırımı, helikopterlə silah daşınması, Meşəli qətliamı və digər hissələri də ittiham çıxışında diqqətə çatdırıb.

İttiham çıxışını Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramov davam etdirib. O, ittiham çıxışının Şuşa şəhərinin işğalı və Malıbəyli-Quşçular kəndlərinin əhalisinin qismən məhv edilməsi, Kərki kəndinin (Naxçıvan Muxtar Respublikası) işğalı, Qazax rayonunun Bağanıs-Ayrım, Aşağı Əskipara, Yuxarı Əskipara, Xeyrımlı, Barxudarlı, Sofulu, Qızılhacılı kəndlərinin işğalı, Bağanıs-Ayrım kəndinin əhalisinin qismən məhv edilməsi, Xocavənd rayonunun işğal olunması və Qaradağlı kəndinin əhalisinin qismən məhv edilməsi, 1991-ci il noyabrın 20-də vertolyotun vurulması, Goranboy rayonunun Ballıqaya və Gülüstan kəndlərinin əhalisinin qismən məhv edilməsi ilə bağlı hissələrini elan edib.

Qeyd olunub ki, təcavüzkar plana uyğun olaraq 1992-ci il mayın 8-də Ter-Tadevosyan Arkadi İvanoviçin Ermənistandan aldığı tapşırıq və göstərişlərə söykənmiş rəhbərliyi ilə Şuşa şəhərinə şimal-qərb, şimal, şimal-şərq və şərq tərəfdən olmaqla 4 istiqamətdən ayparaşəkilli (nalvari) hücum olub, şəhər işğal edilib.

Dövlət ittihamını müdafiə edən prokuror Fuad Musayev Ermənistanın apardığı təcavüzkar müharibənin gedişində Kəlbəcər, Tərtər rayonunun bəzi kəndləri, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının işğal edilməsi, Ağdaban və Comərd kəndləri ərazisində, həmçinin Kəlbəcər-Laçın avtomobil yolunun üzərində yerləşən strateji əhəmiyyətli "Tunel" adlandırılan mövqenin ələ keçirilməsi, həmin ərazidə əhalinin və Başlıbel kəndinin əhalisinin məhv edilməsi, eləcə də 2016-cı ilin Aprel döyüşləri ilə bağlı olan hissələri məhkəmə iştirakçılarının diqqətinə çatdırıb.

Bildirib ki, təqsirləndirilən şəxslər müstəqil Azərbaycan dövlətinə qarşı Ermənistan tərəfindən aparılmış təcavüzkar müharibənin və işğal siyasətinin "qəhrəmanları" kimi təqdim edilsələr də, əslində, beynəlxalq hüquq baxımından müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərdir.

Daha sonra prokuror təqsirləndirilən şəxslərin Azərbaycanın suveren ərazilərinin işğal edilməsində iştirakı ilə əlaqədar bəzi məqamları qeyd edib.

Dövlət ittihamını müdafiə edən prokuror Təranə Məmmədova isə ittiham çıxışının 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələrinin Tovuza hücumu (Tovuz döyüşləri), habelə 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ayrı-ayrı şəhər və rayonlarını (Gəncə, Mingəçevir, Bərdə, Tərtər və s.) atəşə tutması, nəticədə insanların qətlə yetirilməsi, yaşayış evlərinin, infrastrukturun məhv olması və s. ilə bağlı hissələrini diqqətə çatdırıb.

Dövlət ittihamını müdafiə edən prokuror Vüsal Abdullayev ittiham çıxışının təcavüzkar müharibənin gedişində törədilmiş zorakılıqla yoxa çıxarma, əsir və girov götürülərək işgəncələrə məruz qoyma faktları, ərazilərin minalanması, mina partlayışları yolu ilə təcavüzün davam etdirilməsi faktları, təcavüzkar müharibənin gedişində törədilmiş terrorçuluq cinayət faktları, muzdlu döyüşçülərdən istifadə edilməsi faktları üzrə olan hissələrini elan edib.

Habelə təcavüzkar müharibənin davamı kimi işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırılma, Azərbaycan Respublikasının işğal edilmiş suveren ərazilərində hakimiyyətin zorla ələ keçirilməsi və qanunsuz idarəçilik rejiminin tətbiq edilməsi, Azərbaycan Respublikasının hərbi arsenalına ziyan vurulması və silah-sursatın, hərbi texnikanın və digər avadanlıqların işğal edilmiş ərazilərə daşınması və yerləşdirilməsi ilə bağlı cinayətlər, Azərbaycan Respublikası iqtisadiyyatına qəsdən ziyan vurulması və işğal olunmuş ərazilərdə terrorçuluğun maliyyələşdirilməsi faktları üzrə olan hissələr də elan edilib.

İttiham tərəfinin çıxışları zamanı məhkəmə zalındakı monitorlarda müvafiq fotoşəkillər, xəritələr, rəqəmlər və s. nümayiş etdirilib.

Məhkəmə prosesi noyabrın 6-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

# Donald Tramp şatdauna son qoyulması üçün demokratlarla sövdələşməyə getməyəcək

## ABŞ Prezidenti "demokratların şantajı"na təslim olmayacağını deyir

**ABŞ Prezidenti Donald Tramp Demokrat Partiyasının şantajına təslim olmağı və federal hökumətin maliyyələşdirilməsinin bağlanmasına son qoymaq üçün razılığa gəlməyi planlaşdırmadığını bildirib. O, bu açıqlamanı "CBS News" telekanalına müsahibəsində verib.**

Jurnalistin, - "Tramp əvvəllər güzəştlər tapmaqda və bağlanmalardan yayınmaqda usta olub" - qeydinə - D.Tramp - "Mən bu işdə çox yaxşıyam. Amma bunu yolunu azmış demokratlar tərəfindən şantaj olunmaqla etməyəcəyəm. Bu insanlarda problem var", - cavabını verib. O, eyni zamanda bağlanmanın tezliklə başa çatacağına və ABŞ hökuməti üçün maliyyələşdirmənin bərpa olunacağına əminliyini ifadə edib. "Biz bunu həll edəcəyik. Nəticədə, onlar səs verməli olacaqlar".



ABŞ federal hökumətinin qismən bağlanması oktyabrın 1-də gecə yarısında maliyyə çatışmazlığı səbəbindən başlayıb. Bu, Konqresdəki hakim Respublikaçı və müxalifət Demokrat partiyalarının nümayəndələrinin, səhiyyə də daxil olmaqla, bir neçə xərc maddəsi üzrə razılığa gələ bilməməsi səbəbindən baş verib. Demokratlar və Respublikaçılar bir-birilərini bağlanmanı təhrik etməkdə və siyasi məqsədlər üçün uzatmaqda ittiham edirlər.

ABŞ Konqresi yeni maliyyə ili üçün büdcəni qəbul edə bilmədiyinə görə federal hökumət oktyabrın 1-dən etibarən fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb, yəni şatdaun vəziyyəti yaranıb. Analitiklərin hesablamalarına görə, şatdaunun hər həftəsi ölkə iqtisadiyyatına 7 milyard dollara başa gələcək. "Politico" isə bildirib ki, uzunmüddətli bağlanma nəticəsində ABŞ hər həftə ÜDM artımında 15 milyard dollardan məhrum ola bilər.

Qeyd edək ki, şatdaun zamanı dövlət qurumlarına pul xərcləmək qadağan edilir, əksər dövlət qulluqçuları ödənişsiz məzuniyyətə göndərilir, tibb işçiləri, sərhədçilər, hərbi qulluqçular, nəqliyyat işçiləri və sair ödənişsiz işləyirlər.

Xatırladaq ki, 1977-ci ildən bəri administrasiya ilə Konqres arasındakı fikir ayrılıqları səbəbindən federal hökumətin maliyyələşdirilməsi 20 dəfədən çox dayandırılıb. Ən uzun müddət Donald Trampın birinci prezidentliyi zamanı - 22 dekabr 2018-ci ildən 25 yanvar 2019-cu ilə qədər 35 gün olub.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

## "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi müəyyən olunmuş şəxslərin iştirakı ilə inklüziv incəsənət nümunələrinin hazırlanması" adlı müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 18 noyabr 2025-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 19 noyabr 2025-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5036)**

***Müsabiqə komissiyası***

# Sağlamlığı təhdid edən texnoloji asılılıq

**Müasir dövrdə həyatımızın böyük hissəsi ekran qarşısında keçir. Günümüz telefona baxmaqla başlayır, gün ərzində kompüterdə işləyir, axşam isə televizor qarşısında dincəlirik. İstər iş, ünsiyyət, istərsə də əyləncə vasitəsi kimi texnoloji cihazlardan, demək olar ki, böyükdən-kiçiyə hər kəs istifadə edir.**



Texnoloji yeniliklərin bu qədər asanlıqla qəbul edilməsinin səbəbi onların insanların işini yüngülləşdirməsi və həyat səviyyəsini yüksəltməsidir. Lakin narahatedici məqam odur ki, bu cihazlar işimizi asanlaşdırmaqla yanaşı, həm də asılılıq yaradır, fiziki və psixoloji sağlamlığa mənfi təsir göstərir.

Özünənəzarətin itirilməsi, dəyişən prioritetlər və məmnunluq hissinin zəifləməsi telefon, televizor və kompüterlərdən asılılığın əsas əlamətləridir. London Kral Kollecinin Psixiatriya, Psixologiya və Neyrologiya İnstitutunun mütəxəssisləri bildirirlər ki, böyüklər üçün gündə 2-3 saatdan çox olmayan əyləncə məqsədli ekran vaxtı məsləhət görülür. İş və təhsil məqsədli istifadə bu hesaba daxil edilmir. Uşaqlar və yeniyetmələr üçün bu müddət 1-2 saatı keçməməlidir, iki yaşdan kiçik uşaqlara isə, ümumiyyətlə, ekranla təmas məhdudlaşdırılmalıdır.

### Televizorun gizli təsirləri

Demək olar ki, bütün evlərdə televizor var. İnsanlar çox vaxt fərqinə varmadan ekran qarşısında saatlarla vaxt keçirirlər. Bu məşğuliyyətin sağlamlığa zərərləri isə saymaqla bitmir. Bunlardan biri də demans xəstəliyidir.

Demans idrak qabiliyyətinin azalması, yaddaş problemləri, davranış dəyişiklikləri və hərəkət çətinliyi ilə müşayiət olunan ciddi xəstəlikdir. Daha çox yaşlı insanlarda rast gəlinən bu xəstəliyin inkişafına bir sıra amillər təsir göstərir. Araşdırmalar sübut edib ki, uzun müddət televizora baxmaq bu amillərdən biridir.

Çinin Tianjin Tibb Universitetinin tədqiqatçıları müəyyən ediblər ki, gündə beş saatdan çox televizora baxmaq demans riskini 44 faiz, insult riskini 12 faiz və Parkinson xəstəliyinə tutulma ehtimalını isə 28 faiz artırıb. Tədqiqatda yaşı 37-73 olan 40 minə yaxın insan iştirak edib. 13 illik araşdırma müddətində iştirakçılardan 5227 nəfərə demans, 6822 nəfərə insult, 2308 nəfərə isə Parkinson xəstəliyi diaqnozu qoyulub.

Ekrana uzun müddət baxmaq həmçinin göz sağlamlığı üçün də zərərlidir. Rəqəmsal ekranlı televizorlar insan gözü üçün təhlükəli olan mavi işıq yayır. Bu işığa uzun müddət məruzqalma görmə problemlərinə, baş, boyun və çiyin ağrılarına səbəb olur. Mütəxəssislər mavi işıqdan qorunmaq üçün qoruyucu eynək və linzalardan istifadə etməyi, televizora 2-3 metr məsafədə, yaxşı işıqlandırma şəraitində baxmağı tövsiyə edirlər.

### Telefon - cibimizdəki asılılıq mənbəyi

Telefonlar təkcə ünsiyyət vasitəsi deyil, həm də diqqət, vaxt və duyğularımızı idarə edən alətlərə çevrilib. "Telefon asılılığı" termini son illərdə psixoloqlar və nevroloqlar tərəfindən ən çox müzakirə olunan mövzulardan biridir. Bu asılılığın kökündə, sadəcə, maraq deyil, beyindəki kimyəvi proseslər dayanır. Sosial şəbəkələrdəki paylaşımlar, mesajlar və "bəyənmə"lər dopamin adlı "xoşbəxtlik hormonu"nun ifrazını artırır, bu da insanı həmin hissi yenidən yaşamaq üçün telefona təkrar-təkrar baxmağa sövq edir. Buna görə də insan telefonunu məqsədsiz yerə açır, heç bir vacib səbəb olmadan ekranı yoxlayır. Çox vaxt beşdəqiqəlik baxış planlaşdırsa da, bir də baxır ki, saatlar keçib.

Harvard Universitetinin psixoloqları bildirirlər ki, tez-tez telefon yoxlamaq diqqət dağınıqlığına səbəb olur. İnsan beyni bir işi tamamlamaq üçün 20 dəqiqə fasiləsiz fokuslanmaya ehtiyac duyur, lakin hər dəfə telefon titrəyəndə bu proses sıfırlanır. Nəticədə həm məhsuldarlıq azalır, həm də yaddaş zəifləyir.

Sosial əlaqələr də bu vərdişdən zərər görür. Yemək zamanı, dostlarla söhbətdə və ailə görüşlərində insanların əllərində telefon olması artıq adi haldır. Bu davranış "phubbing", yəni qarşısındakı insanı telefona görə görməməzliyə vurmaq adlanır. Bu hal münasibətlərdə emosional uzaqlıq və dəyərsizlik hissi yaradır. Telefon istehsalçıları və sosial media platformaları isə rəng seçimi, bildiriş səsləri və tətbiq dizaynları ilə bu asılılığı sanki bilərəkdən gücləndirirlər.

### Kompüter qarşısında keçən saatlar

Həddindən artıq kompüter istifadəsi "kompüterlə bağlı göz yorğunluğu sindromu" kimi yeni bir problemin yaranmasına səbəb olub. Gündə 2 saatdan çox kompüter qarşısında olan hər kəs bu riski daşıyır.

Kompüterdən istifadə zamanı göz qırpmaq sayı normaldan (dəqiqədə 12-18) üçdəbirə (dəqiqədə 4-6) qədər azalır. Bu isə gözquruluğu, yanma, ağrı, bulanıq görmə və başağrısı kimi şikayətlərə yol açır. Xüsusilə kondisionerli mühitlərdə rütubət azaldığı üçün bu problemlər daha da artır.

Mütəxəssislər tövsiyə edirlər ki, kompüterdən istifadə edərkən xüsusi gözlüklər taxılsa, daha yaxşı olar. Eynəklərin üzərindəki əksetdirici örtüklər ultrabənövşəyi dalğa uzunluqlarının gözlərə nüfuzunu azaltmaqla rahatlıq verir. Kompüterin qarşısında dik və rahat oturmaq lazımdır. Bu zaman ayaqlar yerə perpendikulyar, dirsəklər isə paralel olmalıdır. Kreslonun arxa dəstəkli və tənzimlənən olması da tövsiyəolunandır. Gözlə ekran arasındakı məsafə isə 60 santimetrdən çox olmamalıdır.

Mütəxəssislər ekran qarşısında keçirilən vaxtı məhdudlaşdırmağın və fəal həyat tərzi keçirməyin vacibliyini vurğulayırlar. Yatmazdan bir saat əvvəl və oyandıqdan bir saat sonra rəqəmsal cihazlardan istifadə etməmək, sosial şəbəkə bildirişlərini söndürmək tövsiyə olunur.

Hazırda bir çox ölkədə restoran və ictimai yerlərdə "mobil telefondan istifadə qadağandır" və "sakit zona" kimi qaydalar tətbiq edilir. Bu, insanlara real ünsiyyət və diqqət balansını bərpa etməyə kömək edir. Mütəxəssislər gün ərzində "ekransız saatlar" təyin etməyi və vaxtaşırı "digital detox", yəni texnologiyadan müvəqqəti uzaqqalma təcrübəsini sınamağı məsləhət görürlər. Beləliklə, ekranlar həyatımızın ayrılmaz hissəsinə çevrilsə də, onlara nəzarət etmək sağlamlığımız və sosial münasibətlərimiz üçün həyati əhəmiyyət daşıyır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Bu gün yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, noyabrın 4-də Bakıda və Abşeron yarımadasında havanın buludlu olacağı, gün ərzində arabir yağış yağacağı, yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı gözlənilir.**



Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-13, gündüz 15-17 dərəcə isti olacaq. Atmosfer təzyiqi 772 millimetr civə sütunundan 769 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam qərb rayonlarında yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 6-11, gündüz 17-21, dağlarda gecə 0-5, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Ayşən Habil qızı Əhmədovanın adına verilmiş 11.11.2022-ci il tarixli 008085 nömrəli Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Rəsul Firuz oğlu Əhmədovun adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Məzahir Firuz oğlu Əhmədovun adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi tərəfindən Əli Firuz oğlu Əhmədovun adına verilmiş Şəhid ailəsi üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi iş yoldaşları İbrahim Mirzəyevə anası

**ŞƏRAN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Elçin Qasımov, Adil Əliyev və Rahim Rəhimov Sübhi Kazımova atası

**ƏLİ KAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4020
Sifariş 2240

Qiyməti 60 qəpik